# Xalq qəzeti

Xalqın qəzeti!

№ 150 (30844) 23 iyul 2025-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Zəngəzur dəhlizi: iqtisadi inteqrasiya və regional imkanlar

**Azərbaycanın təşəbbüsü ilə irəli sürülən Zəngəzur dəhlizi Cənubi Qafqazın gələcək inkişafı üçün strateji əhəmiyyət kəsb edən mühüm layihədir. O, regionda iqtisadi inteqrasiyanın, ticarət əlaqələrinin və geosiyasi sabitliyin gücləndirilməsini hədəfləyir. Prezident İlham Əliyevin Şuşa Qlobal Media Forumunda qeyd etdiyi kimi, "Zəngəzur dəhlizi artıq region üçün yeni bir nəqliyyat xətti olmaqdan çox, böyük bir geoiqtisadi və geosiyasi layihəyə çevrilir."**



Bu dəhliz Azərbaycanın logistik mərkəz kimi mövqeyini möhkəmləndirir, Orta Dəhlizin əsas halqasına çevrilir və Şərq–Qərb ticarət axınında mühüm rola malik olur. Layihə, eyni zamanda, Azərbaycan–Türkiyə–Mərkəzi Asiya iqtisadi əlaqələrini fiziki müstəvidə birləşdirir.

Nəticə etibarilə, Zəngəzur dəhlizi Azərbaycanın geosiyasi düşüncəsinin iqtisadi strategiyaya çevrilmiş bir manifesti kimi çıxış edir və regionda ortaq rifaha, davamlı sabitliyə və dərin iqtisadi inteqrasiyaya əsaslanan yeni dövrün başlanğıc nöqtəsinə çevrilməkdədir.

**1. Qlobal çağırışlar və geoiqtisadi dəyişikliklər**

**Yeni geoiqtisadi çağırışlar**

Ötən beş ildə baş verən qlobal hadisələr həm ticarət, həm də iqtisadi sistemləri əsaslı şəkildə dəyişdirərək yeni geoiqtisadi reallıqların yaranmasına səbəb olub. Postpandemiya dövrü geosiyasi gərginliklərin artması, enerji və ərzaq təhlükəsizliyi məsələləri və "yaşıl keçid" çağırışları ölkələri iqtisadi prioritetlərini yenidən nəzərdən keçirməyə vadar etmişdir. Bu dəyişikliklər bir neçə vacib qlobal tendensiya ilə müşayiət olunur:

a) Qlobal təchizat zəncirlərində pozulmalar: qlobal pandemiya, regional münaqişələr və geosiyasi gərginliklər nəticəsində qlobal təchizat zəncirlərində ciddi pozuntular müşahidə edilmişdir. Xüsusilə Asiya–Avropa marşrutu üzrə konteyner daşımalarının orta müddəti uzanmış, bu isə dünya ticarətinin effektivliyinə mənfi təsir göstərmiş, istehsal zəncirində fasilələr yaranmış və qlobal inflyasiya təzyiqləri güclənmişdir.

*(ardı 7-ci səhifədə)*

# Prezident İlham Əliyevin ABŞ lideri Donald Trampa paylaşım təşəkkürü

**Azərbaycan Prezidenti İlham Əliyev ABŞ Prezidenti Donald Trampa öz sosial şəbəkəsində onun Şuşa Qlobal Media Forumundakı çıxışını paylaşdığına görə təşəkkür edib.**




Bu barədə dövlətimizin başçısı "X" hesabında bildirib:

"Şuşa Qlobal Media Forumunda ABŞ-Azərbaycan tərəfdaşlığı və həmçinin Prezident Donald Trampın həm qlobal, həm də regionumuzda sülh gündəliyinə sadiqliyi ilə bağlı qeyd etdiyim fikirlərimi öz sosial media platformasında paylaşdığına görə ona minnətdarlığımı bildirmək istərdim.

Mən bir daha Prezident Trampın bütün dünyada, o cümlədən regionumuzda sülhün və sabitliyin təşviq edilməsi ilə bağlı baxışını və səylərini dəstəklədiyimizi vurğulamaq istəyirəm. Biz, həmçinin ailə ənənələrinin əhəmiyyəti kimi ortaq dəyərləri bölüşürük və onun prezidentliyi dövründə ABŞ-Azərbaycan münasibətlərinin yeni səviyyəyə qalxacağına ümid edirik.

Biz ona bu məqsədə nail olunması istiqamətində bütün səylərində uğurlar arzulayırıq".

# Azərbaycan mediası: islahat məntiqi və yeni hədəflər

*Prezidentin nikbinliyi konkret işlərdən qaynaqlanır*



**"Azərbaycan mediasının inkişafı məni çox sevindirir. Çox şadam ki, bu gün bizim mediamız nəinki ölkə daxilində, hətta beynəlxalq müstəvidə çox böyük nüfuz qazanıb və bunu tam səmimiyyətlə deyirəm". Bu fikri Prezident İlham Əliyev III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşündə bildirib. Əlbəttə, dövlətimizin başçısının nikbinliyi ruh yüksəkliyi doğurur.**

Məlumdur ki, istənilən sahədəki konkret nəticə kompleks fəaliyyətdən asılıdır. Ölkəmizdə digər istiqamətlərə olduğu kimi, mediaya münasibətdə də fundamental yanaşma var. Yanaşmanın bariz göstəricilərindən biri də Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" 12 yanvar 2021-ci il tarixli fərmanıdır. Bu mühüm dövlət sənədində mediamızın qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinə uyğun modernləşməsi, innovativ təkamülün yaratdığı imkanlardan daha çox bəhrələnməsi, habelə onun şəffaflıq və vətəndaş məmnunluğu prinsiplərinə əsaslanması, cəmiyyətin obyektiv və peşəkar məlumatlandırılmasına xidmət edən fəaliyyətinin stimullaşdırılması zərurəti vurğulanmışdır.

*(ardı 5-ci səhifədə)*

# 1 dəqiqə 17 saniyəlik çıxışın ABŞ əks-sədası...

*ABŞ liderinin xronometrajı qısa, siyasi çəkisi böyük paylaşımına sözardı*



**Yaddaşımız bizi aldatmırsa, ən azı, son 15-20 il ərzində dünyanın "super gücü" sayılan Birləşmiş Ştatlar prezidentinin hansısa ölkənin rəhbərinin çıxışından bir parçanı özünün sosial şəbəkədəki profilində paylaşması müşahidə olunmayıb. Baş vermiş hadisə bu qəbildən olan ilk presedent sayıla bilər.**

Söhbət ABŞ Prezidenti Donald Trampın Azərbaycan Prezidenti İlham Əliyevin Xankəndidə "Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" mövzusunda lll Şuşa Qlobal Media Forumundakı çıxışından etdiyi paylaşımdan edib (@realDonaldTrump).

*(ardı 5-ci səhifədə)*

# Azərbaycan – İƏT əlaqələrinin strateji önəmi artır

*Dayanıqlı inkişaf və "yaşıl" gündəlik tərəfdaşlığı*



**Prezident İlham Əliyev iyulun 19-da Xankəndidə keçirilən "Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" mövzusunda III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşündə Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatında (İƏT) həyata keçirdiyi iqtisadi təşəbbüslərin və regional liderlik mövqeyinin ölkəmizin artmaqda olan iqtisadi potensialı, əlverişli geostrateji mövqeyi və çoxşaxəli xarici siyasəti fonunda xüsusi əhəmiyyət qazandığını diqqətə çatdırıb.**

*(ardı 8-ci səhifədə)*

# Milli mənafeyə söykənən diplomatiya

səhifə ⇨ 4

# Zəngəzur dəhlizi: İrəvan fürsəti niyə əldən verir?




səhifə ⇨ 4

# Azərbaycan mediası milli azadlıq uğrunda mübarizədə




səhifə ⇨ 10

# Azərbaycanın media nümayəndələrinə

**Hörmətli media nümayəndələri!**
**Əziz jurnalistlər!**

Sizi əlamətdar yubiley – Azərbaycan milli mətbuatının yaranmasının 150-ci ildönümü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

1875-ci il iyulun 22-də böyük maarifçi, naşir Həsən bəy Zərdabi tərəfindən qabaqcıl ideyaların carçısı, dövrün, ictimai-siyasi həyatın güzgüsü – "Əkinçi" qəzetinin nəşrə başlaması ilə Azərbaycan milli mətbuatının əsası qoyuldu. Həmin dövrdə bütün Qafqazda böyük əks-səda doğuran bu mühüm tarixi hadisə Azərbaycan maarifçilik hərəkatının inkişafına, milli oyanışa, milli özünüdərkin və düşüncə azadlığının formalaşmasına təkan vermiş, mütərəqqi jurnalist, publisist və ziyalı nəslin yetişməsində əhəmiyyətli rol oynamışdır.

Azərbaycan milli mətbuatı bütün dövrlərdə cəmiyyəti düşündürən problemləri, zəmanənin qabaqcıl ideyalarını və mütərəqqi fikirlərini əks etdirmiş, xalqımızın maariflənməsində, milli və bəşəri dəyərlərin təbliğində, Azərbaycan ədəbi dilinin inkişafında müstəsna xidmətlər göstərmiş, azadlıq və müstəqillik kimi xalqımızın ən ülvi arzularının reallaşmasına öz töhfəsini vermişdir.

Keçən əsrin sonlarında müstəqillik qazanmış Azərbaycanda Ümummilli Lider Heydər Əliyevin siyasi iradəsi və qətiyyəti nəticəsində cəmiyyət həyatının bütün sahələrində olduğu kimi milli mətbuatın inkişafında da əsaslı dönüş yaranmışdır. Həmin dövrdə media sahəsində həyata keçirilmiş köklü islahatların nəticəsi kimi medianın fəaliyyətini tənzimləyən qanunvericilik bazası təkmilləşdirilərək beynəlxalq standartlara uyğunlaşdırılmış, söz və məlumat azadlığını məhdudlaşdıran süni maneələr və senzura aradan qaldırılmışdır. Bütün bunlar Azərbaycan mediasının sürətli inkişafına təkan vermiş və onun yeni mərhələyə qədəm qoymasını təmin etmişdir.

Azərbaycan mətbuatının müstəqilliyi cəmiyyətimizin inkişafının başlıca şərtlərindən biridir. Müstəqil, güclü, günümüzün tələblərinə cavab verən, xalqın maraqlarını rəhbər tutan mətbuatın inkişafı və onun sərbəst fəaliyyəti üçün zəruri şəraitin yaradılması hər zaman dövlətimizin qarşısında duran prioritet vəzifələrdən olmuşdur. Bu istiqamətdə daim sistemli iş aparılmış, ölkəmizin informasiya mühitinin sağlamlaşdırılmasını, media fəaliyyətinin potensialının və iqtisadi əsaslarının möhkəmləndirilməsini, rəqəmsal dövrün çağırışlarına uyğunlaşdırılmasını hədəfləyən normativ-hüquqi baza yaradılmış, informasiya resurslarının iqtisadi müstəqilliyinin gücləndirilməsi və jurnalistlərin sosial müdafiəsinin yaxşılaşdırılması məqsədilə əsaslı islahatlar həyata keçirilmişdir.

Bu gün artıq fəxrlə deyə bilərik ki, bizim milli mətbuat bir əsr yarım ərzində şərəfli və mütərəqqi inkişaf yolu keçmişdir. Əlamətdar haldır ki, budəfəki yubileyi milli mətbuatımız artıq ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş Azərbaycanda qeyd edir.

Azərbaycan mediası 44 günlük Vətən müharibəsi və antiterror əməliyyatı dövründə hadisələrin operativ işıqlandırılmasını təmin etmək üçün həm ön, həm də arxa cəbhədə fədakarlıqla və əzmlə çalışmışdır. Ölkəmiz və xalqımız üçün bu tarixi və taleyüklü mərhələdə Azərbaycan mediası cəmiyyətimizin operativ və düzgün məlumatlandırılmasında, kütləvi dezinformasiya hücumlarının qarşısının alınmasında böyük rol oynamış, haqq səsimizin və mövqeyimizin beynəlxalq ictimaiyyətə çatdırılmasında yüksək peşəkarlıq, əsl vətənpərvərlik və həmrəylik nümayiş etdirmişdir. Heç şübhəsiz ki, informasiya məkanında qazandığımız zəfər döyüş meydanında qazandığımız və bu il 5-ci ildönümünü qeyd edəcəyimiz şanlı Zəfərimizin ayrılmaz parçasıdır.

Torpaqlarımızın işğalı zamanı cəbhə bölgəsində və postmüharibə dövründə işğaldan azad olunmuş ərazilərimizdə vəzifə borcunu yerinə yetirərkən şəhid olmuş media nümayəndələrimizin əziz xatirəsini dərin hörmət və ehtiramla yad edirəm. Onların şücaəti və qəhrəmanlığı heç zaman unudulmayacaq.

Bu gün Azərbaycan Respublikası tam müstəqil xarici siyasət yürüdən, regionun siyasi və iqtisadi mərkəzi statusunu qazanmış, beynəlxalq münasibətlər sistemində öz layiqli yerini tutmuş güclü dövlətdir. Ölkəmizin mövcud inkişaf dinamikası Azərbaycan mediasının da ümumdünya informasiya şəbəkəsindəki çəkisini artırmış, rəqabət qabiliyyətini yüksəltmişdir.

Qarşıdan gələn dövrdə milli mətbuatımızın qlobal informasiya məkanında yerinin daha da möhkəmlənməsini təmin etmək məqsədilə media savadlılığının yüksəldilməsi, ən qabaqcıl kommunikasiya texnologiyalarının tətbiqi, effektiv və çevik kommunikasiyanın həyata keçirilməsi, sosial media platformalarında fəallığın artırılması, rəqəmsallaşma, süni intellektin tətbiqi, dezinformasiya və saxta xəbərlərlə mübarizə kimi amillər aparıcı rol oynayacaqdır.

Dünyada yeni media landşaftının bərqərar olduğu mürəkkəb rəqabət mühitində fəaliyyət göstərən milli mətbuatımızın üzərinə xüsusi məsuliyyət düşür. Belə ki, qlobal informasiya məkanının sürətlə transformasiya olunduğu, beynəlxalq təbliğat fəaliyyətinin ölkələrin imicinə, daxili həyatına ciddi təsir göstərdiyi, süni intellektin imkanlarının genişləndiyi, hibrid təhdidlərin və "deepfake"lərin geniş vüsət aldığı müasir dövrdə bizim mediamız peşəkarlıq, obyektivlik, qərəzsizlik, yüksək milli şüur və vətənpərvərlik prinsiplərinə əməl edərək, söz və məlumat azadlığından sui-istifadənin qarşısını qətiyyətlə almalı, Azərbaycanın milli maraqlarını və mənafeyini hər şeydən uca tutmalıdır.

Müasir media mədəniyyətinin formalaşdırılmasında məsuliyyətli, yaradıcı, intellektual və peşəkar jurnalistikanın aparıcı rolu danılmazdır. Əminəm ki, Azərbaycan mediası bundan sonra da cəmiyyətimizin obyektiv və peşəkar şəkildə məlumatlandırılması, müasir cəmiyyət quruculuğu, milli həmrəyliyin möhkəmləndirilməsində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəkdir.

Sizi bir daha bu əlamətdar ildönümü münasibətilə ürəkdən təbrik edir, milli mətbuatımızın şanlı ənənələrinin yaşadılması işində uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 iyul 2025-ci il**

# Prezident İlham Əliyev rəsmi sosial şəbəkə səhifələrində Milli Mətbuat Günü münasibətilə paylaşım edib




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəsmi sosial şəbəkə səhifələrində 22 İyul - Milli Mətbuat Günü münasibətilə paylaşım edib.**

Paylaşımda deyilir: "Sizi və həmkarlarınızı yubiley münasibətilə təbrik edirəm. Azərbaycan mediasının inkişafı məni çox sevindirir. Mən çox şadam ki, bu gün bizim mediamız nəinki ölkə daxilində, hətta beynəlxalq müstəvidə çox böyük nüfuz qazanıb. Xankəndi, 19 iyul 2025-ci il. III Şuşa Qlobal Media Forumu".

## "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (I kitab), maddə 1174 (Cild I) 1.14-cü bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 1.15-ci bənd əlavə edilsin:

"1.15. istehsal prosesinin qablaşdırma mərhələsi Azərbaycan Respublikasının ərazisində həyata keçirilən dərman vasitələri və dərman maddələri 2025-ci il iyunun 1-dən 5 il müddətinə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq satınalma güzəştinin tətbiqi məqsədilə yerli mal hesab edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 iyul 2025-ci il**

## Sabirabad rayonunun Hacıqabul – Bəhrəmtəpə – Mincivan (10 km) – Sabirabad avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** Altmış bir min nəfər əhalinin yaşadığı 15 yaşayış məntəqəsini birləşdirən Hacıqabul–Bəhrəmtəpə–Mincivan (10 km)–Sabirabad avtomobil yolunun əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli 445 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.19.21-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 2,1 milyon (iki milyon bir yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun əsaslı təmirinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

**4** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 iyul 2025-ci il**

## "Azərbaycan Biznesinin İnkişafı Fondunun fəaliyyətinin təmin edilməsi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 dekabr tarixli 258 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Biznesinin İnkişafı Fondunun fəaliyyətinin təmin edilməsi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 dekabr tarixli 258 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

**1** Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 5 oktyabr tarixli 1063 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 10, maddə 1622 (Cild I); 2024, № 5 (I kitab), maddə 529) ilə təsdiq edilmiş Əlavə 2 – "Azərbaycan mənşəli qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı görülmüş işlər barədə hesabat"ın 1 nömrəli cədvəlinin 4-cü hissəsinin "Görülmüş işin (tədbirin) adı" sütununda "Respublikası Sahibkarlığın" sözləri "Biznesinin" sözü ilə əvəz edilsin.

**2** "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 963-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 fevral tarixli 1816 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 180 (Cild I) 2.5-1-ci bəndində "Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu" sözləri "Biznesinin İnkişafı Fondu qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

**3** "Sahibkarlıq fəaliyyəti haqqında" və "Çayçılıq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1388-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 31 yanvar tarixli 503 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 93 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bənd ləğv edilsin;

3.2. 2.2-ci bənddə "Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu" sözləri "Biznesinin İnkişafı Fondu qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 iyul 2025-ci il**

# Azərbaycan milli mətbuatının 150 illik yubileyi təntənə ilə qeyd edilib




**İyulun 22-də Bakıda Medianın İnkişafı Agentliyi tərəfindən Azərbaycan milli mətbuatının 150 illik yubileyi münasibətilə tədbir keçirilib.**

Əvvəlcə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin milli mətbuatın 150 illik yubileyi ilə əlaqədar media nümayəndələrinə müraciəti səsləndirilib.

Müraciəti Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev oxuyub.

Sonra bir qrup media nümayəndəsinə Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə təsis olunmuş "Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)" yubiley medalı təqdim edilib.

Daha sonra milli mətbuatın 150 illik yubileyi münasibətilə hazırlanmış videoçarx nümayiş olunub.

Tədbir bədii hissə ilə davam edib.

Milli mətbuatın 150 illik yubileyinə həsr olunmuş tədbirdə Azərbaycanın televiziya kanallarının, informasiya agentliklərinin, bir sıra aparıcı çap və onlayn media subyektlərinin rəhbərləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

***XQ***



## Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması ilə bağlı əlavə tədbirlər haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Beynəlxalq ikili diplom proqramlarının tətbiqinin əsas hədəfləri qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından yararlanaraq yeni nəsil mütəxəssislər yetişdirmək, Azərbaycan ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərini müasirləşdirmək, transmilli təhsil modelinin Azərbaycan Respublikasında tətbiqi yolu ilə uğurlu nəticələr əldə etməkdir.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 noyabr tarixli 711 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2019–2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"na uyğun olaraq hazırda 6 beynəlxalq ikili diplom proqramı icra olunur.

İnkişaf etmiş təhsil sisteminə malik ölkələrlə ikili diplom proqramlarının dəstəklənməsi, xüsusilə, beynəlxalq reytinqlərdə yüksək mövqe tutan xarici ali təhsil müəssisələri ilə ikili diplom proqramlarının sayının artırılması Azərbaycan Respublikasının vətəndaşı olan istedadlı, yüksək intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri ilə seçilən perspektivli gənclərin beynəlxalq təcrübə əldə etmələrinə imkan və ikili diplom proqramları çərçivəsində birgə elmi fəaliyyətin genişlənməsinə zəmin yaradacaqdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ali təhsildə beynəlxalq ikili diplom proqramlarının əhatə dairəsinin genişləndirilməsi məqsədilə **qərara alıram:**

**1** Ali təhsil sahəsində tətbiq edilən beynəlxalq ikili diplom proqramlarının sayı Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"na uyğun olaraq 8-ə çatdırılsın və onların icrası 2030-cu ilədək təmin edilsin.

**2** Mövcud və yeni tətbiq ediləcək beynəlxalq ikili diplom proqramlarının maliyyələşdirilməsi, bu Sərəncamın 3.1.2-ci yarımbəndi nəzərə alınmaqla, Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaiti hesabına təmin edilsin.

**3** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. dörd ay müddətində:

3.1.1. beynəlxalq ikili diplom proqramlarının həyata keçiriləcəyi xarici tərəfdaş ali təhsil müəssisələrinin, ixtisaslar üzrə təhsil proqramlarının və təhsil səviyyələrinin seçimi qaydasını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.1.2. beynəlxalq ikili diplom proqramlarının həyata keçirilməsinin maliyyələşdirilməsi qaydasını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.1.3. beynəlxalq ikili diplom proqramlarının həyata keçirilməsi üzrə tədbirlər planını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi:

4.1. beynəlxalq ikili diplom proqramlarının həyata keçiriləcəyi xarici tərəfdaş ali təhsil müəssisələrinin, ixtisaslar üzrə təhsil proqramlarının və təhsil səviyyələrinin seçimini bu Sərəncamın 3.1.1-ci yarımbəndində nəzərdə tutulan qaydaya uyğun həyata keçirsin;

4.2. hər növbəti tədris ili üçün beynəlxalq ikili diplom proqramlarının həyata keçirilməsinin maliyyələşdirilməsinə tələb olunan vəsaitin həcmini Azərbaycan Respublikasının Dövlət Neft Fondu ilə razılaşdırmaqla müəyyən etsin;

4.3. bu Sərəncamdan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 iyul 2025-ci il**

# Xarici işlər nazirinin Gürcüstan görüşləri



**İyulun 22-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Gürcüstana rəsmi səfəri çərçivəsində bu ölkənin Prezidenti Mixeil Kavelaşvili ilə görüşüb.**

Görüş zamanı Azərbaycan-Gürcüstan strateji tərəfdaşlığının gündəliyində duran məsələlər, ikitərəfli əlaqələrin müxtəlif sahələrdə inkişaf perspektivləri və regional təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycan və Gürcüstan arasında enerji, nəqliyyat, ticarət, investisiyalar, ekologiya və humanitar sahələri əhatə edən genişmiqyaslı əməkdaşlığın dinamik inkişafı və bu əməkdaşlığın regionda sabitlik və tərəqqiyə verdiyi töhfə vurğulanıb.

Qlobal və regional çağırışlar fonunda iki ölkənin suverenlik və ərazi bütövlüyü prinsiplərinə qarşılıqlı hörmət və dəstəyə əsaslanan münasibətləri yüksək qiymətləndirilib. Bu xüsusda, Cənubi Qafqazda sülh və əməkdaşlığın möhkəmləndirilməsi üçün səylərin vacibliyi qeyd olunub.

Nazir Ceyhun Bayramov, həmçinin işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa-quruculuq prosesi, habelə Ermənistanla normallaşma prosesi barədə məlumat verib.

***

**Dünən xarici işlər naziri Ceyhun Bayramov Gürcüstan Parlamentinin sədri Şalva Papuaşvili ilə də görüşüb.**

Görüşdə Azərbaycan və Gürcüstan arasında dostluq və strateji tərəfdaşlıq münasibətlərinin mövcud vəziyyəti və inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.



Strateji tərəfdaşlığın əsas dayaqlarından biri kimi parlament diplomatiyasının, parlament sədrlərinin və nümayəndələrinin qarşılıqlı səfərlərinin, həmçinin parlament dostluq qrupları arasında sıx əməkdaşlığın vacibliyi qeyd olunub.

Azərbaycan ilə Gürcüstan arasında siyasi, iqtisadi, enerji, ticarət, nəqliyyat, kommunikasiya və humanitar sahələrdə uğurla davam etdirilən əməkdaşlığın təqdirəlayiq olduğu bildirilib. Xüsusilə, Orta Dəhliz üzrə reallaşdırılan birgə təşəbbüslərin və gələcək layihələrin regionun iqtisadi inkişafına və strateji əhəmiyyətinə verdiyi töhfə diqqətə çatdırılıb.

İki ölkə arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq mexanizmlərinin regionda sabitliyin və qarşılıqlı faydalı inteqrasiyanın möhkəmləndirilməsindəki rolu vurğulanıb.

Görüş zamanı nazir Ceyhun Bayramov regionda mövcud vəziyyət, xüsusilə postmünaqişə dövründə Azərbaycanın qarşılaşdığı çağırışlar və atdığı addımlar barədə məlumat verib.

***

**İyulun 22-də xarici işlər naziri Ceyhun Bayramov gürcü həmkarı Maka Boçorişvili ilə də görüşüb.**

Nazirlər arasında baş tutan təkbətək görüş daha sonra hər iki tərəfdən nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib.

Görüş zamanı Azərbaycan-Gürcüstan dostluq və strateji tərəfdaşlıq münasibətlərinin cari vəziyyəti, inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Tərəflər ölkələrimiz arasında yüksəksəviyyəli siyasi dialoqun, qarşılıqlı səfərlərin və siyasi məsləhətləşmələrin münasibətlərin daha da dərinləşməsinə verdiyi töhfəni vurğulayıblar.

Nazirlər enerji, nəqliyyat, ticarət, turizm və təhsil sahələrində əməkdaşlığın daha da genişləndirilməsi imkanlarını müzakirə ediblər. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Qars və Cənub Qaz Dəhlizi kimi birgə həyata keçirilən layihələrin, habelə yaşıl energetika və rəqəmsal kommunikasiya sahəsində irəli sürülmüş təşəbbüslərin və layihələrin strateji əhəmiyyəti qeyd olunub. Şərq-Qərb Orta Dəhlizin ölkələrimiz və Mərkəzi Asiya arasında əməkdaşlıq əlaqələrinə müsbət töhfəsi vurğulanıb.

Tərəflər beynəlxalq platformalarda, o cümlədən regional təşəbbüslər çərçivəsində Azərbaycan və Gürcüstan arasında qarşılıqlı dəstəyə əsaslanan əməkdaşlığın davam etdirilməsinin önəmini qeyd ediblər.



# Media nümayəndələri Fəxri xiyabanı və Zəfər parkını ziyarət ediblər



**Dünən Medianın İnkişafı Agentliyi, Audiovizual Şura, Mətbuat Şurası və media qurumlarının rəhbərləri Azərbaycan milli mətbuatının 150 illik yubileyinin yekun təntənəsi günündə Fəxri xiyabana gələrək jurnalistlərin əbədi dostu ulu öndər Heydər Əliyevin əziz xatirəsini dərin ehtiramla yad edib, abidəsi önünə gül dəstələri düzüblər.**

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Daha sonra Azərbaycan milli mətbuatının banisi, "Əkinçi" qəzetinin naşiri və baş redaktoru, görkəmli ictimai xadim və maarifpərvər ziyalı Həsən bəy Zərdabinin məzarı ziyarət olunub. Milli mətbuatımızın atasının ruhuna ehtiram əlaməti olaraq məzarının önünə əklil və tər güllər qoyulub, əziz xatirəsi ehtiramla yad edilib.

Media təmsilçiləri Zəfər abidəsinin önünə əklil və tər güllər qoyublar, Vətən müharibəsində canlarını fəda edən şəhidlərin əziz xatirəsini ehtiramla anıblar.

*XQ*

## Xuntaçıların məhkəməsində

# Zərərçəkmişlər və onların varisləri ifadə veriblər

**Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi iyulun 22-də davam etdirilib.**



Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni, rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev dindirmədən əvvəl məhkəmə prosesində ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə və zərərçəkmiş şəxslərin hüquqi varislərinə qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib. Ardınca təqsirləndirilən Ruben Vardanyan məhkəməyə müraciət edərək ibtidai istintaqda iştirak etmiş tərcüməçilərin qeyri-peşəkar olduğunu, bu səbəbdən onlara etiraz bildirdiyini deyib. R. Vardanyanın müdafiəçisi Avraam Berman tərcüməçilərin adlarını sadalayaraq təqsirləndirilən şəxsin etirazını müdafiə etdiyini söyləyib.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev etiraza münasibət bildirərək Ruben Vardanyan tərəfindən Cinayət-Prosessual Məcəlləsinə əsasən etiraza və ya tərcüməçinin qeyri-peşəkarlığına dair konkret halların göstərilmədiyi, o cümlədən tərcüməçinin cinayət təqibində maraqlı olmasını təsdiqləyən sübutlar təqdim edilmədiyi üçün etirazın baxılmamış saxlanılmasını xahiş edib.

Məhkəmədə iştirak edən zərərçəkmiş şəxslər ittiham tərəfinin mövqeyi ilə razı olduqlarını bildiriblər.

Zeynal Ağayev etiraza münasibət bildirərək deyib ki, təqsirləndirilən şəxs ibtidai istintaqda iştirak etmiş tərcüməçilərin qeyri-peşəkar olmasını vurğulasa da, məhkəməyə bu halı təsdiqləyən hər hansı dəlil təqdim etməyib və etirazını əsaslandırmayıb. Ona görə də vəsatət baxılmamış saxlanılıb.

Ardınca təqsirləndirilən R.Vardanyan yenidən məhkəməyə müraciət edərək bildirib ki, müdafiəçisi ilə birgə bu il fevralın 25-də keçirilmiş məhkəmənin iclas protokolları ilə tanış olub və orada göstərilən bəzi xüsusatlarla razı deyil. Hesab edir ki, məhkəmə tərəfindən vəsatətə baxılma qaydası pozulub. R.Vardanyanın müdafiəçisi Avraam Berman təqsirləndirilən şəxsin etirazını müdafiə etdiyini deyib.

Dövlət ittihamçısı Fuad Musayev etiraza münasibət bildirərək qeyd edib ki, müdafiə tərəfinin məhkəmə iclas protokollarında yazıların düzgünlüyü və tamlığı barədə qeydlərini vermək hüququ var. Məhkəmə iclas protokolunda hər hansı xüsusatın qeyd edilməməsi və ya prosessual iştirakçıların vəsatətinin təmin olunmaması məhkəmə kollegiyasına etiraz üçün əsas hesab edilmir. Bu səbəbdən dövlət ittihamını müdafiə edən prokuror vəsatətin baxılmamış saxlanılmasını məhkəmədən xahiş edib.

Məhkəmədə iştirak edən zərərçəkmiş şəxslər ittiham tərəfinin mövqeyi ilə razı olduqlarını bildiriblər.

Zeynal Ağayev söyləyib ki, cinayət prosesində müvafiq etirazlar əsaslandırılmaqla yazılı formada edilir. Bundan başqa, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə əsasən, işə baxan hakimlər kollegiyasının cinayət təqibində maraqlı olması barədə konkret və mötəbər dəlillər təqdim edilməyib, məhkəmənin obyektivliyi və qərəzsizliyinə təsir göstərən dair hallar müəyyənləşdirilməyib. Qeyd olunanlara əsasən, etiraz baxılmamış saxlanılıb.

Bundan sonra Ermənistanın təcavüzkar müharibəsi və işğalçılıq siyasəti nəticəsində törədilmiş cinayət hadisələri zamanı zərər çəkənlər, habelə zərərçəkmişlərin hüquqi varisləri ifadə veriblər.

Zərərçəkmiş Anar Kazımovun hüquqi varisi Eynur Kazımov qardaşının Laçın rayonunda Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin açdığı atəş nəticəsində həlak olduğunu bildirib.

Zərərçəkmiş şəxsin hüquqi varisi kimi tanınaraq dindirilmiş Valeh Səfərov ifadəsində qardaşı Gökhan Səfərovun Ağdərə istiqamətində Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin açdığı atəş nəticəsində həlak olduğunu söyləyib.

Zərərçəkmiş şəxslər Zamir Sadıqov və Zülfüqar Muradov ifadələrində düşmənin təxribatları nəticəsində yaralandıqlarını qeyd ediblər.

Zərərçəkmiş Kənan Qədirli isə Ağdərə istiqamətində yaralı şəxsləri ərazidən çıxarmaq istəyərkən xəsarət aldığını bildirib.

Gündüz Qasımov ifadəsində Kəlbəcər rayonunda Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən atılan mərminin partlaması nəticəsində xəsarət aldığını deyib.

Vüsal Qurbanov ifadəsində Xocalıda Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən açılmış snayper atəşi nəticəsində yaralandığını söyləyib. O, dövlət ittihamçısı Təranə Məmmədovanın sualına cavabında həmin vaxt həlak olanların və yaralananların olduğunu da deyib.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandıran zərərçəkmiş Sadiq Əhmədov ifadəsində Kəlbəcərdə Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən basdırılmış minanın partlaması nəticəsində xəsarət aldığını söyləyib. Sonradan həmin minanın piyadaəleyhinə mina olduğunu öyrənib.

Sadiq Məhərrəmov ifadəsində Kəlbəcərdə düşmən tərəfindən atılmış qumbaraatan mərmisinin partlaması nəticəsində xəsarət aldığını bildirib. O, hazırda üçüncü qrup əlildir.

Məhkəmənin növbəti iclası iyulun 29-na təyin edilib.

*XQ*

# Baş prokuror Türkiyədə




**Azərbaycanın Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyə Ali Məhkəməsinin Baş prokuroru Muhsin Şentürkün dəvəti ilə Ankara şəhərində səfərdədir.**

Baş Prokurorluqda keçirilmiş görüşdə Muhsin Şentürk ölkələrimizin hüquq-mühafizə orqanları arasında mövcud yüksək səviyyəli əməkdaşlığın əhəmiyyətini vurğulayıb. Kamran Əliyev göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirərək, Azərbaycan və Türkiyə arasındakı qardaşlıq münasibətlərinin ümummilli lider Heydər Əliyevin “Bir millət, iki dövlət” və Mustafa Kamal Atatürkün “Azərbaycanın sevinci bizim sevincimizdir, Azərbaycanın kədəri bizim kədərimizdir” kəlamlarında öz əksini tapdığını qeyd edib.

Həmin gün nümayəndə heyəti Türkiyə Ali Məhkəməsinin sədri Ömər Kərkəz ilə də görüşüb. Görüşdə ölkələrimizin prokurorluq, məhkəmə və ədliyyə sistemləri arasında əməkdaşlığın uğurla davam etdiyi bildirilib.

İyulun 22-də nümayəndə heyəti Türkiyənin ədliyyə naziri Yılmaz Tunç ilə də görüş keçirib. Görüşdə hüquqi yardım, ekstradisiya, təlim səfərləri və digər əməkdaşlıq imkanları müzakirə olunub.

Nümayəndə heyətinin səfəri davam edir.

# Azərbaycan və Türkiyə müdafiə nazirlərinin İstanbul müzakirəsi




**“IDEF 2025” 17-ci Beynəlxalq Müdafiə Sənayesi Sərgisində iştirak etmək üçün İstanbul şəhərində səfərdə olan Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyənin milli müdafiə naziri cənab Yaşar Gülerlə görüşüb. Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.**

Bildirilib ki, görüşdə hər iki qardaş ölkə arasında hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub. Strateji əməkdaşlığın möhkəmləndirilməsi baxımından “IDEF 2025” sərgisinin xüsusi önəm kəsb etdiyi vurğulanıb.

Tərəflər, həmçinin regional təhlükəsizlik və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparıblar.

Görüşün sonunda "Qarşılıqlı hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə dair Anlaşma Memorandumu" imzalanıb.

# Milli mənafeyə söykənən diplomatiya

**Xankəndidə keçirilən III Şuşa Qlobal Media Forumu Azərbaycanın milli siyasət fəlsəfəsinin, xüsusilə də diplomatiya modelinin mahiyyətini ortaya qoyan mühüm siyasi tribuna idi. Prezident İlham Əliyevin forumdakı çıxışı Azərbaycanın xarici siyasətində uğurun əsas düsturunu aydın şəkildə ortaya qoydu.**

Prezident İlham Əliyevin forumdakı çıxışı Azərbaycanın müasir diplomatiya fəlsəfəsinin birmənalı və ardıcıl şəkildə necə qurulduğunu bir daha nümayiş etdirdi. Fəlsəfənin mərkəzində dayanan əsas prinsip isə milli mənafelərə söykənən, realist və prinsipial xarici siyasət modelidir. Qlobal mürəkkəblik dövründə bir çox dövlətlərin siyasi kursu ziddiyyətlər içində tərəddüdlərlə müşayiət olunduğu halda, Azərbaycan dövləti aydın strategiya və konkret hədəflərlə hərəkət edən bir aktor kimi fərqlənir.

Prezident İlham Əliyev çıxışında bu xətti "praqmatik, milli maraqlara əsaslanan və prinsipial mövqeyə söykənən diplomatiya" kimi xarakterizə etdi. Rəsmi Bakı modeli nə utopik iddialar üzərində qurulub, nə də gündəlik dəyişən beynəlxalq şərtlərə görə mütəmadi şəkildə modifikasiya olunan siyasi taktikalardan ibarətdir. Əksinə, bu diplomatiya sabit, amma çevik; açıq, amma qətiyyətli; əməkdaşlığa hazır, amma milli maraqları güzəştə getməyən siyasi davranış formasıdır.



Dövlətin yanaşmasında iki əsas prioritet xüsusi əhəmiyyət daşıyır: ölkədaxili legitimliyin təminatı və xarici əlaqələrdə etimadın qurulması. Yəni diplomatiya yalnız xaricdə deyil, daxildə də güclü dayaqlara söykənməlidir. Daxildə sabitlik, güclü ictimai dəstək və şəffaf idarəetmə mövcud olduqda dövlətin beynəlxalq aləmdə davranışı da daha inandırıcı və effektiv olur. İlham Əliyevin tez-tez vurğuladığı "öz xalqına düz danışmaq" tezisi məhz bu əlaqənin – daxili legitimliklə xarici etimad arasında körpünün – fəlsəfi və siyasi izahıdır. Əgər hökumət öz xalqı ilə dürüst münasibət qura bilirsə, vətəndaşın dövlətə olan inamı artır. Məhz bu inam xaricdə dövlətin çıxış etdiyi zaman arxasında dayanan ictimai gücün və etimadın göstəricisinə çevrilir.

İkinci mühüm istiqamət – xarici əlaqələrdə etimadın qurulması – Azərbaycanın regional və beynəlxalq siyasətdə necə mühüm oyunçuya çevrildiyini izah edir. Diplomatiyada inam, etibar və sabitlik strateji tərəfdaşlıq, investisiya, enerji təhlükəsizliyi, tranzit imkanları və regional layihələr kimi konkret nəticələrə səbəb olan amillərdir. Azərbaycan diplomatiyası proaktiv addımlar ataraq öz maraqlarını qabaqlayıcı şəkildə təmin edən bir aktor kimi çıxış edir.

Azərbaycanın xarici siyasət strategiyasının mühüm sütunlarından biri və bəlkə də ən dayanıqlısı – etibara əsaslanan tərəfdaşlıq münasibətləridir. Prezident İlham Əliyevin Xankəndidəki çıxışında bu yanaşmanın altı aydın şəkildə cızıldı – Azərbaycan bu gün beynəlxalq münasibətlərdə etibarlı tərəfdaş və təhlükəsizlik dayağı kimi tanınır. Müasir qlobal siyasət xaotik və təlatümlüdür. Qütbləşmə, güc mərkəzlərinin dəyişməsi, münaqişələr və enerji böhranları beynəlxalq münasibətlər sistemində proqnozlaşdırmanı çətinləşdirir. Mürəkkəb geosiyasi mənzərədə balanslı və dayanıqlı tərəfdaşlıq münasibətləri saxlamaq hər bir ölkə üçün strateji üstünlük sayılır. Məhz bu nöqtədə Azərbaycan diplomatiyası fərqlənir: həm regionda, həm də qlobal miqyasda sabit əlaqələr quraraq etibarlı siyasi "brend" formalaşdırıb.



Azərbaycanın qonşularla münasibətlərində bu yanaşma özünü daha aydın göstərir. Türkiyə ilə strateji müttəfiqlik səviyyəsinə yüksəlmiş əlaqələr təkcə siyasi yox, hərbi, iqtisadi və mədəni sahələrdə də dərinləşib. Gürcüstanla tərəfdaşlıq regionda nəqliyyat və enerji dəhlizlərinin sabitliyini təmin edən əsas sütunlardan biridir. İranla münasibətlərdə həssas məqamların mövcudluğuna baxmayaraq, Azərbaycan bu qonşuluğu qarşılıqlı hörmət və qeyri-müdaxilə prinsipləri çərçivəsində saxlamağı bacarır. Rusiya ilə münasibətlər isə daha çox praqmatizmə, enerji və təhlükəsizlik maraqlarının tarazlanmasına söykənən çoxölçülü siyasətdir.

Bununla yanaşı, Azərbaycan daha geniş miqyasda çoxvektorlu xarici siyasət yürüdür. ABŞ və Avropa İttifaqı ilə münasibətlər enerji təhlükəsizliyi, iqtisadi əməkdaşlıq və regionda sabitlik məsələlərinə yönəlib. Digər mühüm tərəfdaşlıq istiqaməti – Çin və ərəb ölkələri ilə qurulan münasibətlərdir. Azərbaycanın "Bir kəmər, bir yol" təşəbbüsündə iştirak etməsi, eyni zamanda körfəz ölkələri ilə investisiya, turizm və texnologiya sahəsində əməkdaşlığın inkişafı, diplomatiyanın çoxşaxəli və balanslı xarakterini təsdiqləyir.

Azərbaycanın xarici siyasətində qonşu dövlətlərlə münasibətlərin təşkili strateji sabitliyin və regional təhlükəsizliyin başlıca dayaq nöqtəsidir. Prezident İlham Əliyevin Şuşa III Qloqal Media Forumundakı çıxışında da bu yanaşmanın əsas konturları aydın şəkildə görünürdü: Azərbaycan qalib tərəf kimi diktə edən yox, qurucu tərəf kimi bölgədə sabitliyin və əməkdaşlığın təşəbbüskarıdır. Tarixdən bəllidir ki, münaqişələrdən sonra revanşizm və siyasi intiqam meyilləri çox zaman yeni münaqişələrə yol açır. Azərbaycan isə tam əks yol tutaraq düşmənçiliyin yerinə qonşuluq münasibətlərinin təşəkkülünə səy göstərdi.

Məhz bu yanaşmanın nəticəsidir ki, Ermənistana sülh təklifi, sərhədlərin delimitasiya və demarkasiyası prosesində konkret addımlar, Zəngəzur dəhlizi təşəbbüsü və regionda əməkdaşlıq üçün yeni platformaların təklifi gündəmin əsas xəttinə çevrildi. Qapalı sərhədlərin yerini açıq dəhlizlərə vermək, düşmən dilinin yerini praqmatik dialoqa ötürmək – Azərbaycan diplomatiyasının fərq yaradan mövqeyidir.

Azərbaycanın xarici siyasətində seçilən əsas prinsiplərdən biri və əslində onun beynəlxalq nüfuzunun təməl daşı – beynəlxalq hüquqa sarsılmaz sadiqlikdir. Prezident İlham Əliyevin çıxışında bu prinsipin davamlılıq təşkil etdiyi bir daha aydın göründü. Azərbaycanın beynəlxalq hüququ aktiv müdafiə edən və təşviq edən bir aktor kimi çıxış etməsi ölkəni regionun sərhədlərindən kənarda da tanıdan əsas faktorlardandır. Beynəlxalq hüquq normalarına əməl etmək, ilk növbədə suverenlik, ərazi bütövlüyü və dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərinə sadiqlik deməkdir. Azərbaycan bu prinsiplərə qarşı illərlə davam etmiş ikili standartlara və selektiv yanaşmalara baxmayaraq, beynəlxalq münasibətlər sistemində hüquqi qaydaların pozulmazlığını ardıcıl şəkildə müdafiə edib. Ərazi bütövlüyünün pozulmasının yaratdığı fəsadları bilavasitə yaşamış bir dövlət olaraq Azərbaycan bu prinsipin universal xarakterini müdafiə etməklə, əslində kiçik və orta dövlətlərin maraqlarına xidmət etmiş olur.

Prezident İlham Əliyevin Şuşa III Qloqal Media Forumundakı çıxışında diqqətçəkən mühüm tezislərdən biri də coğrafi mövqenin strateji üstünlüyə çevrilməsi idi. Azərbaycan Avrasiya məkanının kəsişmə nöqtəsində yerləşir: bir tərəfdən Avropa ilə Asiyanın, digər tərəfdən Şimal ilə Cənubun təmas nöqtəsindədir. Unikal coğrafi məkan Azərbaycanı transregional kommunikasiya dəhlizlərinin ayrılmaz halqasına çevirir. Lakin coğrafi imkanlar təkbaşına kifayət etmir – onu reallaşdırmaq üçün siyasi iradə, sabitlik və sistemli diplomatik fəaliyyət tələb olunur. Azərbaycan məhz bu imkanları gerçəkliyə çevirərək öz ərazisini iqtisadi və nəqliyyat baxımından qlobal miqyasda vacib bir mərkəzə çevirib. Azərbaycanın coğrafi üstünlüyü siyasi fəallıqla tamamlanaraq, ölkəni Cənubi Qafqazda həm iqtisadi, həm də diplomatik baxımdan regional liderə çevirib. Bu gün rəsmi Bakı artıq qlobal tədarük zəncirinin və enerji arxitekturasının ayrılmaz hissəsidir.

Azərbaycanın son illərdə həyata keçirdiyi xarici siyasət bir çox istiqamətdə yeni nəsil diplomatiya nümunəsinə çevrilib. Coğrafi mövqeyin strateji resursa çevrilməsi, beynəlxalq təşkilatlarda fəallıq və liderlik, qlobal çağırışlara çevik və ədalətli cavablar, sülh təşəbbüslərində fəallıq – bütün bunlar Azərbaycanı regionda sabit, proqnozlaşdırılan və məsuliyyətli aktor kimi təqdim edir. Uğurlu siyasətin arxasında isə aydın vizion, milli maraqlar üzərində qurulmuş çevik diplomatiya və Prezident İlham Əliyevin liderliyi dayanır.

Son olaraq qeyd etməliyik ki, Şuşa III Qloqal Media Forumunda səsləndirilən mesajlar göstərdi ki, Azərbaycanın xarici siyasəti konsepsiyalı, davamlı və nəticəyönümlüdür. Həm regionda, həm beynəlxalq təşkilatlarda, həm də qlobal çağırışlara münasibətdə Azərbaycan dəyər əsaslı siyasət yürüdür – bu siyasətin əsasında isə millətinə dürüstlük, tərəfdaşlara etibar, beynəlxalq hüquqa sədaqət və sülhə töhfə dayanır. Azərbaycan modeli sübut edir ki, diplomatiya məsuliyyətli gücün ifadəsidir.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# Zəngəzur dəhlizi: İrəvan fürsəti niyə əldən verir?

**Zəngəzur dəhlizi Prezident İlham Əliyevin III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşündə əsas müzakirə mövzulardan biri oldu. Bu da anlaşılandır. Çünki Zəngəzur dəhlizi təkcə regional nəqliyyat layihəsi deyil, həm də bölgə ölkələrinin hamısının faydalanacağı strateji təşəbbüsdür. Bu layihə vasitəsilə Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında quru bağlantısının bərpası reallaşacaq və türk dünyasının inteqrasiyası güclənəcək. Eyni zamanda, dəhlizin açılması Ermənistan üçün də iqtisadi dividendlər və kommunikasiyalara çıxış baxımından mühüm imkanlar yaradır. Lakin bu fürsətdən yararlanmaq üçün rəsmi İrəvan hələ də siyasi iradə nümayiş etdirməyə tələsmir.**



Halbuki dəhliz 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın 9-cu bəndində nəzərdə tutulduğu kimi açılmalı, vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin sərbəst hərəkəti təmin edilməli idi. Lakin bu sənədin imzalanmasından beş ilə yaxın vaxt keçsə də, Ermənistan tərəfi dəhlizin açılmasını sabotaj edir. Bu mövqe artıq Ermənistan üçün nəinki itirilmiş iqtisadi səmərəyə, həm də geosiyasi təcridin dərinləşməsinə çevrilir.

Prezident İlham Əliyevin forumda dediyi kimi, Zəngəzur dəhlizi bir çox ölkələri birləşdirəcək. "Biz daşımaların bu dəmir yolu və ya avtomobil yolu ilə həyata keçirilməsinin zəruriliyindən danışarkən, təkcə Azərbaycanın əsas hissəsinin onun Naxçıvan Muxtar Respublikası ilə birləşdirilməsini nəzərdə tutmuruq. Söhbət beynəlxalq tranzit dəhlizindən gedir. Biz nəqliyyat və logistika infrastrukturuna çox fəal sərmayə qoyuruq. Son illər milyardlarla dollar sərmayə qoyulub, Xəzər dənizində ən böyük beynəlxalq ticarət limanı tikilib, indi biz onu genişləndirir, yükqaldırma qabiliyyətini 25 milyon tona çatdırırıq. Gürcüstandan keçməklə Azərbaycanı Türkiyə ilə birləşdirən dəmir yolu xətti çəkilib. Müasir infrastrukturun qurulması nəticəsində Azərbaycan ərazisindən tranzit daşımaların həcmi artır. Həmçinin rəqəmsallaşma prosesi gedir, gömrük inzibatçılığı sadələşdirilir. Bu, həm də regionumuzda baş verən geosiyasi dəyişikliklər, digər tranzit marşrutların problemli hala gəldiyi bir vaxtda baş verir", – deyən dövlətimizin başçısı bildirdi ki, ona görə də bütün bunları nəzərə alaraq, Zəngəzur dəhlizinin potensialını ilkin mərhələdə 15 milyon ton yük səviyyəsində qiymətləndiririk.

Bir sıra xarici ekspertlər Zəngəzur dəhlizinin 5-7 il ərzində Cənubi Qafqazı böyük ticarət və logistika zonasına çevirməyə qadir olduğunu vurğulayırlar. Onlar bildirirlər ki, Azərbaycan tranzitdən, Ermənistan isə tranzit ödənişlərindən, xidmətlərdən və infrastruktura investisiyalardan gəlir əldə edəcək. Amma biz hələ də Ermənistan rəhbərliyindən heç bir rasional addım görməmişik. Doğrudur, Ermənistan Zəngəzur dəhlizi layihəsinin həyata keçirilməsinə qarşı olduğunu bildirmir, əksinə, baş nazir başda olmaqla bütün rəsmi şəxslər regionda kommunikasiya xətlərinin açılmasının vacibliyini vurğulayırlar. Amma reallıqda bu istiqamətdə onlar tərəfindən konkret addımlar atılmır. Bu ziddiyyətli yanaşma Ermənistan rəhbərliyinin sözü və əməli arasında uyğunsuzluq olduğunu göstərir. Kommunikasiyaların açılmasına "hə" desələr də, praktiki müstəvidə hər hansı hüquqi, siyasi və ya texniki irəliləyiş yoxdur. Bununla da onlar beynəlxalq ictimaiyyətə konstruktiv tərəf kimi görünməyə çalışır, amma, əslində, prosesin ləngiməsinə səbəb olurlar.

Ermənistan daxilindəki bəzi revanşist qüvvələr və lobbi qrupları hökumətin bu məsələdə cəsarətli qərar qəbul etməsinə mane olur. Halbuki bu dəhliz təkcə Azərbaycan və Türkiyə üçün deyil, Ermənistan üçün də real iqtisadi və logistik üstünlüklər vəd edir. Lakin indiki vəziyyəti qorumağa yönəlmiş bu davranış nəticə etibarilə Ermənistanı kənarda qoyur. Görünən odur ki, İrəvanın Zəngəzur dəhlizi məsələsində tutduğu mövqe ölkəni faktiki olaraq dalana dirəyib. İrəvanın qeyri-müəyyən və ziddiyyətli mövqeyi regionda formalaşan yeni reallıqlara uyğunlaşmaq əvəzinə, Ermənistanı daha da təcrid vəziyyətinə salır. Zəngəzur dəhlizi açılarsa, Ermənistan üçün həm qeyd etdiyimiz kimi tranzit gəlirləri, həm də regional əməkdaşlıqda yer almaq imkanı yaranacaq. Lakin bu fürsətlərin əldən verilməsi ölkənin iqtisadi inkişafına və xarici sərmayələrin cəlb olunmasına ciddi zərbə vurur. Rəsmi İrəvanın Qərblə yaxınlaşmaq cəhdləri və eyni zamanda, Rusiyadan uzaqlaşma prosesi, təhlükəsizlik və nəqliyyat baxımından əvəzsiz olan bu layihəyə qarşı ehtiyatlı münasibətlə müşayiət olunur. Bu isə bölgədə formalaşan kommunikasiya xəritəsində Ermənistanın yerini sual altına salır. Azərbaycan və Türkiyə bu dəhlizin reallaşması üçün siyasi iradə və texniki hazırlıq nümayiş etdirirlər, Ermənistan isə prosesə qoşulmaq əvəzinə, köhnə revanşist ritorika ilə vəziyyəti uzatmaq yolunu seçir.

***

**Mövzu ilə bağlı fikirlərini XQ ilə bölüşən Dövlət İdarəçilik Akademiyasının müşaviri, Bakı Politoloqlar Klubunun rəhbəri Zaur Məmmədov** bildirdi ki, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatla Cənubi Qafqazdakı proseslərin yeni dönəminə start verildi. Onun sözlərinə görə, təəssüf ki, bundan sonra Ermənistan rəhbərliyi üzərinə düşən bir neçə öhdəliyi yerinə yetirmədi. Nəticə etibarilə Azərbaycan hökuməti özü vadar oldu ki, Ermənistanın yerinə yetirmədiyi öhdəliklər bu və digər yollarla həllini tapsın: "Həmin öhdəliklərdən biri Qarabağın keçmiş separatçı rejimin nəzarəti altında qalan hissəsindən erməni silahlı qüvvələrinin çıxarılması ilə bağlı idi. Ermənistan bu öhdəliyi yerinə yetirmədiyi üçün Bakı özü bunu həyata keçirməyə vadar oldu. Öhdəliklərdən biri də, sözsüz ki, Zəngəzur dəhlizinin açılması idi. Bu məsələ Azərbaycan, Ermənistan və Rusiya arasında qarşılıqlı anlaşma əsasında öz həllini tapmalı idi. Təəssüf ki, baş nazir Nikol Paşinyan ötən 5 il ərzində nəinki dəhlizin açılması ilə bağlı qərar vermədi, hətta ilkin razılaşma paketini də imzalamadı. Nəticə etibarilə biz görürük ki, Zəngəzurda dəhlizlə bağlı infrastruktur qurulmayıb. Həm dəmiryolu, həm də avtomobil yolu inşa edilməlidir. Bu proses indiyədək başlanmalı idi. Çünki bu, vaxt aparan işdir".



Politoloq qeyd etdi ki, Paşinyan özü müxalifətdə olduğu dönəmdə Ermənistan hakimiyyətinin apardığı xarici və daxili siyasəti tənqid edirdi: "Əgər 1990-cı illərdə Azərbaycana qarşı aparılan işğalçı müharibə Ermənistanı enerji layihələrindən təcrid olunmağa, bu isə ölkə əhalisinin daha da kasıblaşmasına, əhalinin kütləvi köçünə gətirib çıxardısa, bu gün rəsmi İrəvan Zəngəzur dəhlizini açmamaqla yenidən özünü iqtisadi blokadada saxlamış olur. Çünki Ermənistan "Sülhün kəsişməsi" və digər layihələr təklif edə bilər, amma real vəziyyət ondan ibarətdir ki, əgər Azərbaycan tərəfi qəbul etməzsə, bu layihələr gerçəkləşməyəcək".

Z.Məmmədov dedi ki, ABŞ Prezidenti Donald Tramp və onun nümayəndələri tərəfindən kommunikasiya xətlərinin açılması ilə bağlı, əslində, yeni yanaşma ortaya qoyulmayıb: "Bu yanaşma ondan ibarətdir ki, Zəngəzur dəhlizi açılmalıdır. Bununla da ölkəmizin qərb rayonları ilə Naxçıvan MR arasında nəqliyyat əlaqəsi həyata keçirilməlidir. Yaxın gələcəkdə bu, daha geniş anlamda Şimal–Cənub dəhlizinin başqa istiqamətinin açılması deməkdir. Ermənistanla ABŞ arasında aparılan dialoqda da İrəvan Vaşinqtonun bu istək və təklifləri ilə razılaşıb. Amma amerikalılar bilməlidirlər ki, ermənilər şifahi razılaşsalar da sonra verdikləri sözə əməl etməyə bilərlər. Ona görə də razılaşmanın hüquqi əsaslarının olması vacibdir".

Müsahibimiz bildirdi ki, Rusiya ABŞ-ın Zəngəzur dəhlizinin reallaşmasında iştirakını istəmir. O cümlədən ABŞ da digər dövlətlərin deyil, məhz öz şirkətinin funksiya daşımasında maraqlıdır: "Hər bir halda Qərbi Zəngəzur bölgəsi tarixi Azərbaycan torpağı, bugünkü Ermənistanın ərazisidir. Buna görə də qərarı Ermənistan rəhbərliyi verir. Burada Azərbaycan tərəfinin heç bir məsuliyyəti yoxdur. Görünən odur ki, Paşinyan hazırda Rusiya, İran və ABŞ arasında demarş etməklə məşğuldur. Hərçənd ki, biz onu da görürük ki, İranın siyasi hakimiyyəti tərəfindən Zəngəzura yanaşmada yeni korrektələr müşahidə olunmaqdadır. Bu, korrektə, sözsüz ki, ABŞ və İran arasında olan, eyni zamanda, İranın Cənubi Qafqaz ölkələri ilə apardığı danışıqlardan çıxardığı nəticə əsasında baş verməkdədir".

Ekspertin sözlərinə görə, Zəngəzur dəhlizinin potensialı ilkin mərhələdə 15 milyon ton yük səviyyəsində qiymətləndirilir: "Dəhliz gələcəkdə daha da genişlənə bilər. Bu, təkcə ticarət əlaqəsinə, yəni yüklərin sadəcə, Şərqlə Qərb arasında daşınmasına deyil, eyni zamanda, digər layihələrin də həyata keçirilməsinə vəsilə ola bilər. Bu, həm insanların gediş-gəlişi, həm ticarət, həm də müxtəlif təyinatlı yüklərin daşınması üçün vacib nəqliyyat arteriyasıdır. Böyük Avrasiya üçün Zəngəzur dəhlizinə, Orta Dəhlizə verilən şans bəlkə də bir daha olmayacaq. Ona görə də Ermənistan rəhbərliyi bu fürsətdən istifadə etməlidir. Bu fürsətdən istifadə etmək isə yaxın gələcəkdə Cənubi Qafqazın geosiyasi və geoiqtisadi çəkisinin daha da artması ilə nəticələnə bilər".

*Səxavət HƏMİD*
*XQ*

# Azərbaycan mediası: islahat məntiqi və yeni hədəflər

(əvvəli 1-ci səhifədə)



Qeyd edək ki, sadaladıqlarımız məqamlar fərmanın islahatyönümlü məntiqinin diqqətə çatdırılması baxımından son dərəcə vacibdir. Deməli, ölkəmizdə aparılan media istlahatları zamanın tələbinə uyğun media quruculuğu hədəfini müəyyənləşdirir. Fərmana əsasən yaradılmış Medianın İnkişafı Agentliyi isə mövcud istiqamətdəki fəaliyyət çoxşaxəliliyini rəhbər tutur ki, qurumun ötən müddətdə reallaşdırdığı tədbirlərin əməli nəticələr verdiyi məlumdur. Bu məqam, yəni görülən işlərin nəticəlilik predmeti Prezident İlham Əliyev tərəfindən də önə çəkilir. Əlbəttə, dövlətimizin başçısının əlahiddə baxış bucağı üçün medianın yerinə yetirdiyi müstəsna vəzifə var. “Bu gün Azərbaycan mediası dövlət maraqlarını qorumağa qadirdir. Azərbaycana qarşı olan əsassız ittihamları arqumentlərlə, ciddi təhlillə və faktlar əsasında ifşa etməkdə də böyük uğurlar əldə edib. Bizim mediamız nəinki dövlət maraqlarını müdafiə edir, eyni zamanda, lazım gəldikdə hücuma da keçir. Bu da lazımdır. İdmanda bəzən deyirlər ki, ən yaxşı müdafiə hücumdur”, - deyən Prezident İlham Əliyev əlavə edib ki, mediamız artıq istənilən xoşagəlməz, iftira kampaniyasına cavab verməyə qadirdir və bu, çox önəmli reallıqdır.

Bəli, Azərbaycan mediası özündə Azərbaycan dövlətinin mahiyyətini daşıyır. Hesab edirik ki, ölkəmizdə media sahəsində aparılan islahatların ən böyük uğuru da elə budur. Yəni, dövlətimiz regionda və dünyada yeni reallıq formalaşdırdığı kimi, mediamız da fəaliyyəti ilə eyni missiyaya köklənir. Başqa sözlə desək, Azərbaycanda dövlət və media biri-birini tamamlayər. Əlbəttə, konkret olaraq mediadan danışırıqsa, hazırda mediamız, kifayət qədər, mürəkkəb siyasi təbiətə malik Cənubi Qafqaz coğrafiyası ilə bağlı dünyanın başlıca istinad mənbəyi statusundadır. Nəzərə alaq ki, bu statusun əldə edilməsi heç də asan məsələ deyil.

Əminliklə deyə bilərik ki, mediamızın hazırkı yüksək statusu Azərbaycan dövlətinin, şəxsən cənab İlham Əliyevin sahəyə müstəsna diqqət və qayğısının nəticəsidir. Bu diqqət isə özünü təkcə fundamental tədbirlərin həyata keçirilməsində deyil, jurnalist əməyinə həssas yanaşmada da göstərir. Həssas yanaşmanın örnəkləri isə kifayət qədər çoxdur. Fikrimizin sübutu kimi diqqəti müstəqillik dövründə Prezident İlham Əliyev tərəfindən əsası qoyulmuş media nümayəndələrinin dövlət təltiflərinə layiq görülmələri ənənəsinə yönəldək.

Qeyd edək ki, dövlətimizin başçısı 2005-ci ildə əsasını qoyduğu ənənənin davamlığını “Media nümayəndərlərinin təltif edilməsi haqqında” 21 iyul 2025-ci il tarixli Sərəncamı ilə bir daha təsdiqlədi. Sərəncam 200-dən çox media mənsubuna şamil edildi. Yada salaq ki, bundan əvvəl Prezident İlham Əliyev milli mətbuatımızın 145, 140, 135 və 130 illik yubileyləri ilə bağlı da jurnalistləri dövlət təltifləri ilə mükafatlandırıb. Ümumən isə jurnalist əməyinin stimullaşdırılması, o cümlədən, qələm sahiblərinin sosial məişət şəraitlərinin yaxşılaşdırılması həmişə dövlətimiz üçün prioritet vəzifə olub və bu, media sahəsindəki strateji xətdən qaynaqlanıb. Axı ortada sadə məntiq var. Bir halda ki, qlobal informasiya məkanına inteqrasiya hədəfi var, bu hədəf naminə təminatlı, eyni zamanda, dövlətin diqqət və qayğısını üzərində hiss edən jurnalist obrazı olmalıdır. Elə bir obraz ki, fəaliyyəti ilə dövlətin və cəmiyyətin maraqlarını uzlaşdırsın, habelə dövlətin cəmiyyət üçün prioritet saydığı istiqamətlərə peşəkar şəkildə köklənsin. Hazırda Medianın İnkişafı Agentliyinin həyata keçirdiyi tədbirlər və ayrı-ayrı layihələr də bu məqsədə xidmət edir. Fundamental yanaşma da elə budur.

Əlbəttə, hər bir yanaşma ənənələrə əsaslanmalıdır. Hesab edirik ki, Azərbaycan dövlətinin media yanaşması da əsası dahi mütəfəkkir Həsən bəy Zərdabi tərəfindən qoyulmuş milli mətbuat ənənələrinə söykənir. Mövcud məqam ilk dəfə Prezident Heydər Əliyevin 2000-ci il martın 27-də imzaladığı “Azərbaycanda milli mətbuatın yaradılmasının 125 illiyi haqqında” Fərmanda vurğulanıb. Nəzərə alaq ki, bu mühüm dövlət sənədi də özündə islahat məntiqini ehtiva etmişdi. Fərmanda ölkəmizdə siyasi plüralizm və söz azadlığının təminatı məqsədi daşıyan işlərin mətbuatın inkişafında da dönüş yaratdığı bildirilmişdi.

Onu da deyək ki, Prezident İlham Əliyevin milli mətbuatımızın yubileylərinin keçirilməsi ilə bağlı sərəncamları da ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi ənənədən qaynaqlanır. Deməli, ölkəmizdə media sahəsində inkişafa aparan islahatçılıq xəttində də siyasi varislik var.

Bir məqamı da vurğulayaq. Azərbaycan XX əsrdə ikinci dəfə dövlət müstəqilliyini əldə etdikdən sonrakı dövrün özünü də bütövlükdə mətbuat sahəsində islahatlar mərhələsi kimi qiymətləndirmək mümündür. Bu baxımdan 1998-ci ildə ulu öndər Heydər Əliyev tərəfindən senzuranın aradan qaldırılmasını, kütləvi informasiya vasitələri sahəsində qanunvericilik bazasının yenidən formalaşdırılmasını, habelə haqqında söz açdığımız mediaya dövlət dəstəyi ənənəsinin müxtəlif təzahürlərini, Prezident İlham Əliyev tərəfindən medianın hüquqi bazasının zənginləşdirməsinə yönələn fəaliyyəti və digər məqamları vurğulamaq mümkündür ki, onların bir çoxunu da diqqətə çatdırdıq.

Maraqlı məqamlardan biri də budur ki, Azərbaycan dövlətinin media islahatçılığı xəttindəki qanunvericilik təşəbbüsləri bu sahədəki fəaliyyəti ölkənin ümumi hüquqi bazasının tərkib hissəsi kimi vurğulamaq məramını daşımışdı. Bu isə o deməkdir ki, dövlətimiz medianı ictimai həyatın mühüm katalizatoru olaraq görüb. Düşünürük ki, hazırkı uğurları şərtləndirən vacib məqamlardan biri də budur.

Əlbəttə, hazırda Azərbaycan dövlətinin media islahatlarının hədəfləri daha genişdir. Çünki dövr və zaman dəyişib və “Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında” 25 aprel 2025-ci il tarixli Prezident Sərəncamında açıqlanan fikirlərin gələcək üçün yol xəritəsi mahiyyəti daşıdığını söyləmək mümkündür. Hesab edirik ki, dövlət sənədində media sahəsində islahatların Vətən müharibəsindəki qələbəmizdən sonra başlamasının vurğulanması önəmlidir. Savaşdan sonra “Media haqqında” Qanunun qəbulunun diqqətə çatdırılması da həmçinin.

Məsələ ondadır ki, Vətən müharibəsindəki Zəfərimizin ölkəmiz qarşısında yeni imkanlar açıb. Bu imkanların reallaşdırılması yeni dövrün tələblərinə adekvat fəaliyyətdən asılıdır. Yeni dövrdə isə media fəaliyyətinin rəqəmsal dövrün çağırışlarına uyğunlaşdırılması, ölkəmizin informasiya mühitinin sağlamlaşdırılması son dərəcə vacibdir. Bunun üçün müəyyən təşkilati tədbirlərə də ehtiyac duyulurdu ki, islahatların vergi azadolmalarının tətbiqi, qəzet və jurnallar üçün əlavə dəyər vergisinin aradan qaldırılması, jurnalistlərə güzəştli ipoteka kreditindən yararlanmaq hüququnun verilməsi və digər tədbirlər yekunda informasiya resurslarının iqtisadi müstəqilliklərinin gücləndirilməsini və jurnalistlərin sosial müdafiəsinin yaxşılaşdırılmasını hədəf seçib.

Əlbəttə, ən başlıca hədəf güclü dövlətin güclü mediasının formalaşdırılmasıdır. Prezident İlham Əliyevin III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşü zamanı səsləndirdiyi fikirlər bu baxımdan nikbin mənzərədən xəbər verir. Əslində, nikbinlik dövlətimizin başçısının “Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında” sərəncamında da əskini tapıb: “Bu gün mediamız Azərbaycanın tərəqqisinin və müasir cəmiyyət quruculuğu prosesinin fəal iştirakçısı olaraq, beynəlxalq əlaqələrini və qlobal informasiya məkanında təsir imkanlarını genişləndirmiş, rəqabət qabiliyyətini artırmışdır”.

Tam aydındır ki, sözügedən Prezident Sərəncamı vurğunu, belə demək mümkünsə, geridə qalan atların güllələndiyi məntiqinə qoyur. Bu, müəyyən mənada, islahatların hazırkı fazası ilə kifayətlənməmək çağırışıdır. Sənəddə bildirilir ki, “dünya nizamının dəyişikliklərə məruz qaldığı, siyasi proseslərin intensivləşdiyi, habelə yeni fəaliyyət prinsiplərinin bərqərar olduğu müasir dövr Azərbaycan mediası qarşısında da yeni vəzifələr müəyyənləşdirir. Qabaqcıl texnologiyaların tətbiqi, sosial media platformalarında fəallığın artırılması, rəqəmsallaşma, süni intellekt, media savadlılığının yüksəldilməsi, dezinformasiya və saxta xəbərlərlə mübarizə, effektiv kommunikasiyanın həyata keçirilməsində yaxından iştirak və s. mediamızın inkişaf perspektivini və qarşıdan gələn dövrdə qlobal informasiya məkanında yerini müəyyənləşdirəcək məsələlərdir. Eyni zamanda, media müasir tendensiyaları nəzərə almaqla Azərbaycanın dövlət maraqlarını həmişə uca tutmalı, ölkəmizin müasir beynəlxalq münasibətlər sistemində yeri və rolu, həyatımızda baş verən pozitiv dəyişikliklər ilə bağlı ictimaiyyətimizin məlumatlandırılması sahəsində daha fəal olmalıdır”.

Sonda belə nəticəyə gələk ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə media sahəsində aparılan islahatların dərinləşdirilməsi günün aktual tələblərindəndir. Heç şübhəsiz, proses daha da dolğunlaşacaq. Həm də ona görə ki, Azərbaycan dövləti özünün prinsipial xəttində ardıcıllığı hər zaman qoruyur. Bu ardıcıllıq isə nəinki media fəaliyyətinin, ümumən informasiya yayıcılığının dövlətimiz üçün strategiliyini vurğulayır.

*Əvəz RÜSTƏMOV*
*XQ*

# 1 dəqiqə 17 saniyəlik çıxışın ABŞ əks-sədası



(əvvəli 1-ci səhifədə)

D.Trampın Azərbaycan Prezidenti İlham Əliyevin Şuşa Forumundakı çıxışından konkret bir hissəni götürüb olduğu kimi paylaşmasının səbəbi və motivləri maraqlı assosiasiyalar yaradır. Bunu bir ölkə liderinin başqa qitədəki, yəni uzaqdakı həmkarının onun haqqında açıqlamasını bəyənməsindən doğan rəğbət hissi kimi də yozmaq olar, çıxışda ortaya qoyulan siyasi mövqeyini dəstəkləmə jestinin nümayişi də saymaq olar. Qeyd edək ki, ABŞ lideri Donald Trampın Azərbaycan Prezidenti İlham Əliyevin onunla bağlı fikirlərini sosial platformasında bölüşdüyü videonun xronometrajı 1 dəqiqə 17 saniyədir. Bu qısa video-süjetdə forum iştirakçısı olan xarici media qurumlarından birinin nümayəndəsi ABŞ Prezidenti Donald Trampın 2016-cı il seçkilərində qələbəsini düzgün proqnozlaşdırması ilə bağlı sualını Prezident İlham Əliyevin ingilis dilində cavablandırması yer alıb. Dövlətimizin başçısı deyir: “Kiçik bir dəqiqləşdirmə etmək istərdim. Mən ABŞ Prezidenti Donald Trampın qələbəsini proqnozlaşdırmırdım. Demişdim ki, bu, Azərbaycan xalqı üçün daha məqbul olardı. Çünki Azərbaycan xalqı kimi o da fundamental prinsiplərə, ailə prinsiplərinə, bəşəri dəyərlərinə sadiq adamdır”.

Daha sonra dövlətimizin başçısı qeyd edir ki, Tramp müharibə başlatmayan, əksinə, onu sona çatdırmağı bacaran yeganə ABŞ Prezidentidir: “Onun hakimiyyətdə olduğu qısa müddətdə görünür ki, bu insan müharibələri bitirir".

İlham Əliyev suala cavabında onu da vurğulayır ki, Azərbaycan ABŞ-a Cənubi Qafqazdakı proseslərə yaxından diqqət yetirdiyi üçün minnətdardır: “Biz ona şəxsən Azərbaycan və Ermənistana razılığa gəlməkdə kömək etmək istəyinə görə çox minnətdarıq. Baxmayaraq ki, o, beynəlxalq təhlükəsizliyin daha qlobal məsələləri ilə məşğuldur. Cənubi Qafqazdakı vəziyyəti də diqqət mərkəzində saxlayır. Biz Azərbaycanda, əlbəttə ki, onun bir çox səbəblərdən seçkilərdə qalib gəlməsinə şadıq və təbii ki, ona işini sona çatdırmağı arzulayırıq”.

Aydın məsələdir ki, Azərbaycan liderinin bu açıqlaması Ağ Ev sahibinin xoşuna gəldiyindən paylaşımın yanında özünün məmnun və təqdiredici pozada fotoşəklini də yerləşdirib. Yəni, ABŞ Prezidentinin əlavə şərhə ehtiyac duymadığı (no komment), ərkyana və dostyana paylaşdığı qısametrajlı audio-video epizodun izləyicilərdə hansı assosiasiyanı doğurduğunu güman etmək o qədər də çətin deyil.

Əlbəttə ki, “supergücün” liderinin belə əlahiddə diplomatik jestinə dövlətimizin başçısının adekvat reaksiya bildirməsi gözlənilən idi. İlham Əliyev ABŞ Prezidenti Donald Trampa Şuşa Qlobal Media Forumunda ABŞ-Azərbaycan tərəfdaşlığı və həm qlobal, həm də regionumuzda sülh gündəliyinə sadiqliklə bağlı fikirlərini sosial media platformasında paylaşdığına görə minnətdarlığını bildirib. Özünün “X” sosial şəbəkəsində bununla bağlı etdiyi paylaşımında yazır: “Prezident Donald Trampa Şuşa Qlobal Media Forumunda çatdırdığım ABŞ–Azərbaycan tərəfdaşlığı və həm qlobal, həm də regionumuzda sülh gündəliyinə sadiqliklə bağlı fikirlərimi sosial media platformasında paylaşdığına görə minnətdarlığımı bildirmək istəyirəm. Mən bir daha Prezident Trampın bütün dünyada, o cümlədən bizim regionda sülh və sabitliyin təşviq edilməsi üzrə baxışını və səylərini dəstəklədiyimizi vurğulamaq istəyirəm. Biz, həmçinin ailə ənənələrinin əhəmiyyəti kimi ümumi dəyərləri bölüşürük və onun Prezidentliyi dövründə ABŞ–Azərbaycan münasibətlərinin yeni səviyyəyə çatacağına ümidvarıq. Ona bu məqsədə doğru bütün səylərində uğurlar arzulayırıq”.

Əvvəldə vurğuladığımız məqamın altından bir daha xətt çəkmək istəyirik ki, bu, beynəlxalq təcrübədə görünməmiş presedent olmaqla yanaşı, həm də müasir texnologiyanın konkret fakta siyasi münasibətin bunca operativ bildirməyin nümunəsidir. Əsas odur ki, bu imkan xeyirxah missiyaya xidmət edir.

Sonda onu da qeyd etməyi vacib sayırıq ki, III Şuşa Qlobal Media Forumu təkcə Azərbaycan mediası üçün deyil, siyasi diplomatiyamız üçün də ciddi hadisə kimi tarixə düşdü. Azərbaycan Prezidentinin dünayaya mesajlarını Xankəndidən göndərdiyi Şuşa Forumu, sanki, həm yerli, həm də qlobal media nümayəndələri qarşısında bir növ siyasi-iqtisadi hesabatı idi. Keçilən yola baxış, əldə edilən uğurların nümayişi və perspektivə ünvanlanan nəhəng plan və layihələr bu hesabatın əsas atributları idi. ABŞ və Azərbaycan prezidentlərinin məmnunluqdolu təqdiredici qarşılıqlı onlayn paylaşımları isə Vaşinqtondan və Bakıdan bütün dünyaya ünvanlanan ən möhtəşəm ismarıclar kimi III Şuşa Qlobal Media Forumuna qızıldan vurulan “surğuc möhürü” oldu.

*İmran BƏDİRXANLI*
*XQ*

**Ekspert rəyi**

**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**



– Donald Trampın hələ birinci prezidentliyi dövründə, baxmayaraq ki, onu hər tərəfdən buna sövq edirdilər, amma o, heç vaxt ermənipərəst mövqedən çıxış etməmişdi. 44 günlük Vətən müharibəsinin gedişində də rəsmi Vaşinqton tərəfindən Azərbaycana hansısa təzyiq edilməmişdi. Sadəcə olaraq, Ağ Ev tərəflərə müharibənin dayandırılması, eləcə də xarici işlər nazirlərinin Vaşinqtonda görüşünün təşkili ilə bağlı Dövlət Departamentinə tapşırıq vermişdi. Amma Tramp bu hərbi qarşıdurmada obyektivliyini və tərəfsizliyini qoruyub saxlamağı bacardı. O, ikinci dəfə prezidentliyə namizədliyini irəli sürəndə liberal dairə adlandırılan qüvvələr demokrat Kamala Harrisin qələbəsindən dəm vururdular. Amma Azərbaycan Prezidenti birmənalı şəkildə Trampı dəstəklədi, onun qələbəsini gözlədiyini bildirdi. Nəticə İlham Əliyevin dediyi kimi oldu.

Bu gün Tramp administrasiyası Bayden administrasiyasından fərqli olaraq Ermənistan–Azərbaycan danışıqlarına müdaxilə etmir. Əksinə, ABŞ Konqresində Azərbaycana qarşı təzyiq, sanksiya çağırışları edənləri susdurdu, Ağ Evin danışıqları dəstəklədiyini, sülhün əldə olunmasına töhfə verməyə hazır olduğunu bəyan etdi. Hamını yersiz müdaxilələrdən çəkinməyə səslədi. Yadımızdadır ki, Baydenin rəhbərliyi dönəmində Konqresdə az qala hər üç aydan bir Azərbaycanla bağlı hansısa dinləmələr keçirilir, ölkəmizə qarşı bəyanatlar verilirdi. İndi susub oturublar yerlərində. Bu, Trampın məsələyə yanaşmasının birbaşa nəticəsidir. Azərbaycan Prezidenti bunu yüksək qiymətləndirir. Vaşinqtonun danışıqlara kənardan dəstək verməsi Azərbaycan üçün də, Ermənistan üçün də məqbul sayılır. Məhz Ağ Evin sağlam və obyektiv mövqeyi nəticəsində ikitərəfli danışıqlara nə Qərbdən, nə Şimaldan, nə də Cənubdan müdaxilə cəhdləri edilir. Bu o deməkdir ki, Donald Tram üçün Azərbaycan rəhbərinin mövqeyi kifayət qədər əhəmiyyət kəsb edir. Hesab edirəm ki, bu müsbət impuls Azərbaycanın ABŞ-la qarşılqılı səmimiyyətə və işgüzar maraqlara söykənən əlaqələrini yalnız irəli aparacaq.

# Terrorla mübarizədə “türk strategiyası”: konseptual aspekt




**V MƏQALƏ**

## Terrorla mübarizənin geosiyasi konteksti

Azərbaycanın terrorla mübarizə strategiyasında daxili risklərin aradan qaldırılmasının aparıcı yer tutması əhəmiyyətli məqamdır. Azərbaycan ərazilərinə müxtəlif bəhanələrlə davam edən iddiaların puç olmasının kökü bu məsələnin həll olunması ilə sıx bağlıdır. O cümlədən, Qarabağın Azərbaycan ərazisi kimi işğaldan azad edilməsi bu prosesdə dönüş nöqtəsidir. Əsas məqam ondan ibarətdir ki, II Qarabağ Müharibəsi ilə Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsi və 2023-cü ildə 23 saat 41 dəqiqəlik antiterror tədbirləri ilə suverenliyi tam təmin etməsi terrorla mübarizə strategiyasının iki vacib mərhələsi kimi qəbul edilməlidir. Çünki onlar faktiki olaraq Azərbaycanda daxili riskləri praktiki sıfıra endirdi. Bununla terrorla mübarizənin daxili və xarici şərtlərini uyğunlaşdırmaq aspektində Azərbaycan bir nümunə yaratdı.

Doğrudan da terrorla mübarizənin xarici şərtlərinin Vətən müharibəsindən sonra ön plana çıxarılması strateji baxımdan özəl anlamı olan məsələdir. Burada ölkə rəhbərliyinin seçdiyi strateji xəttin iki mühüm cəhətini vurğulamaq lazımdır.

Birincisi, Prezident İlham Əliyev terrorla mübarizə strategiyasında aparıcı rolu təhlükəsizlik, regional əməkdaşlıq, barış, sülh və inkişaf paradiqmasının oynadığını nümayiş etdirdi. 300 il böyük güclər tərəfindən təzyiq hədəfi olmuş və mütəmadi olaraq müxtəlif terror olaylarının meydanına çevrilmiş, son 30 ildə isə ərazisinin bir hissəsi işğal altında qalmış bir dövlət kimi Azərbaycanın inkişaf, əməkdaşlıq və təhlükəsizlik paradiqmasından imtina etməməsi tarixi hadisədir.

Kənardan nə qədər təzyiq, təsir və təxribatlar olsa da, rəsmi Bakı zərrə qədər də öncələr müəyyən edilmiş terrorla mübarizə strategiyasından kənara çıxmadı. Yəni təxribat, şantaj və ədalətsiz təhriklərə belə sülh, barış və əməkdaşlıq paradiqması kontekstində cavab verdi. Bu məqam Azərbaycanın Qoşulmama Hərəkatında, Türk Dövlətləri Təşkilatında, BMT-də, MDB-də və digər təşkilatlardakı fəaliyyətində özünün praktiki təsdiqini tapdı.

Azərbaycan Prezidenti milli təhlükəsizliyin təminini, regional əməkdaşlıq və təhlükəsizlik arxitekturasının yaradılmasını uğurlu şəkildə neokolonializmə və ksenofobiyaya qarşı beynəlxalq miqyasda mübarizə ilə uyğunlaşdıra bildi. Bu anlamda Azərbaycanın terrorla mübarizə strategiyasının çox mühüm bir özəlliyi aydın olur - ərazi bütövlüyümüzə qarşı olan terrorla mübarizə regional təhdidlər və qlobal neomüstəmləkəçilik və ksenofobiya ilə mübarizəylə vahid məntiqi mahiyyətə malikdir.

Belə bir mövqenin geosiyasi anlamı çox dərindir. Azərbaycanın terrorla mübarizə strategiyası yalnız milli sərhədlərlə məhdudlaşmır – Bakı, ümumiyyətlə, terror, müstəmləkəçilik və ksenofobiyanın hər bir təzahürünə qarşı mübarizə düşərgəsindədir! Bu tezisin siyasi izahına ehtiyac vardır!

## Lider və dövlət identikliyi

Azərbaycan Prezidenti İlham Əliyevə müxtəlif səviyyələrdə tez-tez sual edirlər: “Necə olur ki, Siz müxtəlif istiqamətlərdə böyük dövlətlərlə strateji sənədlər imzalayırsınız və onlar heç bir ziddiyyət yaratmır?”. Bu sualın başqa forması belədir: “Azərbaycanın xarici siyasətinin əsas prinsipləri hansılardır?”

Prezident İlham Əliyevin bu suallara cavabının daxili məntiqini dərk etmədən Azərbaycan Respublikası dövlətinin terrorla uğurlu mübarizə strategiyasının qayəsini dərk edə bilmərik.

Prezident İlham Əliyevin cavablarını ümumiləşdirməyə çalıacağıq. Hər çeydən öncə, Azərbaycan lideri xalqa doğruları deməyə üstünlük verdiyini ifadə edir. Xalqla yanaşı xarici tərəf müqabillərlə də səmimi, açıq, obyektiv ünsiyyətə üstünlük verdiyini ifadə edir. Bu, lider kimi İlham Əliyevi sözübütöv, kişi kimi verdiyi vədlərə əməl edən, ədalətli və səmimi siyasət yeritdiyinin birbaşa əlamətləridir.

Təcrübə göstərir ki, belə keyfiyyətlərə malik siyasətçilərlə strateji sazişi çəkinmədən imzalayırlar. Bir şərtlə: danışıqlarda ortaq mövqeyə gəlinsin! Yəni İlham Əliyevin siyasi fəaliyyətinin təməlində gördüyü milli maraqlar və siyasi varisliyin semantik, siyasi, mənəvi, ideoloji sərhədlərindən kənara çıxmamaq prinsipi bərqərar olmuşdur. Bu da İlham Əliyevin məqsədyönlü, praqmatik və ortaq razılaşmalara tam açıq lider olduğunu təsdiq edir.

İkincisi, İlham Əliyev etibarlı siyasətçidir. Liderin etibarı isə dövlətə etimad yaradır. Azərbaycan Prezidenti məharətlə bu keyfiyyətini fəaliyyəti dövründə hər anda uğurla sübut etmişdir və indi də etməkdədir.

Üçüncüsü, İlham Əliyev suallara cavabından aydın hiss olunur ki, ədalətə, humanitarlığa və əməkdaşlığa prinsipial olaraq üstünlük verir. Yəni Azərbaycan Prezidentinin siyasi fəaliyyətində fəzilətlilik aparıcı yer tutur. Bu kursun kökləri çox dərindir və onun müxtəlif aspektləri vardır, ümumi olaraq, dövlətçilik və liderlik ənənəsinin milli özəlliklərinə gedib çıxır.

Dördüncüsü, bütün bu keyfiyyətlər yekunda bir ümumi müddəada sintez olunur və lider haqqında ortaq bir fikir yaranır. Müasir dövlətlərarası münasibətlərdə çox ciddi rol oynayan həmin xüsusiyyət belədir: liderin identikliyi ilə onun təmsil etdiyi ölkənin dövləti identikliyi bir-birini tamamlamalıdır. Heydər Əliyev keçən əsrin 90-cı illərində dövlət identikliyinin başlıca əlamətlərini BMT tribunasından bəyan etmişdir. Onlar hüquqilik, demokratiklik, sülhsevərlik, humanitarlıq, multikulturallıq və ədalətlilikdir

Azərbaycan Respublikası dövlətinin identikliyinin məhz vurğulanan faktorlarla bağlı olduğunun sübutunu onun lideri edə bilər. Bu isə liderin praktikada demokratik, ədalətli, etibarlı, beynəlxalq hüquq və ədalətliliyə əsaslanan fəzilətli şəxsiyyət olması deməkdir. İlham Əliyev məhz çox fərqli istiqamətlərdə ona görə uğurludur ki, dövlətin identikliyini hər zaman təsdiq edən siyasi fəaliyyət identikliyinə malikdir! Azərbaycan dövlətinin başçısı ilə təmsil etdiyi dövlətin identikliyi bir-birini tamamlayır.

Bizcə, bu fəzilətli liderlik özəlliyi Azərbaycanın terrorla mübarizədə strateji uğur əldə etməsində ciddi rol oynamışdır. Dünya İlham Əliyevin ədalətli, haqlı və sülhsevər olduğunu qəbul edir! Buna görə də II Qarabağ müharibəsi və 23 saat 41 dəqiqəlik antiterror tədbirlərinin nəticələrini qəbul edirlər!

Belə alınır ki, Azərbaycanın terrorla mübarizə strategiyasında siyasətçiyə xas sırf peşə məharəti ilə yanaşı. humanitarlıq, sülhsevərlik, əməkdaşlıq və ədalətlilik kimi fəzilətlərin yer alması böyük rol oynamaqdadır!

İndi bu keyfiyyətlərin fonunda Türkiyənin terrorla mübarizə strategiyasına nəzər salaq.

## Türkiyə: qardaşla çiyin-çiyinə

Türkiyənin terrorla mübarizə təcrübəsi çox böyükdür. Əsrlərdir ki, müstəqil dövlət kimi (öncə imperiya, sonra isə Cümhuriyyət olaraq) müxtəlif istiqamətlərdən süni yaradılan terror dalğaları ilə yorulmadan mübarizə aparır. Bu prosesin bir sıra özəlliklərinə öncəki məqalələrdə toxunmuşuq.

Son 40 ildə Türkiyə üçün isə əsas olaraq PKK terroru ilə mübarizə ön sırada olmuşdur. 2003-cü ildən başlayaraq Türkiyə əvvəlcə daxildə terrorun kökünü kəsdi. Bu. asan olmadı və fərqli yerlərdən qaynaqlanan təxribatları aşaraq Ankara nəhayət ki, terrorun daxili bazasını darmadağın etdi.

Burada hərbi silahlı qarşıdurma ilə yanaşı, terrorun maliyyə qaynaqlarının qurudulması prinsipial rol oynayırdı. Həmin prosesin gedişində aydın oldu ki, illərlə Türkiyənin müxtəlif hakimiyyət orqanlarına sızmış maskalı adamlar hətta sırf millətçi şüarlarla pərdələnərək əslində ölkənin parçalanması üçün çalışır. Türkiyə təhlükəsizlik orqanları bu əcayib və mürəkkəb separatçı sistemi məharətlə çökdürdü. Böyük qəhrəmanlıqdır!

İkinci mərhələdə beynəlxalq miqyasda terrorun maliyyə, siyasi, ideoloji və təbliğati qaynaqlarını kəsmək lazım gəlirdi. Bu nəhəng və çətin savaşdan Ankara qalib çıxdı! Xatırlayırıq – dünyanın hətta ən güclü dairələri belə Türkiyəyə əngəllər yaratmağa çalışdılar. Lakin türk dövlətçiliyinin müdrikliyi qələbə əldə etdi. Çox geniş geosiyasi arealda özündən razı xüsusi xidmət orqanları ilə kəskin və gərgin mübarizədə Türkiyənin terrorla ədalətli və fəzilətli mübarizəsi öz müsbət nəticəsini verdi.

Onun başlıca əlaməti PKK-nın özünü ləğv etməsi və türklərlə ölkənin qeyri-türk xalqlarının dinc şəraitdə yaşamağa qərar verməsindən ibarətdir. İndi özünü ekspert sayanlar sırasında terrorla mübarizənin türk strategiyasının mahiyyəti və məqsədini anlamaqda çətinlik çəkənlər Azərbaycan-Türkiyə birliyinin bu dünya bəlasına qarşı ortaq mübarizəsinin fəzlilət tərəfini görə bimirlər.

Klassik geosiyasi yanaşma çərçivəsini aşa bilməyənlər yenə də “PKK elə edəcək”, “Məzlum Kobani belə addım atacaq”, “İsrail və ya ABŞ onu edəcək, bunu edəcək”, “İran imkan verməyəcək”, “hələ rus sözünü deməyib” və s. kimi əsassız cümlələr qururlar. Adını “tarixi faktlara əsaslanan yanaşma” qoyurlar.

Bütün bu qondarma fikirlərin əsl cavabını Əlahəzrət Zaman verəcək! Burada sadəcə bir şeyi xatırladaq: Türkiyə bundan dəfələrlə ağır vəziyyətdən çıxaraq yol gəlir, indi deyirsiniz ki, Zəfərin təpəsində məğlub olacaq? Azərbaycanda yaxşı bir atalar sözü var: “əvvəlcə düşün, sonra danış, danışıb sonra niyə belə danışdığını əzab çəkə-çəkə düşünmə”!

## Bir həqiqətin etirafı

Türkiyə böyük, güclü və qüdrətli dövlətdir, terrorla mübarizədə zəngin təcrübəsi vardır. Ancaq XXI əsrdə Azərbaycan-Türkiyə birliyinin terrorla mübarizə strategiyasında II Qarabağ müharibəsi həlledici ro oynadı! Məhz Azərbaycan son 300 illik türk tarixində ilk dəfə olaraq Qarabağda terrora elə zərbə vurdu ki, yeni bir epoxanın təməlini qoydu! Azərbaycan Qarabağda əsrlərdir davam edən antitürk (antiAzərbaycan və antiTürkiyə) geosiyasi dalğasının təcavüzkar ritmini darmadağın etdi, türk dünyası arealında geosiyasi proseslərin ruhunu, ritmini, məzmununu dəyişdi!

Türkiyə müstəqilliyini itirmədi, onun dövlət orqanları həmişə fəal oldu. Buna görə də daxildə terrorla mübarizə kəsintisiz aparıldı. Rəsmi olaraq Türkiyənin ərazisini heç bir dövlət işğal etmədi. Azərbaycan isə öncə 300 il əvvəl parçalandı, sonra bir müddət Çar Rusiyasının tərkibində oldu, daha sonra 70 il sovetlərin tərkibində qaldı. Yalnız bundan sonra müstəqilliyini bütöv ərazisinin yalnız bir hissəsində elan edə bildi. Bu zaman da hər tərəfdən atəş altına alınmışdı. Yəni Azərbaycan dövlət kimi kül olmuşdu və özünü o küldən yenidən yaratdı. Bunu Heydər Əliyev etdi. Bütün bunlardan sonra terrorla mübarizə strategiyasında çox uğurlu olmaq, əlbəttə, möhtəşəm hadisədir!

Qarabağ Savaşı terrorla mübarizənin türk strategiyasının Qəlbidir! O Qəlbin döyüntüsü hər şəhidimizin ruhunda və sükutunun həzinliyindədir! Qəhrəman Azərbaycan xalqı Liderinin başçılığı ilə yenə də tarix yaratmaqdadır – yeni, uğurlu Türk Tarixini! Bu yolda Türkiyə və Azərbaycan əbədi qoşa dayanacaqlar!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Qarabağ turistlərə “gəl-gəl” deyir

**Qarabağ təkcə Azərbaycanın tarixi yaddaşının və mədəni irsinin daşıyıcısı deyil, həm də ölkənin gələcəyini formalaşdıran strateji bölgədir. Minilliklər boyu müxtəlif sivilizasiyalara ev sahibliyi etmiş bu ərazi qədim Alban məbədləri, orta əsr qalaları, məscidlər, körpülər və daş kitabələrlə zəngin mədəni-tarixi sərvətə malikdir. Lakin bu bölgənin əhəmiyyəti yalnız keçmişin mirası ilə məhdudlaşmır. Hazırda burada geniş bərpa-quruculuq işləri həyata keçirilir.**

Məlumdur ki, illərlə işğal altında olan Qarabağdan dağıdılmış infrastruktur, talan edilmiş mədəniyyət abidələri və boşalmış yaşayış məntəqələri qalmışdı. Lakin qələbəmizlə başa çatan 44 günlük müharibədən sonrakı dövrdə həyata keçirilən ardıcıl və sistemli bərpa tədbirləri bölgəni yenidən canlandırır. Artıq “Ağıllı kənd” və “ağıllı şəhər” modelləri Qarabağın atributuna çevrilib. Zəngilanın Ağalı kəndində enerjiyə qənaət edən texnologiyalar, alternativ enerji mənbələri və rəqəmsal infrastrukturun tətbiqi bu modelin uğurlu nümunəsidir. Yeni yollar, rabitə şəbəkələri, məktəblər, xəstəxanalar, su və qaz xətləri, eyni zamanda, beynəlxalq hava limanlarının istifadəyə verilməsi regionun iqtisadi və strateji önəmini artırır.



Qarabağ və ətraf ərazilər həm də zəngin təbiətə malikdirlər. Burada dağlıq və düzənlik relyefin harmoniyası müşahidə olunur. Şuşa, Laçın və Kəlbəcər kimi rayonlar yüksək dağlarla əhatələnib, füsunkar mənzərələri ilə seçilir. Kəlbəcərin bənzərsiz yaylaqları, Tərtər çayı boyunca uzanan dərələr və meşəliklər bu regionu təbiət həvəskarları üçün cəlbedici edir. Ərazidə 30-dan artıq mineral bulaq mövcuddur. İstisu, Yuxarı və Aşağı İstisu kimi məşhur su mənbələri həm müalicəvi xüsusiyyətləri ilə tanınır, həm də sağlamlıq turizmi üçün geniş imkanlar yaradır. Bu bulaqların bərpası və müasir kurort infrastrukturunun yaradılması istiqamətində artıq real addımlar atılır.

Bundan başqa, dağlar, meşələr, dərələr və nadir təbiət mənzərələri ekoturizm, sağlamlıq və qış turizmi üçün geniş imkanlar yaradır. Bu coğrafi üstünlüklər Qarabağda Şahdağ və Tufandağ kimi yeni qış kurortlarının inşasına zəmin yaradır.

Zəngilanın Bəsitçay Dövlət Təbiət Qoruğu isə nadir çinar meşələri ilə tanınır və ekoturizm üçün ideal məkandır. Eyni zamanda, regionun dini turizm potensialı da yüksəktir. Qubadlı, Laçın, Zəngilan, Kəlbəcər, Ağdərə və Xocavənd rayonlarında yerləşən alban və İslam abidələrinin bərpası ilə bu bölgələr zəvvarlar və tarix həvəskarları üçün cazibədar məkanlara çevriləcək.

Mövzu ilə bağlı tarixçi Əmirxan Burzuyev XQ-yə bildirdi ki, Füzuli rayonu həm təbiəti, həm də arxeoloji zənginliyi ilə seçilir: “Günəştəpə, Qaraköpəktəpə və Qarabulaq kurqanlarında aparılan qazıntılar bir neçə minillik tarixə işıq salır. Burada tapılmış hökmdar arabaları, at skeletləri və silahlar qədim dəfn mədəniyyətinin nadir nümunələridir. Gələcəkdə burada yaradılacaq arxeopark həm tarixin təbliğinə, həm də turizmin inkişafına xidmət edəcək.

Azıx mağarası isə Qarabağın qədim dövrlərini əks etdirən nadir arxeoloji məkandır. 350-400 min il əvvələ aid insan qalıqları burada tapılıb. Bu mağaranın turizm marşrutuna daxil edilməsi ilə Azərbaycan tarixinin daha geniş şəkildə təqdimi mümkün olacaq.

Xocavənd rayonu tarixi və təbii zənginliyi ilə seçilir. Tuğ kəndi burada əsas turizm destinasiyası kimi nəzərdə tutulur. Ənənəvi memarlığı qorumaqla mədəni və ekoturizmin, həmçinin aqroturizmin inkişaf etdirilməsi planlaşdırılır. Tarixən şərabçılıq mərkəzi olan bu kənddə müasir turizm kompleksi inşa edilir. Gələcəkdə tədbirlər və festivallar üçün məkanlar, yürüş və haykinq marşrutları, kempinq zonaları yaradılacaq”.

Hadrut qəsəbəsi də turizm üçün əlverişli meşəli dağlıq ərazidə yerləşir. Burada özəl sektorun cəlb olunması ilə istirahət zonalarının yaradılması planlaşdırılır. Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycanı Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov bizimlə söhbətində bildirmişdi ki, Qarabağda turizm təkcə istirahət məqsədi daşımır: “Səhiyyə, kulinariya, alternativ və “qaranlıq turizm” sahələri də inkişaf etdirilir. Xüsusilə qaranlıq turizm, yəni dağıntılar, müharibə izləri və viranə qalmış ərazilərə səyahət turistlərin marağına səbəb olacaq. Bu bölgə yeni və maraqlı istiqamət kimi inkişaf etdirilir. Ağdamda yaradılacaq 18 hektarlıq Memorial Bağ bu istiqamətin nümunəsidir. Burada dağıdılmış binaların bir qismi saxlanılacaq, gücləndirilmiş virtual reallıq texnologiyası ilə turistlərə müharibənin dəhşətləri göstəriləcək. İşğal muzeyi və Zəfər muzeyi bu təbliğatın mərkəzləri olacaq”.

Qarabağın mədəni irsi isə onun bənzərsiz turizm potensialını tamamlayır. Şuşa şəhəri Azərbaycanın musiqi və poeziya mərkəzi kimi yenidən canlanır. Bülbülün ev-muzeyi, Natəvanın sarayı, Vaqifin məqbərəsi və Şuşa qalası bərpa olunaraq turizmə açıq vəziyyətə gətirilib. Ağdamda salınan mədəniyyət mərkəzləri və muzeylər turizm axınının artmasına xidmət edəcək.

Onu da qeyd edək ki, yerli turistlərlə yanaşı, xarici turistlərin də işğaldan azad olunmuş ərazilərə səfərlərinə icazə verilir.




İndi xarici turistlər və Azərbaycanda yaşamaq icazəsi olan şəxslər “yolumuzqarabaga.az” portalı vasitəsilə elektron şəkildə icazə alaraq Şuşa, Laçın, Ağdam, Füzuli, Xocalı və Xankəndiyə rahat şəkildə səfər edə bilirlər. Bu sistem yalnız vizasız gələn turistləri deyil, həm də ölkədə müvəqqəti və ya daimi yaşayan əcnəbiləri əhatə edir. Eyni nəqliyyat vasitəsində doqquz nəfərə qədər şəxsin səyahəti mümkün olur ki, bu da ailəvi və qrup halında səyahət edənlər üçün əlavə rahatlıq yaradır.

Yeni sistemin daha bir üstünlüyü isə otel rezervasiyası zamanı avtomatik icazənin verilməsi ilə bağlıdır. Əgər səyyah Qarabağda yerləşən rəsmi otellərdən birində qalmaq üçün əvvəlcədən yer alıbsa, icazə prosedurundan keçməyə ehtiyac qalmır. Bu, həm turistlərin vaxtına qənaət edir, həm də otellər üçün əlavə stimul yaradır. Səfər zamanı isə onlar burada tarixlə üzüzə qalır, dağıntılar arasında başlanan yeni həyatın şahidi olur, Azərbaycanın quruculuq ruhunu və iradəsini yerindəcə hiss edirlər, ölkəmizin nəyə qadir olduğunu öz gözləri ilə görürlər.

Bununla yanaşı, Azərbaycan hökumətinin xarici qonaqlara azad edilmiş əraziləri avtomobillərlə sərbəst gəzmək hüququ verməsi rəsmi Bakının öz gücünə, təhlükəsizliyinə və inkişaf yoluna olan inamının bariz göstəricisidir. Bu addım həm də Azərbaycanın beynəlxalq ictimaiyyətlə açıq və şəffaf əməkdaşlığa hazır olduğunu, real vəziyyəti gizlətmədən təqdim etməyə qadir olduğunu nümayiş etdirir.

Sonda onu da qeyd edək ki, atılan bu addımlar Qarabağın turizm baxımından dirçəlməsi və iqtisadi inkişafı üçün ciddi potensial yaradır. Hər bir səfər, hər açılan marşrut xidmət sahələrinin inkişafını sürətləndirir, yeni restoranların, nəqliyyat xidmətlərinin və digər bizneslərin yaranmasına səbəb olur. Nəticədə, bölgədə yeni iş yerləri açılır, əhali üçün gəlir imkanları artır. Bu isə ümumilikdə dayanıqlı iqtisadi modelin formalaşmasına xidmət edir, yerli sahibkarlığın inkişafını stimullaşdırır, milli mətbəx və sənətkarlığın geniş tanıdılmasına şərait yaradır.

Bir faktı da nəzərə çatdırmaqda fayda var: Zəngəzur dəhlizinin açılması bölgənin nəqliyyat əlçatanlığını artırmaqla yanaşı, beynəlxalq turizm axınının güclənməsinə də şərait yaradacaq. Füzuli, Zəngilan və Laçın hava limanlarının fəaliyyəti Qarabağı və Şərqi Zəngəzuru dünya ilə birləşdirən əsas qovşaqlara çevirəcək.

Beləliklə, Qarabağ tarix və müasirliyin, təbiət və texnologiyanın, mədəniyyət və innovasiyanın qovuşduğu, həm yerli, həm də xarici qonaqlar üçün rahat istirahət və unudulmaz xatirə vəd edən turizm mərkəzinə çevrilir. Bu bölgəyə gələn hər bir insan xarabalıqdan dirçələn torpağın canlı şahidinə çevrilir, Azərbaycanın sülhə, inkişafa və şəffaflığa əsaslanan siyasətinə bir daha şahid olur.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Zəngəzur dəhlizi: iqtisadi inteqrasiya və regional imkanlar

(əvvəli 1-ci səhifədə)

b) Enerji qiymətlərinin volatilliyi: dünya enerji bazarında qiymət dalğalanmaları baş vermişdir. Pandemiya dövründə neftin qiyməti 20–25 ABŞ dollarına qədər düşmüş, 2022-ci ildən isə geosiyasi böhranlarla əlaqədar artmışdır. Bu, enerji idxal edən ölkələrdə inflyasiyanın artmasına və iqtisadi qeyri-sabitliyə səbəb olmuşdur.

c) Rəqəmsal iqtisadiyyat və logistik transformasiya: son illər rəqəmsal iqtisadiyyatın sürətli inkişafı nəqliyyat və logistika sahələrində ciddi dəyişikliyə səbəb olmuşdur. Elektron ticarət, blockchain və süni intellekt kimi texnologiyaların tətbiqi, logistika və ticarət sistemlərini daha çevik və effektiv idarə etməyə imkan yaratmışdır.

**Nəqliyyat dəhlizlərinin yeni qlobal iqtisadiyyatda rolu**

Son qlobal dəyişikliklər nəqliyyat dəhlizlərinin əhəmiyyətini artıraraq onu logistika infrastrukturundan daha geniş iqtisadi alətə çevirmişdir. Bu dəyişikliklər həm ticarət, həm də geosiyasi əlaqələrdə dəyişən tələblərə cavab olaraq ölkələrin və regionların qarşılıqlı asılılığını artırmışdır. Nəqliyyat dəhlizləri artıq iqtisadi davamlılıq, regional sabitlik, geosiyasi güc və strateji əməkdaşlıq formalarına çevrilmişdir.

Məsələn, Orta dəhliz üzərində yük daşımalarının müddəti ənənəvi dəniz yolu ilə müqayisədə iki dəfə qısa olur. Bu, Asiya ilə Avropa arasında ticarət edən ölkələr üçün əhəmiyyətli üstünlük deməkdir. Əlavə olaraq, Şimal–Cənub dəhlizi ticarət vaxtını 30 faizdən çox qısaldır, bu da yalnız daşımaların sürətini artırmır, həm də ticarət xərclərini azaltmağa və iqtisadi fəaliyyətin səmərəli olmasına imkan yaradır. Bu dəyişikliklər qlobal ticarətin çevikliyini də artırır və xarici bazarlara daha sürətli inteqrasiyanı təmin edir.

**2. Zəngəzur dəhlizi: Azərbaycanın iqtisadi inkişafında yeni istiqamət**

**Heydər Əliyevin "iqtisadi körpü" strategiyası və onun mirası**

1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" Azərbaycanı qlobal enerji xəritəsində mühüm oyunçuya çevirməklə yanaşı, nəqliyyat xəritəsinin yenilənməsini də hədəf götürmüşdü. O deyirdi: "Biz elə etməliyik ki, Azərbaycan regionda iqtisadi və siyasi baxımdan etibarlı körpü rolunu oynasın." Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum kimi infrastruktur layihələri, dəmir yolu və avtomobil magistralları Azərbaycanın beynəlxalq tranzit sistemində etibarlı tərəfdaş kimi mövqeyini gücləndirdi. Bu yanaşma məşhur iqtisadçı Albert Hirşmanın "Əlaqələndirmə təsiri" nəzəriyyəsi ilə uzlaşır: iri infrastruktur layihələri yalnız bir sektorla məhdudlaşmır, onlar iqtisadiyyatda zəncirvari təsir yaradır: yeni bazarlar, xidmət sahələri və investisiya imkanları meydana çıxır.

**Yeni qlobal dəyişikliyə Azərbaycanın cavabı**

Qlobal çağırışlara Azərbaycan tərəfindən verilən strateji cavab Zəngəzur dəhlizi layihəsidir. Bu layihə, ölkənin geoiqtisadi baxışını təcəssüm etdirir və onun regional və qlobal iqtisadiyyatda vacib bir mərkəzə çevrilməsini təmin edir. Zəngəzur dəhlizi ölkəni Türkiyə və Avropa bazarlarına birbaşa çıxışı olan, həmçinin Mərkəzi Asiya ilə əlaqələri dərinləşdirən, Çindən Avropaya uzanan Orta dəhlizin əsas halqasına çevirir. Bununla da, Azərbaycan öz iqtisadi şaxələndirmə siyasətini həyata keçirir və regional əməkdaşlıq təşəbbüslərinin müsbət nəticələrini təmin edir.

**Zəngəzur dəhlizinin iqtisadi rolu**

Zəngəzur dəhlizi Azərbaycanın coğrafi mövqeyindən istifadə edərək qlobal logistik şəbəkəyə inteqrasiyasını sürətləndirir. Bu layihə ölkəmizin tranzit potensialını daha da artırmaqla qlobal ticarət sisteminə çevik, təhlükəsiz və səmərəli marşrutlar təqdim edir. Asiya ilə Avropa arasındakı ticarət əlaqələrini asanlaşdıran bu yeni nəqliyyat dəhlizi eyni zamanda regionda iqtisadi əlaqələri sürətlə inkişaf etdirir. Bununla da o, ölkənin müxtəlif iqtisadi zonalar arasında əlaqəliliyini gücləndirməyə imkan yaradır.

Zəngəzur dəhlizinin iqtisadi əhəmiyyəti yalnız ticarət və nəqliyyat marşrutlarının sürətini artırmaqla bitmir. Bu layihə, həmçinin Azərbaycanın daxili iqtisadi məkan birliyinin gücləndirilməsini təmin edir, xüsusilə də Naxçıvanın blokadadan çıxarılması məsələsini mühüm bir strateji addım kimi həll edir. Nəticədə, Zəngəzur dəhlizi həm də ölkənin iqtisadi məkan zəncirini möhkəmləndirir.

Eyni zamanda, Zəngəzur dəhlizinin bu təsiri təkcə Azərbaycanın daxili inkişafına yönəlmiş deyil. Bu layihə regionda iqtisadi sabitliyi artırır və yeni ticarət marşrutları vasitəsilə Azərbaycanın qlobal bazarlara daha sürətli və daha effektiv inteqrasiyasını təmin edir. Beləliklə, Azərbaycanın liderliyi altında həyata keçirilən bu layihə Azərbaycanın qlobal iqtisadiyyatda mövqeyini daha da gücləndirən və onu vacib bir oyunçuya çevirən mühüm bir strateji layihədir.

**3. Zəngəzur dəhlizi: geoiqtisadi liderliyə aparan yol**

***Zəngəzur dəhlizi və regional iqtisadi güc***

Zəngəzur dəhlizi Cənubi Qafqazın iqtisadi və nəqliyyat xəritəsini yenidən tərtib edir. Bu layihə Azərbaycanın geoiqtisadi çəkisini və regionda təsir imkanlarını əhəmiyyətli dərəcədə artırır. Əvvəllər qapalı və iqtisadi təcrid vəziyyətində olan bəzi ərazilərin beynəlxalq bazarlara çıxışı təmin olunmaqla, regional iqtisadi dinamizm canlanır. Bununla Azərbaycan Şərq–Qərb və Şimal–Cənub marşrutlarının kəsişdiyi mühüm logistik mərkəzə çevrilir.

Dəhliz təkcə nəqliyyat deyil, həm də iqtisadi siyasətlərə təsir edən geoiqtisadi alətdir. Azərbaycanın bu təşəbbüsü "yumşaq güc" (könüllü iştirak) konsepsiyasına uyğun olaraq, iqtisadi bağlılıq və əməkdaşlıq üzərində qurulmuş təsir nümunəsidir.

**Zəngəzur dəhlizinin Avrasiya ticarət sisteminə təsiri**

Zəngəzur dəhlizi Avrasiya qitəsində alternativ ticarət və enerji yollarının qurulmasına ciddi təkan verir. Mərkəzi Asiya, Qafqaz, Türkiyə və Avropanı birləşdirən bu marşrut Çindən Avropaya daşınan yüklərin tranzit marşrutlarının şaxələndirilməsində mühüm rol oynayacaqdır. Bu, təchizat zəncirində dayanıqlığın və təhlükəsizliyin artırılması baxımından strateji əhəmiyyət daşıyır.

Azərbaycanın logistika texnologiyalarına, rəqəmsallaşmaya və gömrük prosedurlarının sadələşdirilməsinə yönəlmiş addımları ölkəni etibarlı və proqnozlaşdırıla bilən logistik tərəfdaşa çevirir. Dəhliz vasitəsilə təşviq olunacaq rəqəmsal ticarət platformaları, intermodal daşımalar və gömrük inteqrasiyası isə regionda genişmiqyaslı ticarət infrastrukturunun əsasını qoyur.

**4. İqtisadi sülh: Zəngəzur dəhlizinin yeni imkanları**

Zəngəzur dəhlizi yalnız bir infrastruktur layihəsi deyil, regionda iqtisadi sülh modelinin tətbiqinin praktik təzahürüdür. İqtisadi sülh ölkələr arasında qarşılıqlı iqtisadi asılılığın və əməkdaşlığın qurulması ilə uzunmüddətli sabitliyin təmin olunmasına yönəlmiş bir yanaşmadır. Bu modeldə əsas məqsəd ticarət və iqtisadi əlaqələrin inkişafı vasitəsilə regionlar arasında geosiyasi gərginliklərin azalmasına nail olmaqdan ibarətdir. Zəngəzur dəhlizi bu yanaşmanı Cənubi Qafqazda tətbiq edərək ölkələr arasında qarşılıqlı iqtisadi maraqların və resursların ortaq istifadəsinin təmin edilməsi ilə regional etimad mühitini möhkəmləndirir.

**İqtisadi inteqrasiya və uzunmüddətli sabitlik**

Tarix göstərir ki, iqtisadi inteqrasiya və qarşılıqlı maraqlar uzunmüddətli sabitliyin əsas təminatçısıdır. Avropa İttifaqının yaradılması iqtisadi sülhün uğurlu nümunəsidir. Avropa ölkələri arasında qarşılıqlı iqtisadi asılılıq və əməkdaşlıq onların arasında siyasi gərginliklərin qarşısını alaraq regionda sülhün qorunmasına imkan vermişdir. Zəngəzur dəhlizi də bu cür bir modelin Cənubi Qafqazda tətbiqinə bir addım yaxınlaşdırır. Bu layihə nəqliyyat və ticarət əlaqələrini sürətləndirərək ölkələr arasında qarşılıqlı etimad və əməkdaşlıq əlaqələrini gücləndirir.

Cənubi Qafqazda belə bir iqtisadi inteqrasiya regionun siyasi və iqtisadi sabitliyini təmin etməklə yanaşı, istənilən gərginliyi aradan qaldırmağa da imkan verəcək. Zəngəzur dəhlizi iqtisadi sülhün əsas prinsipinə uyğun olaraq ticarət və resurs mübadiləsi ilə ölkələri bir-birinə daha sıx bağlayır və qarşılıqlı asılılıq yaradır.

**Ortaq iqtisadi maraqlar: yeni iqtisadi düzənin yaradılması**

Zəngəzur dəhlizinin əsas xüsusiyyətlərindən biri qarşılıqlı iqtisadi maraqların toqquşmadığı, əksinə, birləşdiyi yeni bir regional düzənin qurulmasıdır. Bu yeni düzən ölkələr arasında iqtisadi bağlılığın və qarşılıqlı faydanın güclənməsinə xidmət edir. Bu yanaşma həmçinin Cənubi Qafqaz ölkələrinin ticarət yollarını açaraq regional iqtisadi şəbəkələri inteqrasiya edir. Dəhlizin əhatə etdiyi ölkələrin birgə əməkdaşlıq qurması həm də qlobal ticarət axınlarını sürətləndirərək hər bir ölkənin iqtisadi inkişafına təkan verəcək. Qarşılıqlı maraqların birləşməsi isə bu ölkələr arasında müsbət əlaqələrin artmasını təmin edir. Zəngəzur dəhlizi, bir tərəfdən iqtisadi əlaqələri möhkəmləndirir, digər tərəfdən isə, qarşılıqlı etimadın formalaşmasına şərait yaradır.

**İqtisadi sülhün uzunmüddətli təsirləri**

Zəngəzur dəhlizi təkcə regional iqtisadiyyatı inkişaf etdirmir, həm də bu inkişafı təmin edən iqtisadi sülh modelini həyata keçirir. Bu model qarşılıqlı maraqlara əsaslanan əlaqələrin qurulması və davamlı əməkdaşlıqla sülhü gücləndirir. Zəngəzur dəhlizinin inkişafı regionda sərhəd və iqtisadi blokadaların aradan qaldırılması ilə daha müsbət və konstruktiv əlaqələrin formalaşmasına imkan yaradır.

Cənubi Qafqazda iqtisadi sülhün qurulması, həmçinin region ölkələrinin birgə maraqlar üzərində işləməsini təşviq edir və hər bir tərəfin həm müstəqil, həm də kollektiv şəkildə inkişafına şərait yaradır. Bu, ölkələrin daha güclü regional əlaqələr qurmasına, iqtisadi inkişafı sürətləndirməsinə və xarici məsələlərdə möhkəm mövqelər əldə etməsinə səbəb olacaq.

**5. Zəngəzur dəhlizi və Azərbaycanın liderliyi**

**İlham Əliyev və iqtisadi xəritənin yenilənməsi**

Zəngəzur dəhlizi Azərbaycanın regional liderliyini möhkəmləndirən mühüm vasitədir. Prezident İlham Əliyevin siyasi iradəsi və praqmatik siyasəti nəticəsində bu layihə strateji kommunikasiya baxımından uğurlu nümunəyə çevrilmişdir. Azərbaycan bu prosesdə yalnız tranzit ölkə deyil, təşəbbüskar və əlaqələndirici aktor kimi çıxış edir. Hüquqi çərçivənin yaradılması, regional ölkələrlə razılaşmaların bağlanması və beynəlxalq maliyyə institutları ilə əməkdaşlıq ölkənin institusional gücünü nümayiş etdirir.

Bu yanaşma Azərbaycanın çoxvektorlu, balanslaşdırılmış və milli iqtisadi maraqlara əsaslanan liderlik modelinin formalaşmasına imkan verir. Beləliklə, Azərbaycan həm regional, həm də qlobal aktorlar üçün etibarlı və strateji tərəfdaşa çevrilib.

Heydər Əliyevin "güclü iqtisadiyyat – güclü dövlət" strategiyası bu gün Prezident İlham Əliyevin "dayanıqlı, rəqabətədavamlı iqtisadi model" baxışı ilə uğurla reallaşır. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı–Tbilisi–Qars dəmir yolu və Ələt Azad İqtisadi Zonası kimi layihələr sayəsində




Azərbaycan Avrasiya məkanında strateji tranzit və logistik mərkəzə çevrilməyə başladı. Bu yanaşma Paul Kruqmanın "Yeni iqtisadi coğrafiya" nəzəriyyəsinin real tətbiqi idi – coğrafi üstünlüklərinə və siyasi sabitliyə əsaslanmaqla iqtisadi cəlbediciliyi artırmaq xəttini özündə ehtiva edir.

**Zəngəzur dəhlizi – Yeni iqtisadi coğrafiyanın mərkəzi**

Azərbaycanın iqtisadi inkişaf strategiyasında Zəngəzur dəhlizi bütövlükdə regionun gələcək iqtisadi arxitekturasını müəyyən edən əsas transformativ mexanizmdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bu layihə Heydər Əliyevin iqtisadi körpü konsepsiyasının müasir davamı olmaqla Azərbaycanın iqtisadi suverenliyini, milli gəlirlərin şaxələndirilməsini və regional liderlik mövqeyini daha da möhkəmləndirir.

Dəhlizin işə düşməsi Naxçıvan Muxtar Respublikasının blokadadan çıxarılması ilə ölkəmizin iqtisadi məkanının bütövlüyünü və Şərqi Zəngəzur və Qarabağın inteqrasiyası üçün iqtisadi resursların çevik hərəkətini təmin edəcək. Bu isə daxili bazar əlaqələrinin güclənməsi, xərclərin optimallaşması və yeni istehsal və xidmət sahələrinin yaranması baxımından mühüm faktordur.

Eyni zamanda, Azərbaycan–Türkiyə quru əlaqəsinin bərpa edilməsi ölkənin İpək Yolunun müasir konfiqurasiyasında logistika və tranzit mərkəzinə çevrilməsi prosesini sürətləndirir. Bu, təkcə regional deyil, həm də Avrasiya nəqliyyat dəhlizlərinin gələcək geosiyasi və iqtisadi dinamikasında Azərbaycanın rolunu artırır.

**Zəngəzur dəhlizinin iqtisadi vektorları: struktur yanaşma**

Zəngəzur dəhlizinin iqtisadi dəyəri təkcə tranzit fəaliyyətin bərpası ilə məhdudlaşmır. O, Azərbaycanın iqtisadi transformasiyasını üç əsas istiqamətdə gücləndirən sistemli təsir mexanizminə çevrilir:

1. Ticarət dövriyyəsinin genişlənməsi və rəqabət üstünlüyü. Dəhlizin istifadəyə verilməsi yüklərin daşınma müddətini və məsafəsini əhəmiyyətli dərəcədə azaldaraq logistika xərclərinin azalmasına, məhsulların bazarlara çıxışının sürətlənməsinə şərait yaradır. İqtisadiyyatın şaxələndirilməsi və ixracın rəqabət qabiliyyətinin artırılması istiqamətində bu amil həlledicidir. Bu proses Rikardo nəzəriyyəsinin müqayisəli üstünlüklər konsepsiyasına tam uyğun gəlir. İqtisadiyyat daha sürətli bazar çıxışı və aşağı xərc mühitində öz üstün sahələrini daha sərfəli şəkildə reallaşdırır. Rəqəmsal gömrük sistemləri və "yaşıl dəhliz" yanaşması ticarət dövriyyəsinin şəffaflığını artırmaqla, ixrac əməliyyatlarının çevikliyini artırır və hüquqi riskləri isə azaldır.

2. Tranzit gəlirlərinin artımı və əlavə dəyər zəncirinin formalaşdırılması. Azərbaycanın hazırkı illik tranzit gəliri təxminən 1 milyard ABŞ dollarına yaxın səviyyədə qiymətləndirilir. Orta dəhliz üzrə yük axınının Zəngəzur vasitəsilə artması 2030-cu ilə qədər bu göstəricini ən azı iki dəfə artırmaq potensialına malikdir. Bu yalnız gömrük rüsumları deyil, ətraf regionlarda yaradılacaq logistika, sənaye və xidmət klasterlərinin verdiyi əlavə dəyər, yeni iş yerləri və xidmət ixracı hesabına baş verəcək. Tranzitə bağlı iqtisadiyyatın xidmət sektorlarının inkişafı Azərbaycanın post-sənaye mərhələsinə keçidini sürətləndirir. Endogen artım nəzəriyyəsinə uyğun olaraq, infrastruktur sərmayələri insan kapitalı və texnologiyaların effektivliyini artırmaqla uzunmüddətli iqtisadi artıma transformativ təsir göstərir. Dəhliz boyu yaradılacaq sənaye parkları, logistik hub-lar və s. infrastrukturlar bütövlükdə ölkənin iqtisadi dəyər zəncirini genişləndirəcək.

3. Xarici investisiya və institusional inkişaf üçün katalizator. Dəhlizin yaratdığı infrastruktur və əlaqəlilik birbaşa xarici investisiya üçün cəlbedici mühit formalaşdırır. Xüsusilə Qarabağ və Naxçıvanda "ağıllı" infrastrukturlar və sənaye parkları beynəlxalq investorlar üçün müasir institusional və texnoloji uyğunluq yaradır. Beynəlxalq nəzəriyyələr də Zəngəzur dəhlizini çoxşahəli qiymətləndirməyə imkan verir. Məsələn, OLI Paradigması çərçivəsində Zəngəzur dəhlizi: a) Azərbaycanın liderlik potensialı (ownership), b) Zəngəzur coğrafiyası (location), c) dəhliz ətrafında dövlət-özəl sektor sinerjisi (internalization) kontekstində qiymətləndirilə bilir.

**Sinerji: Zəngəzur dəhlizinin iqtisadi inteqrasiyaya təsirləri**

Zəngəzur dəhlizi təkcə Azərbaycan üçün deyil, bütövlükdə Türkiyə, Mərkəzi Asiya və Cənubi Qafqaz regionu üçün yeni iqtisadi və logistik reallıqlar yaradan strateji layihədir. Bu dəhliz region dövlətləri arasında iqtisadi inteqrasiyanı təşviq etməklə yanaşı, qarşılıqlı asılılıq və əməkdaşlığın dərinləşməsi üçün konkret platforma yaradır.

Eyni zamanda dəhliz iqtisadi sinerji yaratmaqla region ölkələrinin bir-birini tamamlayan iqtisadi strukturlarını daha sıx inteqrasiyaya sövq edir. Azərbaycan nəqliyyat və logistika mərkəzi kimi rolunu gücləndirməklə tranzit gəlirlərini artırır, qeyri-neft sahələrini inkişaf etdirir. Türkiyə sənaye məhsulları və texnologiya ixracı ilə regional bazarlarda iştirakını genişləndirir. Mərkəzi Asiya ölkələri isə təbii resurslar və kənd təsərrüfatı məhsulları ilə bu inteqrasiyada strateji rolunu möhkəmləndirir. Nəticə etibarilə, Azərbaycan–Türkiyə–Mərkəzi Asiya iqtisadi üçbucağı üzrə qarşılıqlı asılılıq və əməkdaşlıq yeni mərhələyə keçir.

Bu qarşılıqlı tamamlayıcı Zəngəzur dəhlizini yalnız fiziki logistik layihə deyil, regional iqtisadiyyatların birləşdirici platformasına çevirir:

Logistika və ticarətdə səmərəliliyin artması. Zəngəzur dəhlizi ölkələr üçün nəqliyyat və logistika baxımından ən qısa, etibarlı və iqtisadi cəhətdən səmərəli marşrutlardan birinə çevrilir. Dünya Bankına görə, nəqliyyat xərclərinin hər 1 faizlik azalması beynəlxalq ticarət dövriyyəsini orta hesabla 0,8 faiz artırır. Zəngəzur dəhlizi bu baxımdan Azərbaycan və qonşu ölkələr üçün yeni iqtisadi dividendlər yaradır. Azərbaycanın ixrac potensialı genişlənir, məhsullar daha çevik və az xərclə Türkiyə və Mərkəzi Asiya bazarlarına çatdırılır. Bunun nəticəsində ölkənin ixracda rəqabət qabiliyyəti artır. Türkiyə üçün bu dəhliz Mərkəzi Asiyaya birbaşa çıxış imkanı yaratmaqla, onun Avrasiya məkanında logistika və ticarət mərkəzi kimi mövqelərini daha da gücləndirir. Qazaxıstan, Özbəkistan və Türkmənistan kimi ölkələr isə Avropa və Türkiyə bazarlarına daha sabit və qısa marşrut əldə edir. Nəticə etibarilə, Zəngəzur dəhlizi ticarətin artması və iqtisadi dövriyyənin sürətlənməsi üçün praktik mexanizmə çevrilir.

Alternativ ticarət marşrutları və təhlükəsiz tranzit. Son illər qlobal geoiqtisadi mühitdə baş verən dəyişikliklər, xüsusilə Rusiya-Ukrayna müharibəsi və tədarük zəncirində qırılmalar region üçün alternativ, etibarlı və çevik marşrutların əhəmiyyətini artırıb. Zəngəzur dəhlizi bu baxımdan Gürcüstan üzərindən keçən mövcud marşrutlara alternativ yaratmaqla logistik risklərin diversifikasiyasını təmin edir. Eyni zamanda, daşımalar sahəsində rəqabət mühitini genişləndirir, logistik inhisarların zəifləməsi hesabına yükdaşımaların çevikliyini artırır və regional iqtisadi aktivliyi şaxələndirir. Bu üstünlüklər Azərbaycanın tranzit təhlükəsizliyini möhkəmləndirməklə yanaşı, region dövlətlərinə də yeni iqtisadi nəfəs verir. Bütövlükdə, Zəngəzur dəhlizi regional nəqliyyat sisteminin davamlılığını artıran strateji infrastruktur elementi kimi çıxış edir.

İxrac bazarlarına çıxışın genişlənməsi – yeni iqtisadi coğrafiya. Zəngəzur dəhlizi Azərbaycan, Türkiyə və Mərkəzi Asiya ölkələrinin ixrac coğrafiyasını genişləndirməklə, onların dünya bazarlarına çıxışını daha əlçatan və səmərəli edir. Azərbaycan və Türkiyə arasında ticarət dövriyyəsinin artması, ixrac əməliyyatlarının optimallaşdırılması iqtisadi inteqrasiyanın yeni mərhələsinə yol açır. Türkmənistan üçün bu dəhliz ixracda etibarlı marşrut funksiyasını yerinə yetirir. Qazaxıstan və Özbəkistan isə öz məhsullarını dünya bazarlarına çıxarmaq üçün yeni və daha səmərəli logistik imkanlar qazanır. Bu dəyişikliklər idxal-ixrac xərclərinin azalmasına, yeni tərəfdaşlıq imkanlarının yaranmasına və regionun iqtisadi dinamikasına müsbət təsir edir.

Beləliklə, Cənubi Qafqaz, Türkiyə və Mərkəzi Asiya ölkələri arasında iqtisadi əlaqələr daha sistemli və dayanıqlı formatda inkişaf edir.

**Regional iqtisadi inteqrasiyanın dərinləşməsi**

İqtisadi inteqrasiya nəzəriyyəsində Balassa yanaşması azad ticarət zonası mərhələsini ilkin və ən əsas addım kimi qəbul edir. Zəngəzur dəhlizinin bu mərhələni reallaşdırması ona görə əhəmiyyətlidir ki: ı) ticarət maneələrini azaltmaqla region ölkələri arasında ticarət dövriyyəsini artıracaqdır. ıı) dəhliz ətrafında logistika və nəqliyyat obyektlərinin birgə istifadəsi iqtisadi səmərəliliyin yüksəlməsinə xidmət edəcəkdir. ııı) Balassa nəzəriyyəsinə görə, regional əməkdaşlığın daha yüksək səviyyəyə (dərin inteqrasiya mərhələsi olan birgə bazar, iqtisadi birləşmə) qalxması üçün mühüm əsaslar yaradır.

Beləliklə, Zəngəzur dəhlizi əsasında formalaşan regional əməkdaşlıq modeli istifadəçi ölkələrdə iqtisadi səmərəliliyin artırılması və sosial sabitliyin möhkəmlənməsi üçün yeni platformaya çevriləcəkdir. Azərbaycan–Türkiyə–Mərkəzi Asiya xətti üzrə logistik xərclərin azalması, region ölkələrin iqtisadiyyatının diverisifikasiyası və Naxçıvanın inteqrasiyası, Balassa nəzəriyyəsində əks olunan iqtisadi inteqrasiyanın ilkin mərhələsini təcəssüm etdirir. Bu model iqtisadi və sosial transformasiyaya səbəb ola bilər, nəticədə dəhliz boyu dayanıqlı inkişaf və əməkdaşlıq şəraiti möhkəmlənəcəkdir.

**6. İlham Əliyevin strateji baxışı: geosiyasi strategiyadan geoiqtisadi reallığa**

Zəngəzur dəhlizi, marşrut boyunca sabitliyin təmin edilməsi, iqtisadi transformasiyanın sürətlənməsi və regionun qlobal iqtisadi inteqrasiya prosesinə fəal şəkildə cəlbi baxımından strateji əhəmiyyət daşıyan layihədir. Prezident İlham Əliyevin uzaqgörən liderliyi bu dəhlizi həm də yeni iqtisadi modellərin, regional əməkdaşlıq formatlarının və çoxşaxəli ticarət münasibətlərinin təşəkkül tapdığı kompleks geoiqtisadi platformaya çevirir.

**Yeni geoiqtisadi inkişaf modeli: əlaqəlilik və rəqabətlilik**

Prezident İlham Əliyevin Zəngəzur dəhlizi ilə bağlı siyasəti klassik əmtəə ixracı modelindən əlaqəlilik və tranzit əsaslı dəyər zəncirinə keçidi təşviq edir. Bu model "Regional qoşulma və transformasiya paradiqması" kimi səciyyələndirilə bilər. Burada əsas məqam ondan ibarətdir ki, ticarət, enerji və rəqəmsal axınlar şəraitində coğrafi keçid zonasındakı ölkə özünü mərkəzə çevirmək üçün fiziki və institusional infrastruktur qurmalıdır. Zəngəzur dəhlizi məhz bu yanaşmanın təzahürüdür: burada nəqliyyat, "yaşıl enerji", rəqəmsallaşma və azad iqtisadi zonalar daxil olmaqla kompleks iqtisadi infrastruktur formalaşır. Bu isə Azərbaycanın yalnız tranzit ölkəsi deyil, regional iqtisadi platforma kimi inkişafına xidmət edir.

**Qabaqlayıcı transformasiya: təchizat zənciri risklərinə cavab**

Son illər pandemiya və qlobal münaqişələr "just-in-time" (vaxtında istehsal və çatdırma) modelinin risklərini üzə çıxardı. Bunun əvəzinə "just-in-case" (təhlükəsizlik əsasında planlaşdırma) və "friend-shoring" (siyasi etibarlı tərəfdaşlarla əməkdaşlıq) modelləri ön plana çıxdı. Zəngəzur dəhlizi bu kontekstdə "təhlükəsiz, etibarlı və dost mühitli dəhliz" funksiyasını daşıyır. Prezident İlham Əliyev bu qlobal dəyişiklikləri vaxtında dəyərləndirərək Azərbaycanın sosial-iqtisadi infrastrukturunu bu yeni reallığa uyğunlaşdırır və ölkəni təchizat zəncirini yeni dövrə tam hazır edir.

**"Qovşaq iqtisadiyyatı" konsepsiyasına inteqrasiya**

"Qovşaq iqtisadiyyatı"na görə (Hub Economy) iqtisadi fəaliyyətlər strateji qovşaqlarda cəmləşir və əlaqələndirilir. Müasir dünya iqtisadiyyatında innovasiya, əlaqəlilik və kapital axınları əsasən bir neçə aparıcı iqtisadi qovşaq ətrafında formalaşır və inkişaf edir. Zəngəzur dəhlizi ətrafında yaradılan sənaye zonaları, logistika mərkəzləri və rəqəmsal platformalar məhz bu qovşaq modelinə uyğun iqtisadi infrastrukturun əsasını təşkil edir. Bu, ölkəmizin qlobal iqtisadi şəbəkələrdə mühüm tranzit və iqtisadi mərkəzə çevrilməsinə şərait yaradır. Prezident İlham Əliyevin strateji baxışı isə ölkənin yalnız regional məkanla məhdudlaşmayan, əksinə, qlobal iqtisadi sistemdə fəal iştirak edən, çevik və dayanıqlı aktora çevrilməsini hədəfləyir.

**"Yaşıl" tranzit modeli və davamlı inkişaf**

Müasir qlobal iqtisadi və ekoloji çağırışlar fonunda Zəngəzur dəhlizi yalnız ənənəvi logistik layihə deyil, həm də innovativ və ekoloji baxımdan dayanıqlı nəqliyyat konsepsiyasının konkret nümunəsidir. İqlim dəyişiklikləri və karbon neytrallığı ilə bağlı beynəlxalq öhdəliklər kontekstində bu dəhlizdə ekoloji təmiz nəqliyyat vasitələrinin istifadəsi, bərpa olunan enerji inteqrasiyası və rəqəmsallaşmanın tətbiqi prioritet istiqamətlər kimi müəyyən edilmişdir. Bu yanaşma nəinki tranzit əməliyyatlarının sürətini və şəffaflığını artırır, həm də regionda "yaşıl iqtisadiyyat" prinsiplərinin tətbiqinə töhfə verir.

Zəngəzur dəhlizinin bu xüsusiyyətləri onu BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə cavab verən müasir iqtisadi infrastruktur nümunəsinə çevirir. Xüsusilə, 9-cu məqsəd (Sənayeləşmə, İnnovasiya və İnfrastruktur), 13-cü məqsəd (İqlim Dəyişikliyinə Qarşı Mübarizə) və 17-ci məqsəd (Tərəfdaşlıqların gücləndirilməsi) baxımından layihənin strateji əhəmiyyəti daha da aktuallaşır.

**Siyasi sərhəddən iqtisadi genişlənməyə: yeni geoiqtisadi doktrina**

Prezident İlham Əliyevin strateji baxışında Zəngəzur dəhlizi eyni zamanda geoiqtisadi alətlər çərçivəsində nəzərdən keçirilir. Bu layihə Cənubi Qafqazda post-münaqişə dövründə yeni əməkdaşlıq formatını təşviq edir və dəhliz boyunca iqtisadi qarşılıqlı asılılıq vasitəsilə dayanıqlı sabitlik modelini formalaşdırır.

Bununla da dəhliz Azərbaycan–Türkiyə geostrateji tandemi çərçivəsində Mərkəzi Asiya ölkələrinə və Avropaya birbaşa çıxışı təmin etməklə ölkəmizin regional qovşaq və təşəbbüskar ölkə kimi mövqeyini daha da gücləndirir. Bu yanaşma qlobal geoiqtisadi nəzəriyyələrdə "Post-konflikt regional inteqrasiya modeli" kimi tanınan praktiki nümunəyə çevrilir. Burada əsas ideya ondan ibarətdir ki, münaqişədən sonrakı dövrdə iqtisadi inteqrasiya və qarşılıqlı asılılıq sabitlik və təhlükəsizliyin ən effektiv təminat mexanizmi olur. Bu baxımdan Zəngəzur dəhlizi təkcə Azərbaycanın iqtisadi strategiyasının deyil, həm də Cənubi Qafqazın gələcək inkişafında mühüm element kimi çıxış edir.

Beləliklə, Zəngəzur dəhlizi Prezident İlham Əliyevin siyasi iradəsinin iqtisadi nəticəyə çevrilməsinin bariz nümunəsidir. Regionda dayanıqlı iqtisadi əlaqələr, investisiya sinerjisi və sabitlik üçün yeni doktrina formalaşdıran bu layihə eyni zamanda beynəlxalq əməkdaşlıq üçün platforma rolunu oynayır. Azərbaycan bu dəhliz vasitəsilə əməkdaşlıq, çeviklik və dayanıqlılıq modelini dəhliz boyunca praktik formaya çevirir. Bu yol isə sadəcə fiziki yol deyil – iqtisadi dəyərlər, etibar və sabitliyin özülüdür.

***Şaiq ADIGÖZƏLOV,***
***iqtisad üzrə fəlsəfə doktoru***

# Azərbaycan – İƏT əlaqələrinin strateji önəmi artır

(əvvəli 1-ci səhifədə)



Dövlətimizin başçısı daha sonra deyib: "Bu təşkilatın çox böyük potensialı var və Xankəndidə Zirvə görüşündə biz bu təsisata yeni bir ölçü gətirmək istədik. Zirvə görüşündən əvvəl mən Baş katib cənab Xan ilə görüşdüm, – bildiyiniz kimi, o, pakistanlıdır, – razılığa gəldik ki, bu dəfə müxtəlif forumlar keçiriləcək. Onların hamısı burada, azad edilmiş ərazilərdə, biri Şuşada, digəri Ağdamda və üçüncüsü isə Laçında təşkil olundu. Biznes, Qadınlar və Gənclər forumları reallaşdı. Sonra isə həmin forumların təmsilçiləri Zirvə görüşündə dövlət başçıları qarşısında müzakirə etdikləri və razılaşdırdıqları məsələlər barədə hesabat verdilər".

Ölkə rəhbərinin sözlərinə görə, Azərbaycan İƏT-in daha güclü və səmərəli fəaliyyət göstərməsini istəyir, çünki bunu üzv ölkələrin məlum potensialı şərtləndirir. Üzv dövlətlər arasında daha fəal və bir o qədər də fəal olmayan ikitərəfli münasibətlər var, lakin Azərbaycana çoxtərəfli yanaşma lazımdır. Bu baxımdan, respublikamız səyləri qiymətləndirərək, öhdəliyi sədr kimi öz üzərinə götürür.

Azərbaycan Respublikası ilə İƏT arasında formalaşmış münasibətlər son illərdə keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Regionda və beynəlxalq arenada artan iqtisadi və siyasi çəkisi ilə seçilən Azərbaycan bu əməkdaşlıq platformasında fəal tərəfdaş kimi çıxış edir. Ölkəmizin İƏT çərçivəsində apardığı çoxşaxəli fəaliyyətlər yalnız milli maraqların təmin olunmasına deyil, həm də təşkilat daxilindəki əməkdaşlığın dərinləşməsinə xidmət edir.

Qeyd edək ki, 1985-ci ildə İran, Pakistan və Türkiyə tərəfindən əsası qoyulan İƏT bu gün Mərkəzi və Cənubi Asiya, Qafqaz və Yaxın Şərqin 10-dan artıq ölkəsini əhatə edən mühüm regional təşkilata çevrilib. Təşkilat üzv ölkələr arasında ticarət, investisiya axını, nəqliyyat, energetika, kənd təsərrüfatı və turizmin inkişafını hədəfləyib. Azərbaycan 1992-ci ildən etibarən bu qurumun tamhüquqlu üzvüdür və ötən dövrdə bu platforma çərçivəsində çoxsaylı təşəbbüslərlə çıxış edib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən balanslaşdırılan və çevik xarici siyasət İƏT ilə əməkdaşlıqda da öz əksini tapır. Azərbaycan təşkilatın tədbirlərində fəallıq göstərir, regional enerji və nəqliyyat layihələrinin təşəbbüskarı və icraçısı kimi çıxış edərək, İƏT ölkələri ilə əlaqələrin daha da dərinləşdirilməsinə töhfə verir. Məsələn, Bakı – Tbilisi – Qars dəmir yolu, Zəngəzur dəhlizi və Orta Dəhliz kimi strateji layihələr təkcə Azərbaycan üçün deyil, İƏT üzv dövlətləri ilə də mühüm tranzit, eləcə də iqtisadi imkanlar açır.

Azərbaycanın həm Türk Dövlətləri Təşkilatına, həm də İƏT-ə üzv olması bu iki regional platformanın bir-birini tamamlamasına şərait yaradır. Xüsusilə, türk dövlətləri ilə iqtisadi inteqrasiya prosesində İƏT-in yaratdığı ticarət və investisiya imkanları qarşılıqlı faydanın artırılmasına xidmət edir. Azərbaycan, bu mənada, Mərkəzi Asiya ilə Yaxın Şərqi birləşdirən mühüm körpü rolunu oynayır.

Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı tarixi zəfərdən sonra işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa və yenidənqurma işləri İƏT ölkələri ilə əməkdaşlığın yeni istiqamətlərini müəyyənləşdirib. Azərbaycan bu ölkələrlə infrastrukturun qurulması, kənd təsərrüfatı layihələrinin icrası, enerji və logistika sahələrində əməkdaşlığı təşviq edir. 2023-cü ildə Şuşada keçirilən İƏT-in xüsusi toplantısı bu baxımdan tarixi əhəmiyyət daşıyır.

Azərbaycan uzun illərdir ki, enerji sahəsində etibarlı tərəfdaş kimi tanınır. Ölkəmizin neft və təbii qaz ehtiyatları, alternativ və bərpaolunan enerji sahəsində inkişaf strategiyası İƏT çərçivəsində daha səmərəli əməkdaşlıq imkanları yaradır. Xüsusilə, Xəzər dənizi vasitəsilə Mərkəzi Asiya ölkələrinin enerji resurslarının dünya bazarına çıxarılması məsələsində Azərbaycan tranzit ölkə kimi mühüm rol oynayır.

İƏT-in əsas məqsədlərindən biri də üzv ölkələr arasında azad ticarət məkanının yaradılmasıdır. Azərbaycan bu istiqamətdə gömrük və logistika infrastrukturunu daim təkmilləşdirir. İƏT-in "Ticarətin asanlaşdırılması strategiyası" çərçivəsində Bakı Beynəlxalq Ticarət Limanı, Ələt Azad İqtisadi Zonası və digər təşəbbüslər Azərbaycanın regional ticarət qovşağına çevrilməsinə xidmət edir.

Azərbaycanın ev sahibliyi etdiyi COP29 çərçivəsində iqlim dəyişiklikləri ilə mübarizə və "yaşıl" enerji keçidi İƏT əməkdaşlığında da prioritet mövzulardan biri kimi ön plana çıxır. Azərbaycanın bu sahədə təcrübəsi və siyasi iradəsi təşkilatın digər üzvləri üçün nümunə ola bilər. "Yaşıl" enerji, su ehtiyatlarının idarə olunması, ekoloji texnologiyaların tətbiqi kimi mövzularda İƏT – Azərbaycan əməkdaşlığı geniş imkanlar vəd edir.

Azərbaycan İƏT çərçivəsində təkcə iqtisadi deyil, həm də mədəni-humanitar sahələrdə fəallıq göstərir. Bakı prosesi və mədəniyyətlərarası dialoq təşəbbüsləri, həmçinin ölkəmizdə keçirilən beynəlxalq forumlar təşkilatın ideyalarının təbliğinə töhfə verir. Bu, eyni zamanda, Azərbaycanın mədəni diplomatiya sahəsində artan nüfuzunu əks etdirir.

Azərbaycan ilə İƏT arasında əlaqələrin yeni mərhələyə keçidi strateji baxımdan qarşılıqlı etimada, ortaq maraqlara və regional təhlükəsizlik prioritetlərinə əsaslanır. Bu əlaqələrin daha da inkişaf etdirilməsi üçün aşağıdakı istiqamətlər önə çıxır:

*– üzv ölkələr arasında iqtisadi inteqrasiyanın dərinləşdirilməsi;*

*– birgə sərmayə fondlarının yaradılması;*

*– rəqəmsal iqtisadiyyat və texnologiya sahəsində əməkdaşlıq;*

*– gənclər və qadın sahibkarlığının təşviqi;*

*– regional risklərə qarşı ortaq cavab mexanizmlərinin qurulması.*

Qeyd edək ki, Azərbaycan – İƏT münasibətləri təkcə iqtisadi maraqların deyil, həm də ümumi inkişafın və sabitliyin təmin olunmasının mühüm vasitəsinə çevrilib. Bu əməkdaşlıq həm region daxilində, həm də beynəlxalq miqyasda Azərbaycanın artan rolunun və çoxşaxəli diplomatiyasının göstəricisidir. İnanmaq olar ki, qarşıdakı dövrlərdə Azərbaycan İƏT platformasında daha mühüm təşəbbüslər səsləndirəcək və təşkilatın inkişafında aparıcı rollardan birini oynamaqda davam edəcək.

Azərbaycan İƏT-in fəal və təşəbbüskar üzvlərindən biri kimi regional əməkdaşlıq platformalarında iştirakı daim diqqətdə saxlayıb. Respublikamızın geosiyasi mövqeyi, nəqliyyat-logistika imkanları və enerji resursları ölkəmizi İƏT üçün strateji tərəfdaşa çevirib. Bu baxımdan Bakı – Tbilisi – Qars dəmir yolu, Cənub Qaz Dəhlizi və Orta Dəhliz kimi layihələr İƏT məkanında inteqrasiyanı gücləndirən mühüm vasitələrdir.

Azərbaycan indiyədək həm də nəqliyyat dəhlizlərinin rəqəmsallaşdırılması və "yaşıl" enerji əməkdaşlığı sahəsində İƏT çərçivəsində bir sıra təşəbbüslərlə çıxış edib. 2021-ci ildə bu təşkilatın Turizm Nazirləri Şurasının Bakıda keçirilən toplantısı və 2023-cü ildə İƏT Gənclər Forumu kimi tədbirlər də Azərbaycanın quruma verdiyi əhəmiyyətin göstəriciləridir.

Sonda qeyd edək ki, İƏT-in əsas məqsədi ortaq din və mentalitet birliyi olan üzv ölkələrin iqtisadi əməkdaşlığını artırmaqdır. Hazırda təşkilata 10 ölkə daxildir. Azərbaycanın təşkilata üzv ölkələrlə iqtisadi-ticari əlaqələri artan dinamika üzrə inkişaf edir. Belə ki, 2024-cü ilin göstəricilərinə görə, qardaş Türkiyə ilə iqtisadi ticarət həcmi 7,9 milyard dollardır.

Ticarət həcmi Azərbaycanın bu ölkələrlə olan toplam ticarət dövriyyəsinin 77 faizini təşkil edir. Digər ölkələrin də payı məhz qonşuluq prinsipi üzrə bölünür. Məsələn, İranla ötənilki ticarət dövriyyəmiz 647 milyon dollar olub ki, bu da İƏT üzvləri ilə ticarət dövriyyəmizin 8,9 faizinə bərabərdir.

Ötən il Qazaxıstanla illik ticarətimiz 470 milyon dollar və ya təşkilatdaxili toplam ticarətimizin 6 faizinə bərabər olub. Digər yaxın qonşumuz Türkmənistanla illik ticarət dövriyyəmiz isə 384 milyon dollar və ya ümumi dövriyyənin 4,9 faizinə bərabərdir. Özbəkistanla Azərbaycan arasında 2024-cü il üçün ticarət dövriyyəsi əvvəlki ilə nisbətən 40 faiz artaraq 252 milyon dollara yüksəlib. 2024-cü ildə Pakistan ilə ticarət dövriyyəmiz 22 milyon dollar, Əfqanıstanla 800 min dollar, Tacikistan ilə 7 milyon dollar, Qırğızıstan ilə 4 milyon dollar olub.

Göründüyü kimi, təşkilata üzv bir çox ölkələrlə ticarət dövriyyəmiz mövcud potensialı əks etdirmir. Buna səbəb kimi qeyd olunan ölkələrdə logistika və nəqliyyat infrastrukturunun inkişaf etməməsi, enerji sahəsində investisiyaların qıtlığı və geosiyasi risklər ola bilər. Bu ölkələr çox nadir metallarla zəngindirlər. Əfqanıstan litium, nikel, kobalt, mərmər və nadir metallarla zəngindir ki, bu gün həmin metallardan yüksək texnoloji məhsulların istehsalında istifadə olunur.

## 6 ayda qeyri neft-qaz gəlirləri 10 milyard manatı ötüb

**Dövlət büdcəsinin qeyri neft-qaz sektoru üzrə daxilolmaları 2025-ci ilin yanvar-iyun ayları üzrə dövlət büdcəsinin ümumi daxilolmalarının 51,9 faizini təşkil etməklə 10 milyard 277,3 milyon manat olub. Bu da proqnozla müqayisədə 457 milyon manat və ya 4,7 faiz, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə isə 232,3 milyon manat və ya 2,3 faiz çoxdur. Bu barədə məlumatlar Maliyyə Nazirliyinin hesabatında yer alıb.**



Qeyd edilib ki, cari ilin birinci yarısında dövlət büdcəsinin gəlirlərində qeyri neft-qaz sektoru üzrə daxilolmaların 62,4 faizini və ya 6 milyard 417,6 milyon manatını vergi orqanlarının xətti ilə daxilolmalar, 30,1 faizini və ya 3 milyard 91,1 milyon manatını gömrük orqanlarının xətti ilə daxilolmalar, 3 faizini və ya 312,2 milyon manatını dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların ödənişli xidmətlərindən daxilolmalar, 4,3 faizini və ya 434,5 milyon manatını sair daxilolmalar, 0,2 faizini və ya 21,9 milyon manatını dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar təşkil edir.

2025-ci ilin yanvar-iyun ayları üzrə dövlət büdcəsinin gəlirlərinin qeyri neft-qaz sektoru üzrə proqnoza nisbətən vergi orqanlarının xətti ilə daxilolmalar 218,6 milyon manat və ya 3,5 faiz, gömrük orqanlarının xətti ilə daxilolmalar 4,1 milyon manat və ya 0,1 faiz, dövlət əmlakının icarəyə verilməsindən və digər mənbələrdən daxilolmalar 319,2 milyon manat və ya 3,3 dəfə çox, dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların ödənişli xidmətlərindən daxilolmalar isə 84,9 milyon manat və ya 21,4 faiz az icra olunub.

Dövlət büdcəsinin neft-qaz sektoru üzrə daxilolmaları isə 9 milyard 526,6 milyon manat təşkil etmişdir ki, bu da proqnozla müqayisədə 247,8 milyon manat və ya 2,7 faiz, 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə isə 728,8 milyon manat və ya 8,3 faiz çoxdur. 2025-ci ilin ilk altı ayında dövlət büdcəsinin gəlirlərində neft-qaz sektoru üzrə daxilolmaların 24 faizi və ya 2 milyard 286,1 milyon manatı vergi orqanlarının xətti ilə daxilolmaların, 76 faizi və ya 7 milyard 240,5 milyon manatı Azərbaycan Respublikasının Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin payına düşür.

Xatırladaq ki, 2025-ci ilin altı ayında dövlət büdcəsinin gəlirləri 19 milyard 803,9 milyon manat, xərcləri 17 milyard 95,6 milyon manat təşkil edib. Nəticədə, dövlət büdcəsində 2 milyard 708,3 milyon manat məbləğində profisit yaranıb.

## Azərbaycan Keniya ilə enerji əməkdaşlığı qurur



**Energetika naziri Pərviz Şahbazovun Keniyanın enerji və neft naziri James Opiyo Vandayi ilə onlayn formatda görüşü keçirilib. Bu barədə Energetika Nazirliyi məlumat yayıb.**

Bildirilib ki, görüşdə Qlobal Cənub ölkələri ilə inkişaf edən münasibətlər və Qoşulmama Hərəkatı platforması çərçivəsində Azərbaycan – Keniya əlaqələrinin dinamik xarakter aldığı qeyd edilib, enerji sahəsində ikitərəfli əməkdaşlıq üçün geniş potensialın olduğu vurğulanıb. Bu kontekstdə Azərbaycanın neft-qaz sənayesində zəngin təcrübəsi, enerji təhlükəsizliyinin təminində rolu, bərpa olunan enerjinin istehsalı və ixracını əhatə edən irimiqyaslı layihələri, həmçinin Afrika ölkələrinə qədər genişlənən əməkdaşlıq coğrafiyasından bəhs edilib. Azərbaycanla Keniyanın neft-qaz, mayeləşdirilmiş təbii qaz, enerji şəbəkəsinin gücləndirilməsi, geotermal və bərpa olunan enerji sahələrində əməkdaşlıq imkanları müzakirə edilib.

Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Keniya Respublikasının Enerji və Neft Nazirliyi arasında energetika sektorunda əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. İki ölkənin enerji sektorundakı qarşılıqlı maraq və potensial imkanlarına əsaslanaraq geniş və çoxşaxəli əməkdaşlıq üçün strateji yol xəritəsini müəyyən edən sənəd neft və qaz, o cümlədən mayeləşdirilmiş təbii qaz, elektrik enerjisi və bərpa olunan enerji sahələrini, həmçinin birgə investisiyaların təşviqi, enerji şəbəkələrinin təkmilləşdirilməsi və enerji təhlükəsizliyinin təmin olunması üzrə əməkdaşlığı əhatə edir. Memoranduma əsasən potensial istiqamətlər üzrə Azərbaycanın Energetika Nazirliyi ilə Keniyanın Enerji və Neft Nazirliyi, eləcə də SOCAR və Keniyanın neft-qaz şirkətləri əməkdaşlıq edəcəklər. Memorandumdan irəli gələn məsələlərin icrası ilə bağlı birgə işçi qrupun yaradılması nəzərdə tutulur.

## Daşkəsəndə kənd nemətləri festivalı

**Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzi və Daşkəsən Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə rayonun Xoşbulaq kəndində "Aqrar Biznes" və "Kənd təsərrüfatı məhsulları" festivalı keçirilib.**



Festivalın əsas məqsədi ailə kəndli təsərrüfatlarının fəaliyyətinin stimullaşdırılması, yerli məhsulların bazara çıxış imkanlarının genişləndirilməsi və ekoloji cəhətdən təmiz kənd təsərrüfatı məhsullarının təşviqidir. Tədbir yerli istehsalçıların məhsullarının tanıdılması və kənd təsərrüfatının inkişafına dəstək baxımından mühüm əhəmiyyət daşıyır.

Festivalda rayonda fəaliyyət göstərən fermerlər və istehsalçılar tərəfindən təqdim edilən müxtəlif kənd təsərrüfatı məhsulları, ət və süd məhsulları, arıçılıq məhsulları, meyvə, tərəvəz və digər təbii qidalar nümayiş olunub. Təbii və ekoloji cəhətdən təmiz kənd təsərrüfatı məhsulları konseptində keçirilən festivalda ziyarətçilər məhsulları birbaşa istehsalçılardan almaq imkanı əldə ediblər.

Tədbirdə fermerlərlə yanaşı, sahibkarlar, investorlar, aqrar sahə üzrə mütəxəssislər və Kənd Təsərrüfatı Nazirliyinin elmi-tədqiqat institutlarının nümayəndələri iştirak ediblər. Festivalda Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq, Baytarlıq, Bitki Mühafizə və Texniki Bitkilər, Üzümçülük və Şərabçılıq, Əkinçilik, Tərəvəzçilik, Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat institutları elmi nailiyyətlərini, yeni texnologiya və tədqiqat nəticələrini əks etdirən stendlə təmsil olunublar.

Festivalda Daşkəsən rayonunun kənd təsərrüfatı potensialı nümayiş etdirilib, yerli istehsalçılar arasında əlaqələrin möhkəmləndirilməsi və regionun aqroturizm imkanlarının tanıdılması məqsədilə görüş və təqdimatlar keçirilib. Festival çərçivəsində sərgi ilə yanaşı, kənd həyatına həsr olunmuş proqramlar təşkil olunub.

Qeyd edək ki, Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı ilə növbəti məhsul festivalının iyulun 25-də Kürdəmir rayonunda keçirilməsi nəzərdə tutulur.

## Meyvə-tərəvəz ixracı ölkəyə 80 milyon dollar qazandırıb

**Cari ilin yanvar-iyun aylarında Azərbaycandan xaricə 402,4 min ton meyvə-tərəvəz ixrac edilib. Bundan da 415,7 milyon ABŞ dolları gəlir əldə olunub.**

Dövlət Gömrük Komitəsinin məlumatına görə, meyvə-tərəvəz ixracı ötən ilin eyni dövrü ilə müqayisədə miqdar ifadəsi ilə 80,5 min ton və ya 25 faizə qədər, dəyər ifadəsi ilə 81,2 milyon dollar, yaxud da 24,3 faiz artıb. Meyvə-tərəvəz ixracı Azərbaycanın ümumi ixracının 2,59 faizini, qeyri-neft sektoru üzrə ümumi ixracın isə 20,96 faizini təşkil edib. Xatırladaq ki, ötən ilin birinci yarısında ölkəmizdən xaricə 321,9 min ton miqdarında, 334,5 milyon dollar dəyərində meyvə-tərəvəz ixrac edilmişdi.

Yeri gəlmişkən, bu ilin yanvar-iyun aylarında Azərbaycan xarici ölkələrlə 24,4 milyard ABŞ dolları dəyərində ticarət əməliyyatı aparıb ki, bu da ötən ilin eyni dövrünə nisbətən 2 milyard 632 milyon dollar və ya 12,1 faiz çoxdur. Ötən ilin eyni dövründə isə Azərbaycan xarici ölkələrlə 21,768 milyard ABŞ dolları dəyərində ticarət əməliyyatı aparmışdı. Xarici ticarət dövriyyəsinin 12 milyard 878 milyon dolları ixracın, 11 milyard 522 milyard dolları isə idxalın payına düşüb. Nəticədə, xarici ticarətdə 1 milyard 356 milyon dollarlıq müsbət saldo yaranıb.

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 195** **Bakı şəhəri, 3 iyul 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Məktəbəqədər təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2012-ci il 2 oktyabr tarixli 218 nömrəli, "Sağlamlıq imkanları məhdud olan məktəbəqədər yaşlı uşaqların təhsilinin dövlət standartları"nın təsdiq edilməsi haqqında" 2018-ci il 26 fevral tarixli 62 nömrəli, "Peşə təhsilinin dövlət standartları"nın təsdiq edilməsi və "İlk peşə-ixtisas təhsili pilləsinin dövlət standartı və proqramı (kurikulum)"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 aprel tarixli 77 nömrəli Qərarının ləğv edilməsi barədə" 2019-cu il 11 mart tarixli 85 nömrəli, "Cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisələrində və xüsusi peşə təhsili müəssisələrində tətbiq edilən dövlət peşə təhsili standartları"nın təsdiq edilməsi haqqında" 2019-cu il 15 mart tarixli 101 nömrəli, "Xüsusi peşə təhsili müəssisələrinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2019-cu il 26 aprel tarixli 189 nömrəli, "Ümumi təhsil müəssisələrinin növlər üzrə Meyarları"nın təsdiq edilməsi haqqında" 2020-ci il 29 iyul tarixli 270 nömrəli və "Sağlamlıq imkanları məhdud olan şəxslərin təhsili üçün xüsusi təhsilin dövlət standartları"nın təsdiq edilməsi haqqında" 2024-cü il 8 fevral tarixli 75 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 78-VIIQD nömrəli Qanununun tətbiqi və "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 24 avqust tarixli 761 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 dekabr tarixli 262 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 2 oktyabr tarixli 218 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 10, maddə 1000 (Cild I); 2024, № 1, maddə 83, № 5 (II kitab), maddələr 605, 612, № 9, maddə 1067) ilə təsdiq edilmiş "Məktəbəqədər təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"nə aşağıdakı məzmunda 3.19-cu bənd əlavə edilsin:

"3.19. Məktəbəqədər təhsil müəssisəsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 10 mart tarixli 68 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət və qeyri-dövlət uşaq müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə dair Tələblər" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri" nəzərə alınmaqla ona zidd olmayan hissədə tətbiq edilir.".

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 26 fevral tarixli 62 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 365 (Cild I); 2024, № 1, maddə 80, № 9, maddə 1067) ilə təsdiq edilmiş "Sağlamlıq imkanları məhdud olan məktəbəqədər yaşlı uşaqların təhsilinin dövlət standartları"na aşağıdakı məzmunda 4.2-1-ci bənd əlavə edilsin:

"4.2-1. Xüsusi məktəbəqədər təhsil müəssisəsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 10 mart tarixli 68 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət və qeyri-dövlət uşaq müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə dair Tələblər" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri" nəzərə alınmaqla ona zidd olmayan hissədə tətbiq edilir.".

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 mart tarixli 85 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 3, maddə 519 (Cild I); 2024, № 9, maddə 1062) ilə təsdiq edilmiş "Peşə təhsilinin dövlət standartları"na aşağıdakı məzmunda 4.2-1-ci bənd əlavə edilsin:

"4.2-1. Peşə təhsili müəssisəsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 10 mart tarixli 68 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət və qeyri-dövlət uşaq müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə dair Tələblər" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri" nəzərə alınmaqla ona zidd olmayan hissədə tətbiq edilir.".

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 15 mart tarixli 101 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 3, maddə 535 (Cild I) ilə təsdiq edilmiş "Cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisələrində və xüsusi peşə təhsili müəssisələrində tətbiq edilən dövlət peşə təhsili standartları"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 4.2-ci bənddə "Peşə təhsili müəssisəsinin" sözləri "Cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisəsinin və xüsusi peşə təhsili müəssisəsinin" sözləri ilə əvəz edilsin;

4.2. aşağıdakı məzmunda 4.2-1-ci bənd əlavə edilsin:

"4.2-1. Cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisəsində və xüsusi peşə təhsili müəssisəsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 10 mart tarixli 68 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət və qeyri-dövlət uşaq müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə dair Tələblər" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri" nəzərə alınmaqla ona zidd olmayan hissədə tətbiq edilir.".

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 26 aprel tarixli 189 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 780 (Cild I); 2024, № 1, maddə 115) ilə təsdiq edilmiş "Xüsusi peşə təhsili müəssisələrinin Nümunəvi Nizamnaməsi"nə aşağıdakı məzmunda 5.7-1-ci bənd əlavə edilsin:

"5.7-1. Peşə təhsili müəssisəsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 10 mart tarixli 68 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət və qeyri-dövlət uşaq müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə dair Tələblər" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri" nəzərə alınmaqla ona zidd olmayan hissədə tətbiq edilir.".

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 iyul tarixli 270 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 1000 (Cild I); 2024, № 9, maddə 1067, № 11, maddə 1251; 2025, № 1, maddə 84) ilə təsdiq edilmiş "Ümumi təhsil müəssisələrinin növlər üzrə Meyarları"na aşağıdakı məzmunda 1.5-1-ci bənd əlavə edilsin:

"1.5-1. Ümumi təhsil müəssisələrində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 10 mart tarixli 68 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət və qeyri-dövlət uşaq müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə dair Tələblər" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri" nəzərə alınmaqla ona zidd olmayan hissədə tətbiq edilir.".

**7.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 8 fevral tarixli 75 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 2, maddə 207) ilə təsdiq edilmiş "Sağlamlıq imkanları məhdud olan şəxslərin təhsili üçün xüsusi təhsilin dövlət standartları"na aşağıdakı məzmunda 4.1-1-ci bənd əlavə edilsin:

"4.1-1. Təhsil müəssisəsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 10 mart tarixli 68 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət və qeyri-dövlət uşaq müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə dair Tələblər" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri" nəzərə alınmaqla ona zidd olmayan hissədə tətbiq edilir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 206** **Bakı şəhəri, 14 iyul 2025-ci il**

**"Tütün məmulatının idxalını və istehsalını həyata keçirən sahibkarlıq subyektlərinin Reyestrinin Əsasnaməsi"nin və "Tütün məmulatının idxalını və istehsalını həyata keçirən sahibkarlıq subyektlərinin qeydiyyata alınması, tütün məmulatının idxalını və istehsalını həyata keçirən sahibkarlıq subyektlərinin Reyestrinin aparılması Qaydası"nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Tütün və tütün məmulatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 24 may tarixli 1161-VIQD nömrəli Qanununun tətbiqi və "Tütün və tütün məmulatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 573 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 iyul tarixli 141 nömrəli Fərmanının 3.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Tütün məmulatının idxalını və istehsalını həyata keçirən sahibkarlıq subyektlərinin Reyestrinin Əsasnaməsi" təsdiq edilsin (əlavə olunur).

**2.** "Tütün məmulatının idxalını və istehsalını həyata keçirən sahibkarlıq subyektlərinin qeydiyyata alınması, tütün məmulatının idxalını və istehsalını həyata keçirən sahibkarlıq subyektlərinin Reyestrinin aparılması Qaydası" təsdiq edilsin (əlavə olunur).

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

3.1. Reyestrin formalaşdırılması, aparılması, fəaliyyətinin təşkili və inkişafı üçün zəruri tədbirlər görsün;

3.2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə Reyestrin Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hökumət buludu" (G-cloud) Konsepsiyası"na uyğun olaraq "Hökumət buludu"nda yerləşdirilməsi, aparılması və təkmilləşdirilməsi, habelə Reyestrin "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri"nə və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsi üçün tədbirlər görsün.

**4.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti bu Qərarın 1-ci hissəsi nəzərə alınmaqla, "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 210** **Bakı şəhəri, 15 iyul 2025-ci il**

**"Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Sosial sığorta haqqında" və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 8 oktyabr tarixli 44-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 8 noyabr tarixli 229 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Sosial sığorta haqqında" və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 8 oktyabr tarixli 44-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 8 noyabr tarixli 229 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 9 fevral tarixli 40 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 2, maddə 188 (Cild I); 2024, № 1, maddə 111; 2025, № 1, maddə 90) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarına görə verginin və məcburi dövlət sosial sığorta haqqının ödənilməsi xüsusiyyətləri, habelə "Fərqlənmə nişanı" və "Xüsusi fərqlənmə nişanı"nın tətbiq edilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.3-cü bənd üzrə:

1.1.1. birinci cümlədən "və yük" sözləri çıxarılsın və həmin cümləyə "Xüsusi fərqlənmə nişanı" sözlərindən sonra ", habelə yük daşımalarını həyata keçirən vergi ödəyicilərinə "Xüsusi fərqlənmə nişanı" sözləri əlavə edilsin;

1.1.2. ikinci cümlədən "və yük" sözləri çıxarılsın;

1.2. 2.1-ci, 3.3-cü, 3.8-ci və 3.9-cu bəndlərdən "və yük" sözləri çıxarılsın;

1.3. 2.2-ci bənddən (hər iki halda) "və ya yükgötürmə qabiliyyəti" sözləri çıxarılsın və həmin bənddə "göstəriciləri" sözü "göstəricini" sözü ilə əvəz edilsin;

1.4. aşağıdakı məzmunda 2.3-cü bənd əlavə edilsin:

"2.3. Yük daşımalarını həyata keçirən vergi ödəyiciləri tərəfindən vergi öhdəliyi Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş ümumi qaydada yerinə yetirilir. Fərdi qaydada (muzdlu işçi cəlb etmədən) avtomobil nəqliyyatı vasitəsi ilə yük daşıma fəaliyyəti üzrə "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 14.5.7-ci və 14.5.1-2-ci maddələrində nəzərdə tutulmuş qaydada məcburi dövlət sosial sığorta haqqı ödənilir.".

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatı"nın 1.1.4.3.1.4-cü və 1.1.4.3.2.2-ci yarımmaddələrindən "və yük" sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 211** **Bakı şəhəri, 15 iyul 2025-ci il**

**"Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nın və "İnformasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin "Elektron hökumət" portalına qoşulması üçün Texniki Tələblər"in təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 may tarixli 118 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Milli Məkan Məlumatları" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli 281 nömrəli Fərmanının 4-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 may tarixli 118 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 547 (Cild I); 2024, № 1, maddə 87, № 4, maddə 470, № 11, maddə 1263) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"na aşağıdakı məzmunda 3.2-ci bənd əlavə edilsin:

| | |
|---|---|
| 3.2. | "Milli Məkan Məlumatları" informasiya sistemi |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 212** **Bakı şəhəri, 15 iyul 2025-ci il**

**"Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 17 dekabr tarixli 250 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 4 iyun tarixli 177 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin proqram təsnifatı"na aşağıdakı məzmunda 12.1.3-cü yarımbənd əlavə edilsin:

| | | | | | |
|---|---|---|---|---|---|
| 12.1.3. | Dincə qoyulmuş torpaq subsidiyasının verilməsi | 09 | 01 | 01 | 031 |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 213** **Bakı şəhəri, 15 iyul 2025-ci il**

**"Bələdiyyələrin mülkiyyətində olan müəssisə və təşkilatların maliyyə və təsərrüfat fəaliyyəti göstəricilərinin qeydiyyata alınması qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 12 yanvar tarixli 3 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Bələdiyyələrin statusu haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 18 oktyabr tarixli 49-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 2 dekabr tarixli 238 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Bələdiyyələrin mülkiyyətində olan müəssisə və təşkilatların maliyyə və təsərrüfat fəaliyyəti göstəricilərinin qeydiyyata alınması qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 12 yanvar tarixli 3 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 74 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Adında və 1-ci hissədə "Bələdiyyələrin mülkiyyətində olan müəssisə və təşkilatların" sözləri "Bələdiyyələrə məxsus hüquqi şəxslərin" sözləri ilə əvəz edilsin.

**2.** Həmin Qərarla təsdiq edilmiş "Bələdiyyələrin mülkiyyətində olan müəssisə və təşkilatların maliyyə və təsərrüfat fəaliyyəti göstəricilərinin qeydiyyata alınması Qaydaları" üzrə:

2.1. adında və 1-ci hissənin birinci cümləsində "Bələdiyyələrin mülkiyyətində olan müəssisə və təşkilatların" sözləri "Bələdiyyələrə məxsus hüquqi şəxslərin" sözləri ilə, ikinci cümləsində isə "Müəssisə və təşkilatlar" sözləri "Hüquqi şəxslər" sözləri ilə əvəz edilsin;

2.2. 2-ci hissədə "bələdiyyələrin mülkiyyətində olan müəssisə və təşkilatlar" sözləri "bələdiyyələrə məxsus hüquqi şəxslər" sözləri ilə əvəz edilsin;

2.3. 4-cü və 5-ci hissələrdə "Bələdiyyələrin tabeliyində olan müəssisə və təşkilatlar" sözləri "Bələdiyyələrə məxsus hüquqi şəxslər" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 214** **Bakı şəhəri, 15 iyul 2025-ci il**

**"Uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının təşkili və aparılması Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 15 yanvar tarixli 5 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 626 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 dekabr tarixli 264 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 15 yanvar tarixli 5 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 1, maddə 66 (Cild I); 2024, № 1, maddələr 96, 110; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 17 aprel tarixli 113 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının təşkili və aparılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 3.2.3-cü yarımbənddən "və uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair iştirakçılar tərəfindən hər il yanvar ayının 15-dək Elektron Hökumət İnformasiya Sistemi (bundan sonra – EHİS) vasitəsilə təqdim edilmiş illik hesabatların toplanması və ya onlar tərəfindən bu hesabatların elektron kabinetləri vasitəsilə daxil edilməsi" sözləri çıxarılsın.

**2.** 3.2.4-cü yarımbənddə "EHİS-ə" sözü "Elektron Hökuümət İnformasiya sisteminə (bundan sonra - EHİS)" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.**

# Azərbaycan mediası milli azadlıq uğrunda mübarizədə



**70 illik sovet-kommunist rejiminin iflasa yuvarlanması 1917-ci ildə Rusiya imperiyasının süqutundan sonra olduğu kimi, bu dəfə də erməni millətçilərini Azərbaycana qarşı quduz bir ərazi iddiası ilə meydana atdı. SSRİ-ni parçalayıb dağıtmağa hazır olan imperialist dairələrin də açıq-gizli himayəsi ilə "xalqların qardaşlıq ittifaqı" can verməkdə olduğu bir dövrdə ayaq tutan bu düşmənçilik tezliklə irimiqyaslı zorakılıq aksiyaları və hərbi təcavüz xarakteri aldı.**



12 НОЈАБР 1988-чи ИЛ.

«Коммунист», №263

Һәјәчанлы сәтирләр

## ТОПХАНАНЫН ҺАРАЈЫ

Топхана мешәсини гырырлар! Доғрусу, көзүмүзлә көрә-көрә бу һадисәјә инанмағымыз кәлмир. Она көрә јох ки, еколокијанын өлүм-дирим проблеминә чеврилдији бир вахтда мешәни гырмаг икигат чинајәтдир. Бизи гәзәбләндирән будур ки, Топхана мешәси төкчә шушалылар, гарабағлылар үчүн дејил, һәм дә бүтүн Загафгазија халгларындан өтрү мүгәддәс, тарихи абидәдир. Ону да дејәк ки, һәм Шуша галасынын, һәм дә онун зүмрүд чәтири олан Топхананын ады јаделли ишғалчылара гаршы биркә мүбаризә тарихи илә бағлыдыр. Мешә дәр ајагда һәм халгларымыза сығнаг олмуш, мејвәләри илә әһалинин дадына чатмышдыр. Топхананын тарихи вә еколожи әһәмијјәти барәдә данышмагла гуртаран дејил. Гарабағда јашајан азәрбајчанлылар, ерменилер көзәл билирләр ки, Топхана мешәси надир ағачларын, дәрман биткиләринин, ән нәһајәт, ше'рләрдә, маһнылара васф олунан, Јер үзүндә јалныз бурада битән әфсанәви Харыбүлбүл чичәјинин јеканә мәскәнидир. Биз һәлә ону демирик ки, Топхана мешәсинин јаратдығы саф иглим Үмумиттифаг курорту олан Шушанын, елэчә дә бурада истираһәт едән хәстәләрин надир мәлһәмидир. Тәбиәтә әл галдыранлар билмәлидирләр ки, онлар төкчә ағача әл галдырмыр, һәм дә Совет Иттифагынын һәр јериндән кәлән гонагларын сағламлығына гәсд едирләр. Ачынаҹаглы бурасыдыр ки, бу илин ијун ајындан шәфа мәнбәјинин мәһвинә јөнәлән инсафсыз чәһдләрә ара верилмир. Республика Тәбиәти Мүһафизә Комитәсинин ики дәфә чидди хәбәрдарлығына, һәтта вилајәт прокурoруна көндәрилән сәнәдләрә бахмајараг, Топхана мешәсинин амансызчасына гырылмасы дајандырылмыр. Нечә һектар саһә нәһәнк булдозерләрин чәнкинә верилиб. Ағачлар көкүндән чыхарылыр. Јерләри һамарланыр. Баш вермиш бу чинајәтә сәбәб надир? Мешәни нәјин наминә мәһв едирләр? Чыдыр дүзүнүн гәншәриндә нә мәгсәдлә үрәк буландыран мәнзәрә јарадырлар?

Әскәран рајон рәһбәрләринин изаһы беләдир: «Бурада Ермәнистан ССР-ин алүминиум заводларындан бири сех вә пансионат тикәчәкдир».

Белә ағласығмаз ишин республикамызын башы үзәриндән корүлмәси ганунла бир араја сығмыр. Икинчиси, әкәр Енкелс адына колхоз үчүн сех вә пансионат тикмәк (?!) лазымдырса, башга мүнасиб јер тапмаг олмазмы?

Прокурорлуғун мөвгеји дә тәәччүб доғурур. Азәрбајчан ССР Тәбиәти Мүһафизә Комитәсинин тәләбләриндән сонра прокурорлуг һәлә ишдә чинајәт тәркиби тапмамышдыр. Һаглы олараг сорушуруг: тапмамышдыр, јохса тапмаг истәмәмишдир?

Ичтимаијјәтин һаглы е'тиразларына бахмајараг, сон күнләр Топхана мешәсинин мәһви даһа да кенишләнмишдир. Булдозерләр чәмән гатына, надир чичәкләрин мәскәнинә, торпаға, хүсусән курорт микроиглиминә зәрбә вурур. Ачығыны дејәк ки, бу төкчә тәбиәтә гаршы барбарлыг дејил, ејни заманда халгларымызын тарихи кечмишинә, зөвгүнә, руһуна гаршы гәсддир.

Кәләчәк нәсилләр буну һеч кәсә бағышламаз!

**Вагиф ӘМРАҺОВ — Шушадакы 92 нөмрәли тикинти идарәсинин ишчиси, Азәрбајчан ССР Али Советинин депутаты, Ашхен ГРИГОРЈАН — механикләшдирилмиш чөрәкхананын илк партија тәшкилаты катиби, Аршавир ДАНИЕЛЈАН — шәһәр мәнзил истисмары идарәсинин чилинкәри, Пелакеја ТРОЈАНОВА, Лјубов ПОПОВА, Раиса РАТУШНАЈА — «Шуша» ушаг санаторијасынын ишчиләри, Илһами ЧӘФӘРОВ, Намиг БАБАЈЕВ — филолокија елмләри намизәдләри, Хәлил БАБАЈЕВ — әмәк ветераны, Әли МАҺМУД — «Шуша» гәзетинин редактор муавини, Фирудин РӘСУЛОВ — «Коммунист»ин хүсуси мүхбири.**

*Редаксијадан:*

**Гәзет чапа имзаланаркән алдығымыз мө'тәбәр мә'лумата көрә, Ермәнистан һөкумәти рәһбәрлијинин көстәриши илә Назирләр Советинин сәдр муавини вә јухарыда ады чәкилән заводун директору Топхана тикинтисини дајандырмагла бағлы мәсәләни һәлл етмәкдән өтрү бу күн Степанакертә кәләчәкләр.**

Tarixi baxımdan gözlənilən, hələ mövcud olan sovet gerçəkliyi şəraitində isə gözlənilməz olan bu hadisələr tezliklə Azərbaycanda ictimai-siyasi, mənəvi-məfkurəvi reaksiya olaraq öz taleyinə sahib çıxmaq istəyi və coşğusu ilə cavablandırıldı. Xalq meydanlara axışdı, imperiya rəhbərliyinin gözləmə mövqeyinə qarşı qiyam qaldırdı. Ermənistanın heç nəyə məhəl qoymadan Qarabağın dağlıq hissəsində özbaşınalıqlara başlaması Azərbaycan xalqının milli mənliyinin tapdalanması kimi qarşılandı.

1988-ci ilin noyabrında Şuşanın Topxana meşəsində erməni baltalarının səsinin "Topxana harayı"na çevrilərək xalqımızı Azadlıq meydanında çoxgünlük möhtəşəm etiraz mitinqlərinə çıxarması artıq sovet rejiminə qarşı etimadsızlıq və milli dirçəliş siqnalı oldu. Ermənistanın Azərbaycanın daxilində və kənarında xalqımıza qarşı törətdiyi qanlı terrorlar ərazilərimizə hərbi basqılara çevriləndə isə xalq sovet rejiminin son nəfəsdə ermənipərəst mövqe ilə zəhərləndiyinə tam əmin oldu.

Yerli sovet idarəçiliyi xalqın bu qəti və kütləviləşmiş mövqeyi qarşısında çökəndə Mixail Qorbaçov diktaturası ölkəmizdə ömrünü uzatmaq üçün 1990-cı ilin 20 yanvarında Bakını və ölkənin fəal bölgələrini qanlı aksiyalarla işğal etdi. Bu, Azərbaycanda ümumxalq azadlıq hərəkatını alovlandırdı. 70 illik kommunist zorakılıqlarını pərdələmiş, gizlətmiş sovet mediasının Azərbaycan yayımları azadlıq mübarizəsinə çevrilmiş bu hərəkatda ilk gündən xalqımızın, vətənimizin maraqları ilə qoşa addımladı.

Müstəqillik dövründə bütün bunlar barədə Milli Məclisin deputatı Cavanşir Feyziyev "Xalq qəzeti"ndə çap edilmiş "20 Yanvar – əsarətin son gecəsi" məqaləsində yazırdı: "Soyuq 20 Yanvar səhəri açılmağa macal tapmamış bəşər tarixinin insanlığa sığmayan ən faciəvi hadisələrindən biri – Bakı küçələrində dinc nümayişçilərin güllələbaranı baş verdi. Azərbaycana, nəyin bahasına olursa-olsun, milli mücadiləni boğmaq və yatırtmaq məqsədi ilə yeridilən rus qoşunları Bakıda və respublikanın müxtəlif rayonlarında 146 nəfər mülki şəxsi küçələrdə, evlərində, avtomobillərində, iş yerlərində qətlə yetirdi, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs olundu".

Yanvarın 19-da hərbi əməliyyatın ilkin mərhələsi kimi Azərbaycan Televiziyasının enerji bloku partladılmış, respublika Televiziyası və Radiosunun verilişləri tamamilə kəsilmişdi. Kütləvi informasiya vasitələrinin fəaliyyəti dayandırılmış, xalq informasiya almaq hüququndan məhrum edilmişdi. Dövlətin rəsmi orqanı olan "Kommunist" qəzetinin növbəti sayı 18 yanvardan sonra bir də 27 yanvar 1990-cı ildə nəşr olunmuşdu. Qəzet doqquz gün çap edilməmiş, bu müddətdə 20 Yanvar faciəsi barədə xalqa heç bir rəsmi məlumat verilməmişdi.

Faciənin miqyası ilə bağlı ilk xəbər verən "Kommunist" qəzetinin əlavəsi "Səhər" qəzeti idi. Baş redaktorun müavini olan mərhum Məzahir Süleymanzadə yazırdı: "Kommunist" qəzetinin kağız ehtiyatından yararlanmaqla 2 milyon tirajla nəşr olunan "Səhər" dinc əhaliyə açılan atəşləri, uşaqların, qadınların və yaşlıların meyitləri əks olunmuş fotoları dərc etməklə əhalini informasiya blokadasından azad etdi".

Amma milli mücadilənin girdabında boğulan sovet rəhbərliyi ideoloji inhisar siyasətindən əl çəkməyərək tabeliyində olan KİV vasitəsi ilə 1990-cı ilin iyulunda çağırılan Sov.İKP-nin sonuncu – XXVIII qurultayının yeni "ideallar"ını cəmiyyətə təqdim edirdi. Şübhəsiz ki, qurultaya tərəddüdlərlə getmiş Azərbaycan kommunistləri bu "ideallar"a etirazlarını gizlətmirdilər.

Qurultay nümayəndəsi, o dövrdə respublika Qadınlar Şurasının sədri olmuş professor Zemfira Verdiyeva "Kommunist" (indiki "Xalq qəzeti") qəzetində yazmışdı: "SSRİ-də prezident hakimiyyətini təsis etmək ideyasını irəli sürəndə bunu onunla əsaslandırdılar ki, yeni hakimiyyət formasına daha böyük dinamik qətiyyət, operativlik vermək lazımdır. Qonşu respublikada (Ermənistan) qəsbkarlıq niyyətləri güdən, konstitusiyaya zidd ordu təşkil edilməsini necə başa düşmək olar?! Ölkənin hər hansı sakini cib bıçağı üstündə soyuq silah gəzdirmək adı ilə məhkum edildiyi halda, bu terrorcu təşkilatın gücü və qüdrəti mərkəzi televiziya ilə nümayiş etdirilir, hətta bəzi qəzetlərdə tariflənir".

"Kommunist" qəzetinin qurultayın gedişindən materiallar hazırlamaq üçün Moskvaya ezamiyyətə göndərilmiş müxbiri Elman Qədirov isə "Kremlin təzadları" məqaləsində yazırdı: "Qurultay qalın meşədə kompassız hərəkət edən yolçuya bənzəyir. Gah işıq gələn tərəfə gedir, gah tüstü çıxan tərəfə. Düzgün yol isə hələ tapılmayıb".

Azərbaycan Kommunist Partiyasının yeniləşdirilməsi yolu ilə respublikanın siyasi və iqtisadi inkişafının yeni səviyyəyə yüksəldilməsini "təmin edəcək" Azərbaycan kommunistlərinin XXXII qurultayı, Sov. İKP qurultayının yekunları və respublika partiya təşkilatının təxirəsalınmaz vəzifələrindən danışan Azərbaycan KP MK-nın birinci katibi A.Mütəllibovun çıxışı Sov.İKP nizamnaməsinə sadiqlik nümayiş etdirməkdə idi. Amma mətbuatın dərc etdiyi bəzi məqalələrin məzmununa diqqət edəndə tam başqa mənzərəyə də şahidlik edirik.

Bu sırada kommunist rejiminin tədqiqatçısı, uzun illər rəhbər vəzifələrdə çalışmış tarix elmləri doktoru Kamran Rəhimovun "Yenidənqurmanın dialektikası" məqaləsi diqqət çəkir: "Bəzən bizi işin düz getməməsində, cəsarətsizlikdə, ikili mənəviyyatda təqsirləndirirlər. Əlbəttə, söhbət kimin haqlı, kimin haqsız olduğundan getmir. Onu demək lazımdır ki, onillərlə biz yalan və qorxu şəraitində yaşamışıq. Sosializm haqqında Lenin nəzəriyyəsinə yenidən baxılmalıdır".

Göründüyu kimi, günün "yenidənqurmasına və yeniləşməsinə" bəraət qazandırmaq niyyəti ilə kommunist rejiminin dünəninə qiymət verən kommunist müəlliflər bəzən bilərəkdən, bəzən də bilməyərəkdən rejimin mahiyyətini ortaya qoyurlar. Bu yazılarla yanaşı, milli ruhun və milli tarixin yüksəlişini təbliğ edən, tariximizin şərəfli səhifələrini gündəmə gətirən və mətbuada dərc edilən məqalə və yazıların sayı da onlarca olmuşdur.

Milli tariximiz və istiqlalçı yaddaş haqqında mətbuatımızda getdikcə artıb çoxalan "Azərinform"un böyük qardaşı", "Azərbaycan Demokratik Respublikası", "Demokratik respublikaya həsr edilir", "Təkamül" qəzetinin baş redaktoru" "Beş hürriyyət", "Xatirə lövhəsi açılmışdır", "Respublika Azərbaycan milli dövlət quruluşunun dirçəliş gününü bayram edir", "Böyük Əkinçi. Yaxud unudulmuş Həsən bəy Zərdabi", "Tağıyev H.Z.: sahibkar, mesenat. Tarix elmləri doktoru Marat Allahverdiyevin kitabı haqqında", "Azərbaycan xanlıqları. Dəyirmi masa", "Folklorumuzun fədailəri", "Orta əsr Azərbaycan dövlətləri. Dəyirmi masa" kimi nəşrinə uzun illər çox möhkəm qadağalar qoyulan mövzuların qarşısını nə kommunist rəhbərlik, nə redaktorlar, nə də senzura ala bilmirdlər. Bir sıra hallarda onlar heç bunu istəmirdilər də. Bu xalq hərəkatının qarşısıalınmaz axarında mümkün də deyildi.

Əslində, bu "qiyamçı" yazılar"ın məzmun və mənasına, bir də müəlliflərin kimliyinə diqqət edəndə görünür ki, xalqın ziyalıları çox şeyləri bilirmiş. Sadəcə, həqiqətlərin söylənməsi mümkün olmayıb, olanlar da ciddi senzura nəticəsində həyata vəsiqə ala bilməmişdir.

Milli mücadilənin güclənməsi Azərbaycan mətbuatında daha çox Türkiyə ilə əlaqəli yazıların artımı ilə də müşayiət olunub. Onda ölkə mətbuatı üçün Türkiyə mövzusu bir nömrəli məsələ kimi diqqəti cəlb etməkdə idi. Bu dövrdə də türkdilli ölkələrin kütləvi informasiya vasitələrinin, xüsusilə mətbuatının apardığı araşdırmalar adət-ənənələrimiz və müştərək tariximiz haqqında bilgilərimizin genişləndirilməsində və türk dünyasının inteqrasiya yollarının axtarılıb tapılmasında mühüm rol oynayırdı.

Bu dövrdə mətbuat yeni mövzular ortaya qoysa da, hələ də bütün nəşrlər dövlətə bağlı idi, yəni nəşr olunan qəzet və jurnallar mütləq mənada hansısa bir dövlət təşkilatının nəşri kimi təqdim olunurdu. O, başqa məsələ idi ki, bu nəşrlərdə yeni əhval-ruhiyyənin, milli çağırışların yer tapması həm dövrün tələbi, həm də vətənpərvərlik mövqeyindən yeni idi. "Gənclik" – "Molodost" (baş redaktor Məmməd İsmayıl) respublika komsomolunun jurnalı olsa da, ətrafında yeni dövrün havası ilə yüklənmiş, milli ruhun öndə dayanan müəllifləri toplamaqla, həm də cəmiyyətin aparıcı gücü olan böyük bir gənclik ordusunu birləşdirməkdə idi. Yaxud "Vətən" cəmiyyətinin nəşri olan "Odlar yurdu" qəzeti (redaktor Ramiz Əskər) dünya azərbaycanlılarının birliyinə dair ciddi çağırışlar səsləndirməkdə idi. Bu kimi meyillər partiya-sovet mətbuatının dəst-xəttində və mövzu seçimində də özünü göstərməkdə idi.

Bu baxımdan mətbuatın, eləcə də ölkənin baş mətbu orqanı "Kommunist" qəzetinin müstəqillik ərəfəsində nəşr olunan saylarında Türkiyə mövzusu aktuallıq baxımından diqqəti cəlb etdiyi kimi, həm də xarici ölkə həyatından dərc edilən məqalələr sırasında say etibarı ilə ən çox diqqət çəkənidir. Az bir zaman kəsiyində bu mövzuda dərc edilən yazıların sayı belə kifayət qədərdir: iki ildə (1990 və 1991-ci illər) 345 yazı. Mövzu və janr rəngarəngliyi ilə seçilən bu yazılar təkcə statistikası ilə yox, həm də müəlliflərin hiss və duyğularının türk dünyasına məhəbbət və doğmalığı ilə maraq oyada bilir. Hətta bu mövzuda təqdim olunan rəsmi xəbərlərdə belə bunları sezməmək mümkün deyil.

Qardaş Türkiyənin adının keçdiyi və mətbuatda dərc edilən bu yazılar, janrından, üslubundan, mövzusundan asılı olmayaraq, uzun illər ayrı düşmüş xalqlarımızın milli mədəni bağlılıqlarını ortaya qoyan nümunələrdir. Bu yazılarda təkcə ayrı-ayrı fərdlərin yox, yaşından və zümrəsindən asılı olmayaraq bütün xalqın, eləcə də müstəqillik mücadiləsinə qalxan insanların (əslində, o vaxtlar buna inananlar çox az idi), daha çox xalqlarımızın doğma münasibətlərinin ifadəsi və tərənnümü hiss olunmaqdadır.

Mətbuatın yaratdığı bu mənəvi körpü gələcək əlaqələrin qurulmasında təməl kimi də qəbul edilə bilər. Ola bilsin ki, hansısa bir məsələdə o dövrkü hakimiyyətin mövqeyində xalqın fikirləri ilə müəyyən ayrılıqlar olsun və sonralar göründü ki, bu, var idi. Amma Türkiyə ilə belə bir fakt diqqətdə olmasa da, olanlar da elə ciddi və prinsipial mövqe nümayişi olmadığından heç vaxt gündəmə təsir etməmiş və ciddiliyi ilə də gündəmdə olmamışdır.

Azərbaycanın SSRİ-nin tərkibində olduğu illərdə Türkiyə rəsmilərinin – dövlət və hökumət adamlarının Moskvaya rəsmi səfərləri çərçivəsində, birmənalı olaraq, Azərbaycana səfərlər də planlaşdırılmış və demək olar ki, bu səfərlər uğurla baş tutmuşdur. Keçən əsrin 60-cı illərindən başlayan bu səfərlərdə Bakı ziyarətləri də önəmli yer tutmaqla, təkcə ümumittifaq deyil, eləcə də respublika mətbuatının işıqlandırdığı mövzulardan olmuşdur.

Düzdür, respublika mətbuatı bu məsələləri müəyyən qadağa və hədlər çərçivəsində işıqlandırsa da, hər halda rəsmi xarakterli bu təqdimatların özündə belə qardaşlıq münasibətlərindən doğan mənəvi bağlılıqları asanca görmək olur. Azərbaycanın müstəqilliyi ərəfəsində isə bu münasibətlərdə daha ciddi yaxınlaşmalara və əlaqələrin genişlənməsinə şahidlik edirik. Türkiyənin Moskvadakı fövqəladə və səlahiyyətli səfiri V.Vuralın 16 yanvar 1991-ci ildə, ardınca Türkiyə Prezidenti Turqut Özalın 13 mart 1991-ci ildə Moskva, sonra da Bakı səfərləri və Bakıda Türkiyə konsulluğunun fəaliyyətə başlaması, baş konsulun Azərbaycanın dövlət başçısı tərəfindən qəbulu Azərbaycan–Türkiyə münasibətlərində yeni mərhələnin başlandığının müjdələri idi.

Göründüyu kimi, artıq bu məsələ dövlətlərarası münasibətlərdə də özünü göstərir və siyasi dairələrin gündəmini müəyyən edirdi. Çox sonralar eks-prezident Ayaz Mütəllibov Türkiyəyə ilk səfərini xatırlayaraq deyirdi: "Bəxtiyar da (Bəxtiyar Vahabzadə) məni müşayiət edən böyük nümayəndə heyətinin tərkibində idi. Bizim heyətin hərarətlə qarşılanmasından təsirlənən şair dedi: "Kaş biz öz müstəqil dövlətimizi təmsil edəydik". Cavab verdim ki, darıxma, gün gələr, bunu da görərik! O vaxt mən Nazirlər Kabinetinin sədri idim".

Artıq zaman yeni hökmlərini diktə etməkdə, bu sırada isə Sovetlər Birliyinin yaxınlaşan süqutu görünməkdə idi. Amma Azərbaycana, eləcə də SSRİ tərkibində olan digər türk respublikalarına milli münasibətlərin və onların gələcək müqəddəratlarının təyinində dəstəyin gözləniləndən aşağı səviyyədə olması da diqqəti cəlb edirdi. Bu, əslində, ölkədəki millətçilərin önəmli mövqeyi olsa da, Turqut Özal Türkiyəsi daha çox iqtisadi, ticari və mədəni əlaqələrin qurulmasına, dövlətlərarası münasibətlərin bu yöndə inkişaf etdirilməsinə çalışırdı.

Təbii ki, NATO üzvü olan bir dövlətin başqa istiqamətdə siyasət aparmasını gözləmək də reallıqlara sığası fakt deyildi. Amma maraqlıdır ki, istər Türkiyədəki bəzi millətçi qüvvələr, istərsə də bu qüvvələrin dəstəyinə arxalanan və ondan ruhlanan xalq kütlələri bu dəstəyi ummaqda idi. Burada milli-tarixi bağlılığın və qardaşlıq çağırışlarının rolu danılmaz olduğu kimi, təsiri də qaçılmaz idi. Hətta Azərbaycana vaxtilə – XX əsrin əvvəllərində edilən hərbi kömək, Nuru paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusunun tarixi xilaskarlıq missiyası 80-ci illərin sonunda və 90-cı illərdə uşaqdan-böyüyədək, az qala, hər kəsin danışdığı və qardaş Türkiyədən umduğu böyük köməyin bir nömrəli mövzusu idi.

Amma xalqdan uzun illər gizlədilən və ya işğal tarixi kimi təqdim edilən bu tarixin kökündə nələrin dayandığını bəzi siyasətçi və tarixçilərdən başqa dərindən bilən yox idi. Ona görə ki, sovet təbliğat sistemi Azərbaycan–Türkiyə münasibətlərinin bütün tərəflərini "ustalıqla" təhrif etmiş, bu sahədə bütün imkanlardan bəhrələnmişlər. Hətta erməni-bolşevik basqıları önündə qırğınlara məruz qalıb, az qala bir millət kimi varlığını itirmək təhlükəsi ilə üzləşəndə Azərbaycan türklərinin çağırışı ilə köməyə gələn Osmanlı ordusu və Azərbaycan könüllülərinin yaratdığı İslam Ordusu işğalçı və təcavüzkar kimi dəyərləndirilmiş, bu iftiralara etiraz edənlər isə repressiya qurbanları olmuşlar.

Milli dirçəlişin yenidən oyandığı bir vaxtda Azərbaycan Respublikası 1991-ci ilin avqustunda dövlət müstəqilliyini elan edir. Amma oktyabrın 18-də tanınan, yeri gəlmişkən qeyd edək ki, ilk dəfə məhz Türkiyə tərəfindən tanınan bu müstəqillik Azərbaycanın müasir beynəlxalq münasibətlər sisteminə inteqrasiya olunmuş, beynəlxalq imic qazanmış və suverenliyini qorumağa qadir bir dövlət olduğunu dünyaya göstərə bilmişdi. Müstəqilliyinin ilk günlərindən Azərbaycanın xarici siyasət xəttində də Türkiyə və türkdilli ölkələrlə əməkdaşlığın qurulması xüsusi diqqətdə olmuşdur.

Şübhəsiz ki, cəmiyyətin ictimai-siyasi həyatında baş verən qabarma və çəkilmələr milli mətbuatımızın diqqətində olmaqla, onların dövrülüyünə, məzmun və ideya qayəsinə də təsirsiz ötüşməmişdir. Azərbaycanın ikinci müstəqilliyinə qovuşduğu ərəfədə respublika mətbuatında Türkiyə mövzusu gündəlikdə duran önəmli mövzulardan olmuşdur. Ən önəmlisi, bu materiallar artıq redaksiyaya Moskvadan gəlmirdi. Bu fakt özü də qəzet materiallarını rəsmi çərçivədən çıxarmış, jurnalist sənətkarlığı baxımından da zəngin bir spektr yaratmışdır.

Əgər vaxtı ilə qəzet səhifələrində Türkiyə haqqında olan məqalə və təqdimatlar ancaq rəsmi materiallar idisə, artıq bu ənənə qırılmışdı, müəllif yazılarının, zarisovka, reportaj, müsahibə kimi jurnalistika janrlarının yer aldığının da şahidi oluruq. Ən başlıcası isə Türkiyə haqqında dərc edilən rəsmi xəbərlərdə belə tarixdən qaynaqlanan qardaşlıq ənənələrinin təqdimatının, demək olar ki, bütün yazılarda yer alması idi. Bu yazılarda milli ruh, tarixi köklərə bağlılıq özünü daha bariz şəkildə göstərirdi.

Respublika mətbuatında müstəqillik ərəfəsində Türkiyə və türk dünyası haqqında onlarca material dərc edilmiş, ictimaiyyətin türk dünyasına olan sevgisi açıq mövzuya çevrilmişdi. Aradan keçən illər bu əlaqələri daha da zəruri etmiş və bu gün də mətbuatda Azərbaycan–Türkiyə mövzusu aktuallığı ilə seçilən və diqqət mərkəzində olan bir nömrəli mövzu kimi ən önəmli yeri tutmaqdadır.

*Namiq QƏDİMOĞLU,*
*fəlsəfə doktoru*
*XQ*

# Həsən bəy Zərdabi milli ideala xidmət örnəyidir

**1907-ci il noyabrın son günlərində Azərbaycanın mədəni mərkəzinə çevrilməkdə olan Bakı mətəm əhvalına bürünmüşdü. Milli ziyalıların atası sayılan Həsən bəy Zərdabinin xalqın oyanışı və mədəni tərəqqisi yolunda şam kimi əritdiyi ömrü son şöləsini saçıb sönmüşdü...**



Abdulla Şaiqin həmin günlərdə böyük sevgi ilə "həqiqi xalq xadimi" adlandırdığı misilsiz bir milli mücahidin cənazəsi başında onun amal və əməl yetirmələrindən Əli bəy Hüseynzadə demişdi: "Aləmi-islam bir qaranlıq içərisində qaldığı zaman bu adam əlinə məşəl alıb qaranlığı işıqlandırmağa çalışmışdır. O məşəl nə idi? Əvvəlinci mətbu kəlam idi".

1875-ci il iyulun 22-də işıq üzü görmüş həmin "əvvəlinci kəlam" artıq sönməz bir işığa dönüb xalqımızın qarşıdakı istiqlal yoluna işıq salırdı. Bu işığın əzəl şamı sönsə də, artıq işıqlanmış düşüncədə məşələ çevrilmişdi. Elə buna görə də Azərbaycan parlamentarizminin ilk spikeri, Rusiya türk-müsəlmanlarının lideri Əlimərdan bəy Topçubaşov sonralar öz mənəvi atasını "Azərbaycanın mayakı" adlandırmışdı.

Qafqaz türklərinin Rusiya işğalı altına düşməsi sonrakı 1 əsrdə Azərbaycan dövlətçiliyinin bərpasını hədəfə alan milli idealın yaradılması və istiqlal məfkurəsinə çevrilməsi prosesini doğurmuşdur. Yeni tipli məktəbin, milli teatr və anadilli mətbuatın yaradılması bu təbii-tarixi prosesə yön və nizam verilməsində, milli kimliyə sahib çıxacaq ziyalılar nəsli yetişdirilməsində həlledici rol oynamışdır.

Bu tarixi zərurətin gerçəkləşdirilməsi Mirzə Şəfi Vazehin, Abbasqulu ağa Bakıxanovun və Mirzə Fətəli Axundovun maarifçilik fəaliyyətindən qaynaqlanan milli idealı zehni-nəzəri çevrədən əməli-təcrübi məcraya yönəldən, həqiqi xalq xadimi kimi tarixi şəxsiyyətin yeni örnəyini yaradan Həsən bəy Məlikov Zərdabinin adı ilə bağlıdır.

Həyatını, ikiyə bölünmüş Vətəninin quzeyində dövlətçiliyini itirmiş, yox olmağa məhkum edilmiş xalqının nicatı işinə həsr etmiş Zərdabinin əməlləri və zəngin zəka irsi sağlığında və ölümündən sonrakı bir əsrdən artıq müddətdə milli-mədəni geriliyin aradan qaldırılması və azərbaycançılıq məfkurəsinin istiqlal məramnaməsinə çevrilməsi işinə xidmət etmişdir. Həsən bəyin bənzərsiz həyatı və müqəddəs mübarizəsi isə zaman-zaman xalq işinə xidmətin mükəmməl timsalı olaraq qəbul edilmişdir.

Çoxcəhətli fəaliyyəti, banisi olduğu elmi-mədəni çalışma yönləri ilə XIX əsrlə XX yüzillik arasında körpü yaratmış, sosial təkamülçü olmuş Zərdabi milli oyanış, demokratik təşəkkül və ümumi tərəqqi tariximizin öndəri, yeni ziyalılar nəslinin atası mərtəbəsinə yüksəlmişdir. Zəkası, qələmi və həyatda yaratdıqları ilə nadir irs qoyub getmiş Həsən bəy Zərdabi dövrünün əhatəli bioqrafiyasını yaratsa da, təəssüf ki, əhatəli xatirə yazmaması ilə mənalı ömür yolunun bir çox izlərini ötənlərin pərdəsi altında buraxıb getmişdir.

Nə yaxşı ki, mədəni tariximizə ilk milli ziyalı ailəsi kimi düşmüş zərdabilər və doğmaları, Həsən bəyin yetirmələri və zərdabişünaslar zamanında Zərdabi xatirəsinə və irsinə istinadla bu pərdəni yırtaraq böyük xalq xadiminin əhatəli bioqrafiyasını yaratmış, fəaliyyətini dərindən tədqiq etmişlər. Həsən bəyin məktubları və bir sıra məqalələri də bioqrafik səciyyəsi ilə onun ömür yolunun ayrı-ayrı səhifələrinə işıq salır. Xatirələrdə, mətbuat səhifələrində, tarixi sənədlərdə, məqalə və elmi araşdırmalarda əksini tapmış bu materialları yeni əlifba ilə nəşr etmək, toplular halında oxuculara çatdırmaq çağdaş nəsilləri milli idealın formalaşması tarixi ilə tanış etmək baxımından gərəklidir.

Zərdabinin öz millətinə xidmət nümunəsi ölümündən sonrakı illərdə milli-mədəni dairələrdə yüksək tutulsa da, təşviq olunsa da sovet zamanında hakim ideoloji tələblə Həsən bəyin ömür yolu və irsi "ifrat milliliyi" ilə təhlükəli sayılmış, qadağa və unutqanlıq çevrəsinə salınmışdır. Stalinizmin iflasından sonra milli varlığımıza bağlı ziyalılar (Heydər Hüseynov, Firidun Köçərli, Cəlal Məmmədov, Abbas Zamanov, Mirəli Axundov, Ziyəddin Göyüşov, Zaman Məmmədov, Şirməmməd Hüseynov, Vəli Məmmədov, İzzət Rüstəmov və s.) Zərdabinin həyat və fəaliyyətini müxtəlif yönlərdən öyrənməklə onun adını və irsini yenidən işığa çıxarmışlar.

Həsən bəy Zərdabi şəxsiyyətinin nadir kimliyini sonrakı nəsillərə çatdırmaqda onun ailə üzvlərinin – həyat yoldaşı və silahdaşı Hənifə xanım Abayeva-Məlikovanın, qızı Qəribsoltan xanım Məlikovanın və kürəkəni, qızı Pərisoltan xanımın həyat yoldaşı Əlimərdan bəy Topçubaşovun xatirələri çox qiymətli mənbələrdir. Həsən bəyin bioqrafiyasını canlı şəhadətlə yaradan bu xatirələr rus dilində yazıldığından və diqqətdən kənarda qaldığından uzun illər geniş oxucu kütləsi onlardan istifadə edə bilməmişdir. Son illərdə Söz Azadlığını Müdafiə Fondunun dəstəyi ilə bu xatirələr və digər bioqrafik materiallar toplular şəklində çap olunmuşdur.

Zərdabinin doğum ili barədə müxtəlif tarixlərin mövcudluğu bu vaxtadək onun yubileylərinin keçirilməsinə mane olmuşdur. Ötən onilliklərdə 1837 və 1842-ci il tarixləri əsas götürülməklə elmi-mədəni dairələr 5-10 ildən bir Həsən bəyi yada salıb müxtəlif tədbirlər keçirsə də, bunlar rəsmi yubiley miqyası almamışdır. Nəhayət, bu il, mübahisəli sayılsa da, Həsən bəyin öz qələmindən çıxdığına görə əsaslı sayılmış 1842-ci il tarixini qəbul etməklə, Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə milli teatrın və mətbuatın banisinin 170 illik yubileyin ölkə miqyasında təntənəli surətdə qeyd olundu. Yubiley münasibətilə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə hazırlanmış "Həsən bəy Zərdabi xatirələrdə toplusunda ölməz ustadımız barədə qiymətli tarixi materiallar toplanmışdı.

Bu topluda əsas yeri Həsən bəyin ailə üzvlərinin xatirələri tutub. Bu xatirələrlə sıx bağlı olduğuna və onları tamamladığına görə H.Zərdabinin M.F.Axundovla məktublaşmaları, "Əkinçi", "Kaspi" və "Həyat" qəzetlərində dərc olunmuş məfkurəvi və bioqrafik yüklü məqalələri toplunun əvvəlində yer alıb.

Həsən bəy Zərdabinin istedadlı yetirmələrindən biri, ölümündən sonra onun ilk bioqrafı olmuş görkəmli pedaqoq-publisist Fərhad Ağazadə Şərqlinin 1925-ci ildə "Əkinçi" qəzetinin 50 illik yubileyi münasibətilə yazdığı "Həsən bəy Məlikov-Zərdabinin tərcümeyi-halı" oçerki elmi-bioqrafik tutumuna görə kitabda geniş ön söz kimi nəzərə çarpır.

Böyük Həsən bəyin 1907-ci ildə ölümü və ümumxalq matəminə çevrilmiş dəfni barədə dövri mətbuatda çap olunmuş yazılar bioqrafik dəyərinə görə sonrakı bölmədə verilib. Tanınmış zərdabişünasların araşdırmalarının xronikal səhifələri kitaba salınmaqla görkəmli demokratın ömür yolu barədə təsəvvürləri dolğunlaşdırıb. Topluya Həsən bəy Zərdabi və ailəsi barədə əldə olan fotoşəkillər də daxil edilib.

Həmin kitab materialların zənginliyi və gərəkliyi ilə bu vaxtadək Həsən bəy Zərdabi barədə buraxılmış bioqrafik kitablardan xeyli seçilmiş və "milli ziyalılarımızın atası"nın müstəqillik dövründə ilk dəfə keçirilmiş yubileyinə dəyərli töhfə olmuşdu.

**Tahir AYDINOĞLU,**
**Əməkdar jurnalist**
**XQ**

# MEDİA cəmiyyəti rəsmi mənbələrin informasiyasına inanmağa çağırıb

**Medianın İnkişafı Agentliyi sosial şəbəkə hesablarında paylaşılmış saxta informasiya ilə bağlı açıqlama yayıb.**

AZƏRTAC açıqlamanı təqdim edir: "Bir sıra sosial şəbəkə hesablarında Azərbaycan Respublikasının daxili işlər naziri adından Azərbaycan Respublikası Prezidentinin açıqlamalarına dair həqiqətə uyğun olmayan saxta şərh yayılıb.




Son günlər kampaniya xarakteri alan bu uydurma iddialar ictimai rəyi çaşdırmağa yönələn kobud informasiya manipulyasiyası nümunəsidir.

Cəmiyyəti yalnız rəsmi mənbələrin verdiyi informasiyaya inanmağa, dövlətin rəsmi mövqeyini ifadə edən məlumatları ölkənin informasiya agentlikləri və digər peşəkar media subyektlərindən əldə etməyə çağırırıq.

Azərbaycan vətəndaşlarını, jurnalistləri, ictimai fəalları bu kimi hallara qarşı hər zaman prinsipiallıq nümayiş etdirməyə, saxta və yalan məlumat əsaslı kampaniyaların vüsət aldığı bir şəraitdə sayıq olmağa səsləyirik".

# "MətbuArt" beynəlxalq incəsənət simpoziumu yekunlaşdı

**Xəbər verdiyimiz kimi, "Azərbaycan" nəşriyyatında milli mətbuatımızın 150 illiyinə həsr olunmuş "MətbuArt" beynəlxalq incəsənət simpoziumunu yekunlaşdıran sərginin açılışı olub.**

"Azərbaycan" nəşriyyatının təşəbbüsü və təşkilatçılığı ilə keçirilən simpozium "Söz. Çap. Forma – birləşən dünyalar" şüarı altında baş tutub. Layihənin əsas məqsədi Azərbaycan mətbuatının tarixi inkişaf yoluna diqqət çəkmək və onunla sıx bağlı olan "Azərbaycan" nəşriyyatının bir əsrdən artıq tarixini incəsənət dili ilə təqdim etməkdir.




Simpozium müddətində iştirakçılar – 17 azərbaycanlı və 17 xarici rəssam, fotoqraf və heykəltəraş – çap sənayesinə aid materiallardan, köhnəlmiş avadanlıqlardan, kağız tullantılarından istifadə edərək unikal bədii əsərlər yaradıblar. Xarici sənətkarlar ABŞ, Cənubi Koreya, İspaniya, İtaliya, Macarıstan, Meksika, Mərakeş, Misir, Niderland, Norveç, Portuqaliya, Səudiyyə Ərəbistanı, Tayland və Türkiyəni təmsil ediblər.



Sərgidə təqdim olunan əsərlər mətbuatın tarixi ilə müasir incəsənətin sintezini nümayiş etdirir, həm milli, həm də beynəlxalq sənət mühitinin yaradıcı baxışlarını bir araya gətirir. Ekspozisiyada qəzet səhifələrindən hazırlanmış instalyasiyalar, köhnə çap maşınlarından formalaşdırılmış heykəllər, fotoqrafik kollajlar və rəngkarlıq nümunələri yer alır.

Sərgi "Azərbaycan" nəşriyyatında sentyabrın əvvəlinə qədər açıq qalacaq.

***Ünva :*** *Mətbuat prospekti, 529-cu məhəllə.*

***XQ,***
***Emil XƏLİLOV (fb o)***

# Milli oyanışın "Əkinçi"si

**Əsr yarım öncə əkilən bu toxum nə torpağa, nə də təsərrüfata aiddir. Bu aydınlıq və işıq rüşeymlərini dahi mütəfəkkir Həsən bəy Zərdabi öz dövrünün insanlarının beyninə səpdi. Həmin toxumlar indiyədək tükənməyən bar verir, yenə də bar verəcək...**




XIX əsrin 2-ci yarısında görkəmli ziyalı Həsən bəy Zərdabi bir maarifçi kimi Azərbaycanın sosial-iqtisadi və mədəni geriliyinin əsas səbəbini elm və mədəniyyətin, dünyəvi təhsil ocaqlarının azlığında, despotizmin və dini fanatizmin geniş yayılmasında görürdü. O, buna görə xalqın maariflənməsi üçün milli mətbuatın yaranmasını ən vacib amillərdən sayırdı.

Həsən bəy qəzet nəşr etmək üçün hökumətə müraciət etmişdi. Bunun üçün İstanbuldan çap avadanlığı, hürufat da gətirmişdi. Nəhayət, xeyli zəhmətdən, əzab-əziyyətdən sonra "Əkinçi" qəzetinin ilk nömrəsi 1875-ci il iyulun 22-də işıq üzü gördü. Bakıda qubernator mətbəəsində Azərbaycan dilində nəşr olunan bu qəzet bütün Qafqazda geniş əks-səda doğurdu. Həsən bəy Zərdabi qəzetin ilk nömrəsində yazırdı: "Hər bir vilayətin qəzeti gərək o vilayətin aynası olsun, yəni, o vilayətin sakinləri elədiyi işlər, onlara lazım olan şeylər, xülasə, onların hər bir dərdi və xahişi o qəzetdə çap olunsun ki, o qəzetə baxan xalqı aynada görən kimi görsün".

Təsisçi qəzetin adını "Əkinçi" qoysa da, senzura və dini xurafatın təqiblərindən yayınıb cəmiyyətin problemlərindən də bəhs edirdi. İlk növbədə dünyəvi təhsilin təbliği sahəsində fəal iş aparırdı. Az müddət ərzində o, doğma xalqının sosial və mənəvi dirçəlişi üçün yorulmaz çabalar göstərdi. Mirzə Fətəli Axundzadənin maarifçi ideyalarını daha da inkişaf etdirdi.

Ümummilli lider Heydər Əliyev 1995-ci ildə jurnalistlərə müraciətində deyirdi: "Əsası 120 il bundan öncə böyük alim, pedaqoq, jurnalist, ictimai xadim Həsən bəy Zərdabinin "Əkinçi" qəzeti ilə qoyulmuş milli mətbuatımız Azərbaycan xalqının mənəvi-mədəniyyəti tarixinə şərəfli səhifələr yazmış, milli mənliyimizin formalaşmasında, mənəvi dəyərlərin qorunub saxlanılmasında misilsiz rol oynamışdır. Azərbaycan mətbuatı tarix boyu daim mütərəqqi ictimai ideallarının carçısı kimi çıxış etmiş, xalqımızın ən ülvi arzularının reallaşmasına öz töhfəsini vermiş, onun müstəqillik amalının güclənməsində, mənəvi dəyərlərinin tərəqqisində, milli şüurun, mədəniyyətin formalaşmasında böyük rol oynamışdır".

Görkəmli ziyalılar da zaman-zaman "Əkinçi"yə layiq olduğu dəyəri veriblər. Azərbaycan Xalq Cümhuriyyətinin xarici işlər naziri və parlamentin ilk sədri Əlimərdan bəy Topçubaşov "Əkinçi" qəzetinin ilk sayının 50 illiyi münasibəti ilə yazdığı "Azərbaycanın mayakı" məqaləsində qeyd edirdi: "Həsən bəy təkcə naşir və redaktor deyildi, həm də qəzetin yeganə əməkdaşı idi – xronika yazırdı, müxbirlik edirdi, qəzetin bütün "deşik"lərini doldururdu. Eyni zamanda, vaxtının çoxunu mətbəədə keçirirdi, qəzeti korrektura edirdi, yazışma aparırdı və s. Yerdə qalan inzibati və texniki işlər Hənifə xanımın (Həsən bəy Zərdabinin həyat yoldaşı) payına düşürdü..."

"Maarifdən, elmdən məhrum bir xalq işıqdan məhrumdur" – deyən Zərdabi inkişaf etmiş millətlər arasında doğma millətinin də imzasını görmək arzusu ilə ürəyini məşəl edib, xalqının elm, maarif, təhsil yolunu işıqlandırdı.

***Nurlan CƏBRAYILZADƏ,***
***BDU-nun jurnalistika fakültəsinin tələbəsi***

# Qədim diyarda "Milli mətbuat – 150 il" şənliyi



**Naxçıvan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə mətbuat gününə həsr olunmuş "Milli mətbuat –150 il" adlı bayram şənliyi keçirilib.**

Şəhər rəhbəri Cabbar Musayev Naxçıvanda çalışan jurnalistləri yubiley və peşə bayramı münasibətilə təbrik edib. O bildirib ki, Azərbaycan mətbuatının 150 illik tarixi xalqımızın maariflənməsi, ictimai düşüncənin formalaşması və milli ideologiyanın bərqərar olması yolunda keçdiyi şərəfli bir yoldur. Həsən bəy Zərdabinin əsasını qoyduğu bu müqəddəs yol bu gün müasir Azərbaycanın azad, peşəkar və milli maraqlara xidmət edən mətbuat orqanları ilə uğurla davam etdirilir.

Qeyd edilib ki, Azərbaycanda kütləvi informasiya vasitələrinin inkişaf etdirilməsi, jurnalistlərin sosial şəraitinin yaxşılaşdırılması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin media siyasətini yüksək səviyyədə davam etdirən Prezident İlham Əliyevin "Azərbaycan milli mətbuatının 150 illiyi" yubiley medalının təsis olunması barədə və "Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında" sərəncamları milli mediamızın fəaliyyətinə verilən yüksək önəm və qiymətdir.

Sonra Azərbaycan Milli Mətbuatının 150 illik yubileyi ilə əlaqədar Naxçıvan Televiziyası tərəfindən hazırlanmış videoçarx nümayiş olunub, muxtar respublikada fəaliyyət göstərən media orqanlarının bir sıra nümayəndələri mükafatlandırılıb.

***H.SƏBUHİ***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 150 (30844) 23 iyul 2025-ci il, çərşənbə

İDMAN

# “Qarabağ” klubu İrlandiya adasında

## *Bu dəfə Çempionlar Liqasında yolumuz Dublindən başlayır*

**Budur, təmsilçimiz yeni avrokuboklar mövsümündə qitə klub futbolunun 1 nömrəli turniri Çempionlar Liqasının 2-ci təsnifat mərhələsinin 1-ci raundunda mübarizəyə başlayır. Bu gün Bakı vaxtı ilə saat 22:45-də xorvatiyalı hakim Ante Çulinanın işarəsi ilə İrlandiya Respublikasının baş şəhəri Dublində yerli “Şelburn” klubu ilə Azərbaycan çempionu Ağdamın “Qarabağ” komandasının görüşünə start veriləcək.**



Bununla da hər iki rəqib “Tolka Park” stadionunun yaşıl meydanında mühüm oyundan maksimum fayda götürməyə çalışacaq. Bu, cavab görüşünə daha yaxşı əhvalla hazırlaşmaq, ümumi müvəffəqiyyətə doğru yolda lazımi zəmin yaratmaq üçün vacib şərtdir. Onlar məqsədlərinə nə dərəcədə nail olacaqlarını isə bizim yerlərdə gecəyarısı olanda biləcəklər.

Əgər Azərbaycan klub futbolunun lideri indiki avrokuboklar mövsümündə ilk rəsmi sınağına çıxırsa, Liqada mübarizəyə 1-ci təsnifat mərhələsindən başlayan “Şelburn” artıq iki oyunda bərkdən-boşdan çıxıb. Başlanğıc da uğurlu olub. Şimali İrlandiyanın “Linfild” klubu ilə görüşlərdə qələbə və heçheçə (1:0; 1:1) İrlandiya təmsilçisinə 2-ci raundda da döyüş yoluna davam etmək imkanı yaradıb.

Amma Liqada start ərəfəsində Qurban Qurbanovun futbolçuları da boş-bekar oturmayıblar. Avstriyada sıx rejimdə keçirilmiş gərgin təlim-məşq toplanışı və ciddi rəqiblərlə yoldaşlıq görüşləri Dublində çətin sınaqda komandanın köməyinə gəlməlidir.

“Qarabağ” azarkeşləri artıq yaxşı bilirlər ki, onların sevimli komandası İrlandiyaya yeni oyunçular da aparıb. Klubun Çempionlar Liqasının ikinci təsnifat mərhələsi üçün UEFA-ya göndərdiyi 24 nəfərlik iştirak ərizəsində yeni adlar da var. Ola bilsin, onlardan bəziləri ilə artıq bu axşam tanış olub, oyun ustalıqları haqqında müəyyən təsəvvür alaq. Komandamızda ilk addımları uğurlu olsun.

Bakıda, Tofiq Bəhramov adına Respublika Stadionunda “Qarabağ”—“Şelburn” cavab görüşünün iyulun 30-da keçirilib, saat 20-də başlanacağını da xatırladıb, qeydlərimizi Dublin matçında maraqlı hadisələrə şahidlik etmək, uğurlu nəticəyə sevinmək ümidi ilə yekunlaşdıraq.

Bu zaman Konfrans Liqasını da unutmayaq. Burada da həyəcanlı həftədir. Bu gün və sabah “Zirə” ilə “Araz Naxçıvan” öz meydanlarında müvafiq surətdə Xorvatiyanın “Hayduk” və Yunanıstanın “Aris” klublarını sınağa çəkəcəklər, Avroliqada “Çelye” (Sloveniya) imtahanından kəsilib, “konfransa” düşən “Sabah” isə sabah Kişinyovun “Zimbru” stadionunda Moldovanın “Petrokub” komandası ilə qarşılaşacaq. Hələlik bu qədər…

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

## Gənc atletimiz Skopyedə rekorda imza atıb




**Azərbaycan atleti Əmir İsmayılov Şimali Makedoniyanın paytaxtı Skopyedə keçirilən XVIII Avropa Gənclər Yay Olimpiya Festivalında ölkə rekorduna imza atıb.**

Milli Olimpiya Komitəsinin mətbuat xidmətindən mətbuata verilən məlumata görə, gənc idmançı 110 metr məsafəyə sədlərlə qaçışda 14.44 saniyə nəticə göstərib.

Bu nəticə U-18 yaş kateqoriyasında yeni ölkə rekordu olub. Ə.İsmayılov qarşıdakı yarış günlərində atletikanın uzunluğa tullanma növündə də mübarizə aparacaq.

Qeyd edək ki, atletika yarışları Şimali Makedoniyanın paytaxtı Skopyedəki Todor Proeski adına milli stadionda keçirilir.

## Üzgüçülük konfransı




**Azərbaycan Üzgüçülük Federasiyasının (ASF) konfransı keçirilib. Konfransda ASF-nin prezidenti Zaur Əliyev rəhbərlik etdiyi qurumun strategiyası ilə bağlı ümumi məlumat verib.**

O, Azərbaycanda üzgüçülüyü inkişaf etdirmək, bu idman növünə maraq yaratmaq və daha geniş kütləyə çatdırmaq niyyətində olduqlarını, eyni zamanda daha böyük nailiyyətlər əldə etmək istədiklərini bildirib. Daha sonra ASF-nin yeni loqosu təqdim olunub.

Gənclər və idman naziri Fərid Qayıbov, Elm və təhsil nazirinin müavini Firudin Qurbanov və digər çıxış edənlər federasiyasının vacib işlər gördüyünü bildiriblər, bu yolda uğurlar arzulayıblar. Natiqlər bu idman növünün Azərbaycanda inkişaf edəcəyinə inandığını söyləyiblər.

Daha sonra federasiyanın inkişaf strategiyası təqdim olunub.

## Voleybolçu xanım ilə müqavilə yenilənib




**“Gəncə” voleybol klubu Xanım Cəlilova ilə müqaviləni yeniləyib. Klubun mətbuat xidməti xəbər verir ki, voleybolçu ilə müddəti bir ili əhatə edəcək müqavilə imzalanıb.**

Qeyd edək ki, X.Cəlilova “Gəncə”nin heyətində ötən mövsüm Azərbaycan Kubokunda gümüş medal qazanıb.

***M.HACIXANLI***
***XQ***

✓ *2004-cü il iyunun 16-da Dövlət Dəniz Administrasiyası tərəfindən “Valentina” gəmisinin sahibi Ələsgərov Səyyad Əlməhəmməd oğlunun adına verilmiş gəmiyə mülkiyyət hüququ haqqında D G R-0377 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.*

# Beynəlxalq ikili diplom proqramları 8-ə çatdırılıb



**Ali təhsil sahəsində tətbiq edilən beynəlxalq ikili diplom proqramlarının sayı “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”na uyğun olaraq 6-dan 8-ə çatdırılıb və onların icrası 2030-cu ilədək təmin ediləcək.**

Eyni zamanda mövcud və yeni tətbiq ediləcək beynəlxalq ikili diplom proqramlarının maliyyələşdirilməsi, Azərbaycan Dövlət Neft Fondunun vəsaiti hesabına təmin ediləcək.

Bundan başqa, Nazirlər Kabineti dörd ay müddətində beynəlxalq ikili diplom proqramlarının həyata keçiriləcəyi xarici tərəfdaş ali təhsil müəssisələrinin, ixtisaslar üzrə təhsil proqramlarının və təhsil səviyyələrinin seçimi qaydasını təsdiq edib Azərbaycan Prezidentinə məlumat verəcək.

***XQ***

# Şəki Teatrının “Dar ağacı” Aktauda

**Şəki Dövlət Dram Teatrı sentyabrın 21-26-da Qazaxıstanın Aktau şəhərində keçiriləcək TÜRKSOY-un III Beynəlxalq Teatr Festivalında iştirak edəcək. Teatr festivala Xalq şairi, dramaturq Bəxtiyar Vahabzadənin “Dar ağacı” pyesi əsasında hazırlanan eyniadlı tamaşa ilə qatılacaq.**

Tarixi dramda Azərbaycanın Ərəb xilafətinə, yadelli işğalçılara qarşı azadlıq mübarizəsindən bəhs edilir. Tamaşanın quruluşçu rejissoru teatrın baş rejissoru, Əməkdar incəsənət xadimi Mirbala Səlimli, quruluşçu və geyim üzrə rəssamı Nicat Məmmədov, mahnıların bəstəkarı Xatirə Orucova, baletmeysteri Çingiz Novruzəliyev, vokal üzrə müəllim Fərqanə Salamovadır. Tamaşanın musiqisi bəstəkar, Xalq artisti Aqşin Əlizadəyə, səhnə döyüşlərinin quruluşu isə Sahib Novruzova məxsusdur.




Səhnə əsərində rolları Əməkdar artistlər Xanlar Həşimzadə (Ağsaqqal), Əbülfət Salahov (İbn Zeyd), Rəhim Qocayev (Babəkin teyfi), aktyorlar Xəyal Salahov (Akşin), Rəşid Mirizadə (Sabutay), Lalə Məmməd (Ana), Gülxar İmamhüseynova (Çılğın), Fərahim Fətəliyev (İbn Tahir), Pərviz İsmayılov (İbn Süheyl), Elvin Mabudov (Altay) və digərləri ifa edirlər.

***XQ***

Hava

# Daha bir qızmar yay günü...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən mətbuata verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir. Mülayim şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 23-26, gündüz 33-37 dərəcə isti olacaq. Atmosfer təzyiqi 755 millimetr civə sütunu, nisbi rütubət isə gecə 70-80, gündüz 50-55 faiz təşkil edəcək.**



Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 22-27, gündüz 36-41, dağlarda gecə 13-18, gündüz 28-33 dərəcə isti olacağı ehtimal edilir.

***Q.QASIMOV***
***XQ***

“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyəti

*“Microsoft” lisenziyalarının satın alınması üçün*

**AÇIQ TENDER ELAN EDİR**

“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin “Microsoft” “lisenziyalarının satın alınması üçün açıq tenderində iştirakçılar arzu.qasimli@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 6 avqust 2025-ci il saat 14.00 -dır.

Prosedur üzrə əlaqələndirici şəxs – Arzu Qasımlı, mütəxəssis, arzu.qasimli@azal.az, iş – (+99412) 4972600 daxili 6989.

“Sumqayıt Ərzaq–73” ASC səhmdarlarının nəzərinə!

25 avqust 2025-ci il saat 10.00-da “Sumqayıt Ərzaq-73” ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:
1. ASC-nin ayırılma şəklində yenidən təşkili.
2. Ayırılma şəklində yenidən təşkil edilən ASC-nin bölünmə balansının təsdiq olunması və ayırılmış əmlakın təhvil verilməsi.
3. ASC-nin bölünməsi nəticəsində yenidən təşkil edilən MMC-nin təsis olunmasına və nizamnamə kapitalının formalaşmasına razılığın verilməsi.
4. ASC-yə məxsus səhmlərin bir hissəsinin ləğv edilməsi və dövriyyədən çıxarılması.
5. Digər məsələlər.

Səhmdarlar gündəlikdəki məsələlərə aid sənədlərlə tanış olmaq üçün həftənin iş günləri saat 10.00-dan-17.00-dək cəmiyyətin icra orqanının rəhbərinə müraciət edə bilərlər.

Əlaqə nömrəsi (050) 345-57-08.
Ünvan- Sumqayıt şəhəri, 17-ci mikrorayon 62.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3249
SİFARİŞ 1511
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00